TÜRK MƏDƏNİYYƏTİ
VƏ İRSİ FONDU



# HEYDƏR ƏLİYEV
*və*
# MƏHƏMMƏD FÜZULİ

*Türk dünyasının görkəmli şəxsiyyətləri*

TÜRK MƏDƏNİYYƏTİ
VƏ İRSİ FONDU

*"Türk dünyasının görkəmli şəxsiyyətləri"*
*kitab seriyası*

# HEYDƏR ƏLİYEV
# *və*
# MƏHƏMMƏD FÜZULİ

BAKI 2024

Layihə rəhbəri və ön sözün müəllifi:
**Aktotı Raimkulova**
*Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti,*
*Qazaxıstan Respublikasının Əməkdar incəsənət xadimi,*
*sənətşünaslıq elmləri doktoru, professor*

Tərtibçi və redaktor:
**Fərid Hüseyn**
*Azərbaycan Yazıçılar Birliyinin Gənclər Şurasının sədri*

Bədii tərtibatçı:
**Ziyadxan Əliyev**
*Əməkdar incəsənət xadimi*

**Heydər Əliyev və Məhəmməd Füzuli**
Bakı, "Zərdabi Nəşr" MMC. 2024. 156 səh.

Kitab dahi şair Məhəmməd Füzulinin 530 illik yubileyi münasibətilə çapa hazırlanıb. Nəşrdə Ulu Öndər Heydər Əliyevin Məhəmməd Füzuli ilə bağlı fərman və sərəncamları, görkəmli ədibin yubileylərindəki çıxışları, həmçinin Ulu Öndərin qüdrətli qələm sahibi Məhəmməd Füzuli irsinin gələcək nəsillərə ötürülməsi, tədqiqi və təbliği məsələlərindəki müstəsna xidmətləri haqqında məqalələr yer alıb.

ISBN 978 9952 571 76 9

© "Zərdabi Nəşr" MMC, 2024





Azərbaycan Xalqının Ümummilli Lideri
Heydər Əliyev



Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyev





**Aktotı Raimkulova**
*Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti,*
*Qazaxıstan Respublikasının Əməkdar incəsənət xadimi,*
*sənətşünaslıq elmləri doktoru, professor*

# Ədəbiyyatı əbədi yaşadan unudulmaz lider

Türk ədəbiyyatının parlaq ədəbi incilərini yaratmış, türk dünyasının bədii irsini zənginləşdirmiş dahi şair Məhəmməd Füzuli hər əsrlə təzələnən, yeni-yeni mənalar qazanan, heç zaman köhnəlməyən əsərlər yaratmışdır. Unudulmaz söz ustadının bədii irsi türk dünyasının ortaq ədəbi abidələrindəndir. Zaman keçdikcə biz həmin ədəbi irsin bənzərsiz nümunələrini təkrar-təkrar oxuyur və onların dünəndən bu günə və gələcəyə ünvanlanan dərin mənalı, hikmətli ismarışlar olduğunu anlayırıq.

Məhəmməd Füzuli orta əsr türk ədəbiyyatının ədəbi məktəb yaratmış sənətkarlarındandır və altı əsrdir ki, türk xalqlarının yenilənən nəsilləri onun əsərlərinə müraciət edirlər. Bu xoşbəxtlik dünyada çox az şairə nəsib olur. Ötən altı əsr müddətində dünyanın bir sıra yerlərində yaşayıb-yaratmış Füzuli ədəbi məktəbinin davamçılarının sayı yüzlərlədir və onlar dünyanın ayrı-ayrı coğrafiyalarında ölməz sənətkarın yaradıcılıq yolunu uğurla davam etdirirlər.

Bu il 530 yaşı tamam olan dahi şairin yubileyi Azərbaycanda və bütün Türk dünyasında, o cümlədən müxtəlif ölkələrdə təntənəli şəkildə qeyd ediləcək.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev cari ilin 25 yanvar tarixində Məhəmməd Füzulinin 530 illik yubileyinin keçirilməsi ilə bağlı sərəncam

imzalamışdır. Sərəncamın mətnindən aydın olur ki, mədəniyyətə və ədəbiyyata daim böyük diqqət göstərən cənab İlham Əliyev Füzuli yaradıcılığını olduqca yüksək qiymətləndirir və onun ədəbiyyat tarixindəki müstəsna rolunu xüsusi qeyd edir.

Eyni zamanda sərəncamda Azərbaycan Xalqının Ümummilli Lideri, görkəmli siyasi xadim Heydər Əliyevin Məhəmməd Füzulinin yaradıcılığının beynəlxalq müstəvidə tanıdılması, adının əbədiləşdirilməsi istiqamətində müstəsna xidmətlərindən bəhs edilir: "Füzulinin yubileyinin UNESCO tərəfindən qəbul edilmiş qərarla beynəlxalq səviyyədə layiqli şəkildə qeyd edilməsi milli dəyərlərin qorunmasına həmişə xüsusi diqqət və qayğı göstərmiş Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölməz şairin 500 illiyi müstəqil Azərbaycan Respublikasında keçirilən ilk dünya miqyaslı möhtəşəm mədəniyyət və sənət bayramı olmuşdur".

Biz də Türk Mədəniyyəti və İrsi Fondu olaraq daim türk dünyasının maddi və mədəni irsini təbliğ edir, görkəmli sənətkarların əsərlərinin beynəlxalq müstəvidə tanıdılmasına çalışırıq. Fondun növbəti layihəsi olan "Heydər Əliyev və Məhəmməd Füzuli" kitabı dahi şairin ədəbi irsinin tanıdılmasında, adının əbədiləşdirilməsində danılmaz xidmətləri olmuş görkəmli siyasi xadim Heydər Əliyevin bu yöndəki tarixi fəaliyyətinə həsr edilmişdir.

Kitaba Heydər Əliyevin Məhəmməd Füzulinin yubileyləri və adının əbədiləşdirilməsi ilə bağlı fərman və sərəncamları, qüdrətli söz ustadının Bakı, Ankara, Moskva şəhərlərində keçirilən yubileylərindəki nitqləri, həmin tədbirlərə aid fotolar, həmçinin Heydər Əliyevin Məhəmməd Füzulinin 500 illik yubileyi ilə əlaqədar yaradılmış Dövlət Komissiyasının iclaslarındakı çıxışları və digər materiallar daxil edilib.

Həmçinin nəşrdə Heydər Əliyevin Məhəmməd Füzuli irsinin təbliği ilə bağlı gördüyü tarixi işlər haqqında elm xadimlərinin məqalələri yer alıb. Kitabdakı həmin məqalələri görkəmli rəssamların əsərləri müşayiət edir.

Fond tərəfindən Türk dünyasının əbədiyaşar söz sənətkarı Məhəmməd Füzulinin 530 illik yubileyinə həsr edilən bu kitab unudulmaz lider, görkəmli siyasi xadim Heydər Əliyevin işıqlı xatirəsinə ithaf olunur.



# Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin dahi şair Məhəmməd Füzuli ilə bağlı fərman və sərəncamları

# Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

1994-cü ildə dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi tamam olur. Dünya klassikləri sırasında ensiklopedik biliyi, dəyərli bədii-fəlsəfi irsi ilə seçilən ölməz söz ustası Füzulinin Azərbaycan, ərəb və fars dillərində yaratdığı əsərlər ümumbəşəri mənəvi dəyər və sərvətlər xəzinəsinə əbədi daxil olmuşdur.

Məhəmməd Füzulinin 500 illik yubileyinin əsaslı hazırlanması və dövlət səviyyəsində keçirilməsi şairin xatirəsinə dərin ehtiram və məhəbbətin ifadəsi olmaqla Azərbaycan xalqının qədim və yüksək mədəniyyətinin bütün dünyada təbliği və tərənnümünə xidmət edir.

Məhəmməd Füzulinin dünya mədəniyyəti və ədəbiyyatı tarixindəki mövqeyini, onun yubileyinin beynəlxalq əhəmiyyətli hadisə olduğunu nəzərə alaraq dahi şair və mütəfəkkirin 500 illiyinin layiqincə hazırlanması və keçirilməsi məqsədilə **qərara alıram:**

1. Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyi üzrə aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:

**Dövlət Komissiyasının sədri:**

Heydər **Əliyev** — Azərbaycan Respublikasının Prezidenti

**Dövlət Komissiyası sədrinin müavinləri:**

Elçin **Əfəndiyev** — Azərbaycan Respublikası Baş nazirinin müavini

Eldar **Salayev** — Azərbaycan Respublikası Elmlər Akademiyasının prezidenti

Anar **Rzayev** — Azərbaycan Yazıçılar Birliyinin sədri

**Dövlət Komissiyasının üzvləri:**

Qabil **Hüseynli** — Azərbaycan Respublikasının dövlət müşaviri

Hidayət **Orucov** — Azərbaycan Respublikasının milli siyasət məsələləri üzrə dövlət müşaviri

Fatma **Abdullazadə** — Azərbaycan Respublikası Prezidenti Aparatının humanitar siyasət şöbəsinin müdiri

İsmayıl **Sadıqov** — Azərbaycan Respublikası Nazirlər Kabineti İşlər İdarəsinin elm, mədəniyyət və xalq təhsili şöbəsinin müdiri

Həsən **Həsənov** — Azərbaycan Respublikasının xarici işlər naziri

Lidiya **Rəsulova** — Azərbaycan Respublikasının təhsil naziri

Polad **Bülbüloğlu** — Azərbaycan Respublikasının mədəniyyət naziri

Sabir **Rüstəmxanlı** — Azərbaycan Respublikasının mətbuat və informasiya naziri

Babək **Məmmədov** — Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin sədri

Ramiz **Rizayev** — Moskva şəhərində Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi

Allahşükür **Paşazadə** — Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri

Nazim **İbrahimov** — "Azərbaycan" nəşriyyatının direktoru

İsmayıl **Vəliyev** — "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyinin baş direktoru

Vaqif **Rüstəmov** — AzərTAC-ın baş direktoru

Ziya **Bünyadov** — Azərbaycan Respublikası Elmlər Akademiyasının vitse-prezidenti, Şərqşünaslıq İnstitutunun direktoru

Aslan **Aslanov** — Azərbaycan Respublikası Elmlər Akademiyası tarix, iqtisadiyyat, fəlsəfə və hüquq bölməsinin akademik-katibi, Fəlsəfə və Hüquq İnstitutunun direktoru

Bəkir **Nəbiyev** — Azərbaycan Respublikası Elmlər Akademiyası ədəbiyyat, dil və incəsənət bölməsinin akademik-katibi

Kamal **Talıbzadə** — Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki

Bəxtiyar **Vahabzadə** — Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü

Əlyar **Səfərli** — Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü

Fuad **Qasımzadə** — Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü

İqrar **Əliyev** — Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü, Tarix İnstitutunun direktoru

Rəfael **Allahverdiyev** — Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

Kamal **Abdullayev** — Azərbaycan Mədəniyyət Fondunun sədri

Çingiz **Abdullayev** — Azərbaycan Yazıçılar Birliyinin katibi

Tofiq **Quliyev** — Azərbaycan Bəstəkarlar İttifaqının sədri

Fərhad **Bədəlbəyli** — Azərbaycan Musiqi Xadimləri İttifaqının sədri

Rasim **Balayev** — Azərbaycan Kinematoqrafçılar İttifaqının birinci katibi

Hacı **Hacıyev** — Azərbaycan Jurnalistlər Birliyinin sədri

Həsənağa **Turabov** — Azərbaycan Teatr Xadimləri İttifaqının prezidenti

Fərhad **Xəlilov** — Azərbaycan Rəssamlar İttifaqının sədri

İlham **Əliyev** — Azərbaycan Memarlar İttifaqının sədri

Oqtay **Mirqasımov** — "Azərkinovideo" İstehsalat Birliyinin sədri

İsmayıl **Şıxlı** — Xalq yazıçısı

Nəbi **Xəzri** — Xalq şairi

Balaş **Azəroğlu** — Xalq şairi

Xəlil **Rza** — Xalq şairi

İsa **Hüseynov** — Xalq yazıçısı

Arif **Məlikov** — Xalq artisti, bəstəkar

Cabir **Novruz** — Xalq şairi

Yusif **Səmədoğlu** — yazıçı

Rüstəm **İbrahimbəyov** — yazıçı, kinodramaturq

Ramiz **Fətəliyev** — kinodramaturq, "Azərbaycanfilm" kinostudiyasının direktoru

Sabir **Əhmədli** — "Ədəbiyyat" qəzetinin baş redaktoru

Yaşar **Qarayev** — Azərbaycan Respublikası Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun direktoru

Ağamusa **Axundov** — Azərbaycan Respublikası Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun direktoru

Cahangir **Qəhrəmanov** — Azərbaycan Respublikası Elmlər Akademiyası Əlyazmaları İnstitutunun direktoru

Vasim **Məmmədəliyev** — Bakı Dövlət Universitetinin kafedra müdiri

Rüstəm **Əliyev** — Azərbaycan Respublikası Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun şöbə müdiri

Samət **Əlizadə** — Bakı Dövlət Universitetinin professoru

Azadə **Rüstəmova** — Azərbaycan Respublikası Elmlər Akademiyası Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru

Vəcihə **Feyzullayeva** — Azərbaycan Respublikası Elmlər Akademiyası Ədəbiyyat İnstitutunun böyük elmi işçisi, filologiya elmləri namizədi

Mail **Əliyev** — Azərbaycan Respublikası Elmlər Akademiyası Əlyazmalar İnstitutunun elmi işçisi.

2. Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasına müvafiq ştat vahidləri ayırmaqla üç nəfərdən ibarət işçi qrup yaradılsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmanın icrası ilə bağlı məsələləri həll etsin.

4. Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 31 avqust tarixli 102 №-li sərəncamı öz qüvvəsini itirmiş hesab edilsin.

**Heydər Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 16 mart 1994-cü il



## Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasının dahi şair və mütəfəkkirin anadan olmasının 500 illiyinin hazırlanması və keçirilməsi ilə əlaqədar yubiley tədbirləri planının müzakirəsinin nəticələrini nəzərə alaraq **qərara alıram:**

1. Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı təsdiq edilsin.
2. Azərbaycan Respublikası Nazirlər Kabineti nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsini təmin etsin.

**Heydər Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 12 avqust 1994-cü il

## Azərbaycan Respublikası Elmlər Akademiyasının Əlyazmalar İnstitutuna Məhəmməd Füzulinin adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 500 illik yubileyi münasibətilə

Q Ə R A R A  A L I R A M:

Azərbaycan Respublikası Elmlər Akademiyasının Əlyazmalar İnstitutuna Məhəmməd Füzulinin adı verilsin.

**Heydər Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 13 sentyabr 1996-cı il



## "Füzuli ensiklopediyası"nın yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 500 illik yubileyi münasibətilə "Füzuli ensiklopediyası"nın hazırlanması və nəşr edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Elmlər Akademiyasının Rəyasət Heyəti nəzdində müstəqil hesablı "Füzuli ensiklopediyası redaksiyası" yaradılsın.

2. "Füzuli ensiklopediyası"nın nəşri ilə əlaqədar yeddi nəfərdən ibarət redaksiya heyəti yaradılsın.

3. Azərbaycan Respublikası Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Heydər Əliyev**
Azərbaycan Respublikası Prezidenti
Bakı şəhəri, 13 sentyabr 1996-cı il

# Füzuli adına beynəlxalq mükafatın təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 500 illik yubileyi münasibətilə və beynəlxalq miqyasda Füzuli ilə bağlı əsərlərin mükafatlandırılması məqsədilə

QƏRARA ALIRAM:

1. Füzuli adına beynəlxalq mükafat təsis edilsin.

Hər iki ildə bir dəfə verilmək şərti ilə hər biri 10.000 ABŞ dolları məbləğində iki mükafat Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabineti Füzuli adına Beynəlxalq Mükafat Komissiyasının tərkibini və beynəlxalq mükafat haqqında əsasnaməni hazırlayıb təsdiq edilmək üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**Heydər Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 13 sentyabr 1996-cı il



# Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2024-cü ildə dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 ili tamam olur.

Məhəmməd Füzuli Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yer tutan, Yaxın və Orta Şərq ölkələri ədəbiyyatına mühüm təsir göstərən qüdrətli sənətkardır. Hərtərəfli biliyə malik mütəfəkkir kimi onun həyata, insana dərin məhəbbət aşılayan və daim gözəllik duyğusu ilə, ülvi ideallarla yaşamağa çağıran çoxcəhətli bədii-fəlsəfi irsi Azərbaycan xalqının bəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi misilsiz mənəvi sərvətlərdəndir. Məhəmməd Füzuli anadilli poeziyanın mükəmməl nümunələrini yaratmış, Azərbaycan bədii dilini daha da zənginləşdirərək yeni zirvəyə yüksəltmişdir. Onun parlaq dühasının təcəssümü olan və bu gün də sevilə-sevilə oxunan əsərləri yarandığı ilk vaxtlardan geniş coğrafiyada yayılmış və müəllifinə böyük şöhrət qazandırmışdır.

Məhəmməd Füzuli istedadlı nümayəndələri ilə tanınan bütöv bir ədəbi məktəb formalaşdırmışdır. Öz müasirlərindən başlayaraq, sonrakı dövrlərdə Füzuli ənənələrinin davamçısı olmuş bütün görkəmli sənətkarlar bu nəhəng söz ustasının adını hər zaman ehtiramla yad etmişlər.

Füzulinin yubileyinin UNESCO tərəfindən qəbul olunmuş qərarla beynəlxalq səviyyədə layiqli şəkildə qeyd edilməsi milli mədəni dəyərlərin qorunmasına həmişə xüsusi diqqət və qayğı göstərmiş Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölməz şairin 500 illiyi müstəqil

Azərbaycan Respublikasında keçirilən ilk dünya miqyaslı möhtəşəm mədəniyyət və sənət bayramı olmuşdur.

Məhəmməd Füzuli Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixinin iftixarıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 yanvar 2024-cü il



# Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyevin dahi şair Məhəmməd Füzulinin yubileylərindəki nitqləri, beynəlxalq tədbirlərə ünvanladığı məktublar və Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar yaradılmış Dövlət Komissiyasının iclaslarındakı çıxışları

# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Prezident sarayında dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar yubiley üzrə Dövlət Komissiyasının iclasında çıxışı[1]

Dahi Azərbaycan şairi, böyük mütəfəkkir insan Məhəmməd Füzulinin 500 illik yubileyi ilə əlaqədar təşkil olunmuş komissiyanın iclası keçirilir. Xeyli vaxtdır ki, respublikada bu yubileyə hazırlıq işləri gedir. Yubiley komissiyasının yaratdığı işçi qruplar da müəyyən işlər görmüşlər. Ancaq komissiya üzvlərinin və dəvət olunmuş şəxslərin iştirakı ilə geniş iclas keçirilməsinə böyük ehtiyac var. İndiyədək görülmüş işləri təhlil etmək və qarşıdakı tədbirləri müzakirə etmək, bunların həyata keçirilməsi üçün şərait yaratmaq komissiyanın əsas vəzifələridir.

Respublikamızın bu ağır dövründə böyük yubileylər keçirilməsi, şübhəsiz ki, müəyyən qədər çətinliklərlə üzləşəcək. Ancaq bunlara baxmayaraq, həyatımızın mənəvi, mədəni sahəsi heç vaxt unudulmamalıdır. Çətinliklər nə qədər çox olsa da, mədəniyyətə, mədəni irsimizə, mənəviyyata daim xüsusi diqqət yetirməli və bu sahələrin geri qalmasına yol verməməliyik.

Dahi Füzulinin 500 illik yubileyinin keçirilməsi böyük mütəfəkkir şairin Azərbaycan xalqı qarşısında və bütün türk xalqları, dünya mədəniyyəti qarşısındakı xidmətlərinə verilən qiymətdir. Bu eyni zamanda həm də mədəniyyətimizi, tariximizi təbliğ etmək üçün çox əlverişli fürsətdir və biz bundan hərtərəfli istifadə etməliyik. Uzun illərin təcrübəsi göstərir ki, belə tədbirlər mənəviyyatın yüksəldilməsinə, insanların tariximizlə bağlı olmasına kömək göstərir.

Biz bütün bunları nəzərə alaraq Məhəmməd Füzulinin 500 illik yubileyinə hazırlıq işlərini layiqincə aparmalı və yüksək səviyyədə keçirməliyik. Yubiley komissiyasının vəzifəsi bundan ibarətdir. Güman edirəm ki, komissiyanın hər bir üzvü bu vəzifəni həvəslə yerinə yetirəcəkdir.

Bayaq dediyim kimi, biz bu gün hazırlanmış tədbirləri müzakirə etməli, onların həyata keçirilməsi üçün lazımi tədbirlər görməli və bundan sonra aparılan işlərin planını və vaxtını müəyyən etməliyik.

Müzakirəyə başlamamışdan əvvəl bildirmək istəyirəm ki, Məhəmməd Füzulinin 500 illik yubileyinin keçirilməsi ilə əlaqədar yaradılmış Dövlət Komissiyasının üzvü, böyük şairimiz, professor Xəlil Rza və böyük alim, professor Rüstəm Əliyev vəfat etmişlər. Ona görə də mən istərdim ki, işə başlamamışdan əvvəl Azərbaycan mədəniyyətinin və elminin bu iki dəyərli xadimlərinin xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah rəhmət eləsin.

Təklif edirəm ki, yubiley komissiyası sədrinin müavinləri Elçin Əfəndiyev, Eldar Salayev və Anar indiyədək görülən işlər haqqında məlumat versinlər, sonra müzakirəyə başlayaq...

**Yekun sözü**

İndi iqtisadi vəziyyət, yaşayışımız, bir sözlə, həyat nə qədər çətin olsa da, biz Məhəmməd Füzulinin yubileyini yüksək səviyyədə keçirməliyik. Ümumiyyətlə, Azərbaycanda yubileylər keçirmək sahəsində təcrübəmiz çoxdur. Xalqımız, ictimaiyyət də bunları həmişə ruh yüksəkliyi ilə qarşılamış və bu tədbirlərdə iştirak etmişdir. Belə tədbirlər respublikamızın ictimai-mədəni və mənəvi həyatını zənginləşdirmiş, görkəmli adamlarımızı xalqımıza daha yaxından tanıtmışdır.

Ona görə də həyatımızın bu keçid dövründə, ağır dövründə, mənəviyyatımızın, mədəniyyətimizin müəyyən dərəcədə sıxıntı keçirdiyi dövrdə belə bir yubileyin təşkili həyatımızı, bəlkə də, zənginləşdirəcəkdir. Bizdə də belədir və dünya təcrübəsi də göstərir ki, yubileyin keçirilməsi bir tərəfdən yubilyarın xalq, ölkə, dünya qarşısında xidmətlərini bir daha təbliğ və nümayiş etdirmək, digər tərəfdən müasir nəslin ona bəslədiyi hörmət və ehtiramı bildirmək deməkdir.

Məhəmməd Füzuli kimi şəxsiyyəti olan xalq fəxr edə bilər. Lakin dünya birliyində, dünya xalqları arasında onun tarixini, mədəniyyətini, milli ənənələrini təbliğ etmək, yaymaq, sübut etmək üçün belə yubileylər həmişə böyük bir vasitədir. Ona görə də, çətinliklərimizə baxmayaraq, bu yubileyi gərək yüksək səviyyədə keçirək. Əvvəla, Füzuli özünün yaradıcılığına, ədəbi, elmi və fəlsəfi irsinə görə buna layiqdir və Azərbaycan xalqının bugünkü, XX əsrin sonunda yaşayan nəsli ona öz minnətdarlığını bildirməlidir.

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 2-ci kitab. Bakı: Azərnəşr, 1997, s.91–102



Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyev
Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar yaradılmış
Dövlət Komissiyasının iclasında çıxış edərkən. 01 avqust 1994

İkincisi, bu yubileyi keçirərkən biz xalqımızın özünü daha dərindən tanımasını təmin edəcəyik və etməliyik. Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın. Şübhəsiz ki, bu yubileyin keçirilməsi indiki nəslin, xüsusən gənclərin tariximizin nə qədər zəngin olduğunu və Azərbaycan xalqının dünya mədəniyyətinə neçə töhfələr verdiyini bir daha dərk etməsinə şərait yaradacaq və hər bir azərbaycanlıda, ilk növbədə, gənc nəsildə milli iftixar, vətənpərvərlik hissini daha da yüksəldəcəkdir. Bunun özü müstəqil



Azərbaycanda bizim üçün çox gərəkli bir amildir.

Eyni zamanda, qeyd etdiyim kimi, biz daim çalışmışıq ki, Azərbaycan xalqını dünyaya daha yaxından tanıdaq. Bilsinlər ki, xalqımızın çoxəsrlik, zəngin tarixi, mədəniyyəti var. Bilsinlər ki, Azərbaycanın bugünkü mədəniyyəti dahi şəxsiyyətlərimizin yaratdığı və əsrlərdən-əsrlərə keçən mədəniyyətimizə, elmimizə, mənəviyyatımıza əsaslanır. Bu ona görə lazımdır ki, hamımıza məlum olan düşmən qüvvələr sübut etməyə çalışırlar ki, Azərbaycan xalqının zəngin tarixi olmamışdır, onun kökü yoxdur. Şübhəsiz ki, bu, cəfəngiyyatdır. Bəzən buna heç cavab vermək istəmirsən. Lakin xalqımıza düşmən olan, qəsd etmək istəyən dairələr, qüvvələr, bəzən də millətlər respublikamızı parçalamaq, onun ərazisini qəbul etmək istəyənlər əvvəllər də çalışmışlar və indi də çalışırlar sübut etsinlər ki, guya Azərbaycan xalqı tarixi köklərə malik olan bir xalq deyildir.

Ona görə də Füzuli kimi şəxsiyyəti dünyaya bir daha tanıtmaqla onun necə böyük şair, mütəfəkkir, filosof olduğunu və dünya mədəniyyətinə nə qədər töhfə verdiyini, onu necə zənginləşdirdiyini göstərəcəyik. Buna bizim əvvəllər də ehtiyacımız olmuşdur, lakin bu gün xüsusilə vacibdir. Çünki Azərbaycan müstəqil dövlətdir, xalqımız milli azadlığa nail olmuşdur və biz müstəqilliyimizin daimi, əbədi olması üçün çalışırıq və bundan sonra da çalışacağıq.

Bütün bunları nəzərə alaraq biz Məhəmməd Füzulinin yubileyini çox yüksək səviyyədə təşkil etməliyik. Respublikanın daxilində buna böyük ehtiyac var. Çünki Füzuli xalqımız arasında nə qədər məşhur olsa da, onun dahiliyi, yaradıcılığının dərinliyi heç də hamıya məlum deyildir. Ancaq indi bizdən ötrü önəmlisi Füzulini respublikamızdan kənarda təbliğ etmək, onu bütün dünyaya bir daha tanıtmaqdır.

YUNESKO Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar qərar qəbul etmişdir. Bildiyiniz kimi, YUNESKO hər il bu qəbildən olan qərarlar qəbul edir. Lakin bu imkandan necə istifadə etmək, şübhəsiz ki, hər bir ölkənin, xalqın özündən asılıdır. Ona görə də biz gərək yubileylə əlaqədar respublikamızdan kənarda keçirilən tədbirlərə xüsusi əhəmiyyət verək. Türkdilli ölkələrdə Füzulinin yubileyinin keçirilməsi də bu tədbirlər sırasına daxildir.

Burada çıxış edən natiqlər də dedilər ki, ərəblər və farslar Füzulini öz şairi sayırlar. Türkdilli xalqlar isə hesab edirlər ki, o, türkdür. Biz də deyirik ki, Füzuli türk, azərbaycanlıdır. Eyni zamanda bunu türkmən, özbək, qazax, Türkiyədə yaşayan türklər, İraq türkmənləri də deyə

bilərlər. Qoy Füzuli hamıya məxsus olsun, tarixə bəşəri bir şəxsiyyət kimi düşsün.

Eyni zamanda biz bu yubiley tədbirlərindən istifadə edərək dünyaya bir daha bildirməliyik ki, Füzuli azərbaycanlıdır, Azərbaycan köklüdür, onun yaradıcılığı Azərbaycan ədəbiyyatı və mədəniyyətinin bəhrəsidir. Füzuli başqa ölkələrdə də məşhurdur. Lakin onu azərbaycanlılar qədər özününkü sayan yoxdur. Məsələn, xatirimdədir, 30-cu illərin ortalarında mən orta məktəbdə oxuyarkən Füzuli ilə bağlı tədbirlər keçirilir, Füzuli təbliğ olunurdu. Yaxud həyatımla bağlı bir şeyi qeyd etmək istəyirəm. Gənclikdə rəssamlığa böyük həvəsim var idi. Mənim çəkdiyim ilk rəsmlərdən biri Füzulinin portreti olmuşdur. Təxminən 1936-37-ci illərdə məktəbimizdə şagirdlərin rəsmlərindən ibarət sərgi təşkil etmişdilər. O vaxtlar belə şeylərə çox fikir verirdilər. Mənim çəkdiyim portret müsabiqədə birinci yer tutmuşdu. Əlbəttə, mən onu rəssamlıq əsəri adlandırmaq fikrində deyiləm, o, sadəcə olaraq, rəssamlığa həvəs göstərən gəncin çəkdiyi şəkil idi.

Bununla demək istəyirəm ki, Füzuli Azərbaycanda təkcə bu gün deyil, hələ 50-60 il bundan əvvəl də təbliğ olunurdu. Lakin Füzulini tanıyan başqa ölkələrdə onu o qədər də təbliğ etmirlər. 1920-ci ildən əvvəl Azərbaycanda Füzulinin nə dərəcədə təbliğ edildiyini deyə bilmərəm. Ancaq 20-30-cu illərdə o, çox təbliğ olunmuşdur. Doğrudur, burada dedilər ki, onun beş cilddən ibarət əsərlərinin nəşri başa çatdırılmamışdır. Bu, təkcə Füzuliyə aid deyil. Məsələn, 1948-ci ildə Nizaminin də 800 illiyi keçirilmiş, lakin son vaxtlaradək onun külliyyatı çap olunmamışdır. Yəqin xatirinizdədir, biz Nizaminin 840 illiyini qeyd edərkən mən onun "Xəmsə"sinin Moskvada "Xudojestvennaya literatura" nəşriyyatında rus dilində nəşri üçün çox çalışdım. Əlbəttə, Füzulinin əsərləri bu qədər geniş nəşr və tərcümə olunmamışdır. Ancaq Füzuli dahi şair kimi Azərbaycanda həmişə hamının qəlbindədir. Bu da ona görədir ki, Füzuli, doğrudan da, azərbaycanlıdır və Azərbaycana mənsubdur. Yubiley təntənələrindən istifadə edərək onu dünya miqyasında nə qədər geniş təbliğ edə bilsək, şübhəsiz ki, xalqımızı, onun tarixini, mədəniyyətini, mənəviyyatını bir o qədər çox tanıda, təbliğ edə biləcəyik. Bu bizdən ötrü indi çox vacibdir. Respublikamızı təkcə müstəqil bir dövlət, zəngin təbii sərvətlərə malik ölkə kimi yox, zəngin tarixi, mədəniyyəti olan ölkə kimi tanıtmalıyıq. Mənə belə gəlir ki, bizdən ötrü bu yubileyin ən böyük nəticəsi bundan ibarətdir. Lakin bu, deyilənləri lazımi səviyyədə, istədiyimiz kimi həll edə biləcəyimizdən asılı olacaqdır.





Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyev Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar yaradılmış Dövlət Komissiyasının iclasında. 01 avqust 1994

Mən belə hesab edirəm ki, yubileyin keçirilməsi ilə bağlı tədbirlər planını qəbul etmək olar. Lakin vaxtımızın azlığını, maddi və texniki imkanlarımızın məhdudluğunu nəzərə alaraq müəyyənləşdirməliyik ki, Füzulini ölkəmizdən kənarda geniş təbliğ etmək üçün növbədə hansı tədbirlər keçirilməlidir. Eyni zamanda Füzulinin ədəbi irsinin öyrənilməsi və təbliği sahəsində işlər yubileydən sonra davam etməlidir. Bəzən belə olur, yubileyə qədər çox iş görülür, nitqlər söylənilir, təntənələr başa çatır, sonra isə hər şey soyuyur. Əlbəttə, bunun özü də müəyyən qədər tə-

biidir. Lakin gərək biz belə etməyək. Çalışmalıyıq ki, nəzərdə tutulan işlərin əksəriyyətini zirvə tədbiri keçirilənədək görək. Çünki bundan sonra nə qədər də çalışsaq, həmin işlərin həyata keçirilməsi ləngiyəcəkdir. Lakin bir daha qeyd edirəm ki, Füzulini dünyaya bir daha tanıtmaqla bağlı nəzərdə tutulan tədbirlər ilk növbədə keçirilməlidir.

Burada müxtəlif nəşrlər haqqında söhbət getdi. Şübhəsiz ki, Füzulinin əsərləri oxucunun dahi şairə hörmət və məhəbbətini təmin edir. Ancaq Füzuli haqqında yazılan elmi tədqiqat əsərləri ona alim, mütəfəkkir, filosof, şair və böyük bir insan kimi göstərmək üçün çox lazımlıdır. Bunlarla yanaşı, Füzulini ölkəmizdə, xüsusən xaricdə yaxından tanıtmaq üçün onun haqqında populyar bir kitab olmalıdır. Elə bir kitab ki, onu oxuyan hər kəs Füzulini tezliklə tanıya bilsin. Tədqiqat əsərlərini alimlər, Füzulinin yaradıcılığı ilə maraqlananlar oxuyurlar. Amma Füzulini hamı tanımalıdır. Zənnimcə, Füzuli haqqında elə bir kitab lazımdır ki, biz onu ingilis, fransız, alman, ərəb, fars dillərinə tərcümə edib yayaq. Deyirsiniz ki, Avropada yubiley tədbiri keçirək. Həmin tədbirdə çox az adam iştirak edər. Ancaq orada elə bir kitab yayılsa, Füzulini daha çox adam tanıyacaqdır.

Ona görə də hesab edirəm ki, bütün bu tədbirlərlə yanaşı, belə bir kitabın hazırlanması mütləq lazımdır. Çünki indi Füzulinin əsərlərini ingilis, fransız, alman dillərinə tərcümə edib yaymaq imkanımız yoxdur. Bunu gələcəkdə etməliyik. Lakin Füzuli haqqında geniş məlumat verən bir kitab varsa, onu tərcümə etmək, yoxdursa, yazmaq lazımdır. Özü də həmin kitab bütün keçmiş stereotiplərdən xilas olmalıdır. Məsələn, Fuad Qasımzadə burada dedi ki, o, keçmişdə tədqiqat apararkən Füzulini marksizm-leninizm ideologiyası ilə bağlamağa çalışırdı. Xatirimdədir, bir dəfə haradasa dedim ki, Nizaminin fəlsəfi görüşləri haqqında çoxlu tədqiqatlar aparmışlar. Şübhəsiz, Nizaminin şeirlərini proletar şeirinə döndərmək mümkün deyildir, ona görə də hamı sübut etməyə çalışmışdır ki, Nizami metafizik yox, dialektik olmuşdur. Əlbəttə, bunlar təbiidir və heç kimi günahlandırmaq lazım deyil. Mən də bu fikirdə deyiləm. Bu, o dövrün nəticəsidir və indi heç kəs deməsin ki, o zaman belə düşünməzdi. Biz hamımız həmin dövrdə yaşayır və onun stereotiplərindən kənara çıxa bilmirdik. Çıxmağa imkan da yox idi, çünki o zaman yazıçı da, alim də, adi adam da belə hesab edirdi ki, başqa cür ola bilməz. Ona görə də indi kiminsə döşünə döyməsi mənasızdır. Belələrinin özləri də o zaman bu cür yazmışlar. Bu bizim tariximizin reallığıdır. Onu təhrif etmək olmaz. 1917-ci ildən sonra buna cəhd göstərdilər.



Lakin bacarmadılar. O dövrdə yaşayan və Azərbaycanın mədəniyyətini, ədəbiyyatını inkişaf etdirən adamlara indi irad tutmaq olmaz, bu, günahdır.

İndi alimlərimiz, yazıçılarımız bütün bu stereotiplərdən, ştamplardan azaddırlar. Lakin bu o demək deyildir ki, ağlına gələni yazasan. Həqiqəti, reallığı yazmaq lazımdır. Ona görə də Füzuli haqqında belə bir əsər yazılsa və qısa müddətdə nəşr edilib bir çox ölkələrdə yayılsa, çox yaxşı olardı.

Başqa tədbirlər barədə geniş danışmaq istəmirəm. Onların hamısını həyata keçirmək lazımdır. Lakin Türkiyədə tədbirin keçirilməsi məsələsi məni xüsusi maraqlandırır və bu barədə sual da verildi. Çünki Türkiyədə Füzulini elə Azərbaycandakı qədər tanıyırlar. Məsələn, Elçin Əfəndiyev Fuad Köprülünün Füzuli haqqında yazdığı kitabçanı xatırlatdı. Füzulinin yubileyinin İranda – Tehranda və Təbrizdə keçirilməsi də çox mühümdür. Orta Asiya dövlətlərində, Qazaxıstanda, Tatarıstanda, Başqırdıstanda da belə tədbirlərin keçirilməsi gərəklidir.

Burada dedilər ki, sentyabrda İraqda yubiley tədbiri keçirmək nəzərdə tutulmuşdur. Düzdür, indi beynəlxalq aləmdə İraqın siyasi vəziyyəti ağırdır, ölkənin daxilində ictimai-siyasi vəziyyət də mürəkkəbdir. Lakin bunun mədəniyyətə dəxli yoxdur. Ona görə də biz nəzərdə tutulan nümayəndələrimizi oraya göndərərək, həmin tədbirdə iştirak etməliyik.

Şübhəsiz ki, Rusiyada – Moskvada, Sankt-Peterburqda da belə tədbirlər keçirilməlidir. Biz uzun müddət Rusiyanın, Sovet İttifaqının tərkibində olmuşuq. Ona görə də belə tədbirlərin arasını kəsməməliyik, əksinə, vaxtilə Nizaminin, Səməd Vurğunun, Nəsiminin və başqalarının yubileylərini keçirdiyimiz kimi, Füzulinin yubileyini də mütləq keçirmək və onu daha geniş tanıtmaq lazımdır.

Avropa ölkələrinə gəldikdə isə, həm bilavasitə onların mədəniyyət orqanlarının xətti ilə, həm də orada yaşayan azərbaycanlıların, türklərin müxtəlif ictimai təşkilatları vasitəsilə tədbirlər keçirilməlidir. Şübhəsiz ki, bundan ötrü müəyyən vəsait lazım olacaqdır. Lakin vəziyyətimiz çətin olsa da, biz bunu etməliyik və edəcəyik.

Nəşr məsələləri ilə əlaqədar müxtəlif çətinliklərdən – kağızın çatışmamasından və sairədən söhbət getdi. Mən bunları sadalamaq istəmirəm. Elçin Əfəndiyevə tapşırıram ki, yubileyin keçirilməsi üçün smeta hazırlasınlar. Orada, necə deyərlər, maksimum, orta və minimum xərclər nəzərdə tutulsun. Nə qədər milli valyuta

və nə qədər dönərli valyuta lazım olduğunu müəyyənləşdirək. Bəzən xarici valyuta ilə müəyyən şeylər alanda, təəssüf ki, kimlərsə bundan özləri üçün istifadə edir. Lakin güman edirəm ki, belə bir işdə bundan istifadə etmək ən böyük günah olardı. Biz həmin smetanı imkanlarımızı nəzərə alaraq təsdiq edərik.

Füzulinin qəbrinin Bakıya köçürülməsi barədə də söhbət getdi. Məsələn, Cabir Novruz bu fikrə tərəfdardır. Yaşar Qarayev, Nəbi Xəzri isə başqa fikirdə oldular. Bu, yeni məsələ deyil. Hələ 70-ci illərdə Füzulinin qəbrinin Bakıya köçürülməsi məsələsi çox geniş müzakirə edilirdi. Mən də bu məsələ ilə məşğul olurdum. Xatirimdədir, 1981-ci ildə Yazıçılar İttifaqının qurultayında bu məsələ qaldırılanda mən tanınmış yazıçılarımıza, Allah onlara rəhmət eləsin, narazılığımı bildirərək dedim ki, siz məsələni ortaya atır, lakin təşəbbüs göstərmirsiniz. Məsələ qaldırmaq yaxşı şeydir, lakin fəaliyyət göstərmirsiniz. O zaman mən bu məsələni rəhmətlik Mirzə İbrahimova tapşırdım. Bilirsiniz ki, Mirzə İbrahimov mənim təşəbbüsümlə Moskvada Asiya və Afrika Xalqları Həmrəyliyi Komitəsinin sədri seçilmişdi. Həmin komitəyə uzun illər Mirzo Tursunzadə başçılıq etmişdi. Onun vəfatından sonra bu vəzifəyə çoxlu namizəd, o cümlədən dünya miqyasında tanınan adamların namizədliyi göstərilmişdi. Şübhəsiz ki, həmin məsələ Sov.İKP MK-da həll olunurdu. Mən öz nüfuzumdan istifadə edərək Mirzə İbrahimovun namizədliyini irəli sürdüm və təklifim qəbul edildi.

Həmin komitə, əsasən, ərəb ölkələrində iş aparırdı. Dünya miqyasında isə mərkəz Misirdə – Qahirədə idi. Mən o zaman Mirzə İbrahimova dedim ki, sənin böyük səlahiyyətin var, Suriyaya, Misirə, İraqa tez-tez gedirsən. Bu imkandan istifadə edin və biz də sizə kömək göstərək. Hətta o zaman Mirzə İbrahimova, Süleyman Rüstəmə, Abbas Zamanova tapşırdım ki, İraqın Bakıdakı konsulluğu ilə əlaqə yaratsınlar. Həmin dövrdə İraqla İran arasında müharibə gedirdi, vəziyyət gərgin idi.

O zaman belə bir məlumat aldıq ki, Kərbəlanın baş planına əsasən yol çəkilir və həmin yol Füzulinin qəbri olan yerdən getdiyinə görə, guya şairin cənazəsinin qalıqlarını hansısa məscidə aparmışlar. Adətən, belə hallarda qəbri başqa yerə köçürürlər. Lakin həmin məlumat məni çox narahat etdi, çünki bu, Füzuliyə qarşı çox böyük hörmətsizlik olardı. Şübhəsiz ki, bu halda onun cənazəsinin qalıqlarını Bakıya gətirib ən görkəmli yerdə dəfn edərək şairin məqbərəsini yaratmağa mənəvi haqqımız olardı. Lakin bilirsiniz ki, bundan bir il sonra mən Azərbaycandan getdim və işlərin sonrakı gedişindən xəbərim olmadı. Ancaq indi öyrəndim ki, Füzulinin qəbrini başqa yerə köçürmüşlər.

Bu barədə fikirləşmək lazımdır. Belə məsələdə qəti qərara gəlmək çətindir. Xatirimdədir, Nəsiminin 600 illiyini keçirəndə də məsələ qaldırmışdılar ki, onun məzarını Hələb şəhərindən Bakıya köçürək. Hətta onun məzarını görən adamlar da çox az idi. Səhv etmirəmsə, Nəsiminin məzarını ilk dəfə rəhmətlik Rəsul Rza gedib tapmışdı. Bu barədə o özü mənə danışmışdı. Sonra mərhum Süleyman Vəzirov Hələbdə olmuşdu. Mən 1970-ci illərdə Suriyada olarkən Nəsiminin qəbrini ziyarət etmək üçün xüsusi olaraq Hələb şəhərinə getdim. Mənim Hələbə səfərimin təşkili barədə Suriya prezidenti Hafiz Əsədin xüsusi göstərişi var idi. Hələb şəhərinin başçıları axşam mənə bildirdilər ki, səhər Nəsiminin qəbrini ziyarət edəcəyəm. Ertəsi gün üç-dörd saat gözləməli oldum, çünki qəbrin yerini bilmirdilər. Nəhayət, onun yerini bilən bir nəfər tapdılar. Yəqin siz də bilirsiniz, Nəsiminin məzarı ümumi qəbiristandadır. Nəsiminin törəmələri də orada dəfn olunmuşlar. Qəbirüstü abidə və s. yoxdur, orada bu, adət deyil. Ancaq qəbir çox yaxşı vəziyyətdə idi. Ona qulluq edən adam da var.

Qayıdandan sonra özüm də fikirləşdim, müxtəlif adamlarla da məsləhətləşdim ki, həmin qəbri indi Azərbaycana köçürmək lazımdırmı? Nəsimi Hələb şəhərinə Azərbaycandan getmiş və orada da faciəli şəkildə dünyasını dəyişmişdir.

Füzuli isə Kərbəlada doğulmuş, yaşamış və vəfat etmişdir. Əlbəttə, hamımız istərdik ki, Azərbaycanın dahi adamlarının məzarları ölkəmizin özündə olsun. Çünki indi dünyada yaşayan azərbaycanlıların bir Vətəni var, o da müstəqil Azərbaycan Respublikasıdır. Bu barədə fikirləşmək lazımdır. Mən qəti bir şey demək istəmirəm.

Burada yubileyin zirvə tədbirinin dekabrda keçirilməsi ilə bağlı fikirlər səsləndi. Doğrudan da, ilin son ayı olan dekabr yubiley tədbirlərinin keçirilməsi üçün o qədər də münasib deyildir. Digər tərəfdən, dekabr qış ayıdır və Azərbaycan yubiley təntənələrinə gələn qonaqlara yaz-yay aylarındakı kimi təsir bağışlamaz. Ona görə də, gəlin fikirləşək. Lakin ondan narahatam ki, bir şeyin vaxtı dəyişdikcə məsələ uzanacaq. Ancaq tədbirlərin dekabrda keçirilməsi planlaşdırıldığına görə, gəlin belə də nəzərdə tutulsun.

Doğrudan da, burada dedilər ki, əgər tədbirin vaxtı əvvəldən məlum olsa, dünyanın müxtəlif ölkələrinə xəbər göndəriləcək və hər kəs öz işini qabaqcadan planlaşdıracaq. Məsələn, YUNESKO-nun sədrinin bu tədbirdə iştirak etməsi hökmən lazımdır. Nəsiminin yubileyi keçirilərkən



Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyev Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar yaradılmış Dövlət Komissiyasının iclasında. 01 avqust 1994

YUNESKO-nun sədri bu tədbirdə iştirak etmişdi. Ona görə də biz gərək indiki yubiley barədə YUNESKO-nun sədrinə azı iki ay əvvəl xəbər göndərək ki, işini planlaşdıra bilsin. Bu, xaricdən dəvət olunan başqa adamlara da aiddir. Gəlin belə hesab edək ki, yubileyin zirvə tədbirini dekabrda keçirəcəyik və planlarımız bu istiqamətdə qurulmalıdır. Əgər gözlənilməz hadisə baş verərsə, həmin tədbirin bir neçə aylığa təxirə salınması o qədər də böyük dəyişiklik yaratmayacaqdır.

Anar təklif edir ki, oktyabrın axırında Türkiyədə yubiley tədbiri keçirilsin. Mən bunun mənasını bilirəm və hesab edirəm ki, pis olmazdı. Bu barədə Türkiyə tərəfi ilə danışıqlar aparmaq olar, lakin zirvə tədbirini dekabrın birinci yarısına təyin edək.

Kinofilmlərin çəkilməsi haqqında da məlumat verdilər. Şübhəsiz ki, televiziya öz işini görür və güman edirəm ki, indiki görüşümüzdən sonra Füzulinin əsərlərini, onun qəzəllərinə yazılmış musiqi əsərlərini daha geniş təbliğ etməlidir. Məsələn, mən mərhum Cahangir Cahangirovun "Füzuli" kantatasını yaxşı xatırlayıram. Simfonik orkestrin, xorun və böyük sənətkarımız mərhum Şövkət Ələkbərovanın ifasında bu əsər çox gözəl səslənirdi. Başqa əsərlər də var və bunlar televiziya vasitəsi ilə səsləndirilməlidir. Qısametrajlı sənədli filmlər də hazırlayırlar, çünki başqa imkanları yoxdur. Lakin onlar özləri də fikirləşməlidirlər ki, daha nə etmək olar.

Yubiley tədbirlərinin özləri də video və kino lentinə çəkilməlidir. Smetada bu xərcləri də nəzərə almaq lazımdır. Məsələn, əgər Bağdadda, yaxud Kərbəlada Azərbaycandan gedən böyük bir nümayəndə heyətinin iştirakı ilə yubiley tədbiri keçiriləcəksə, bunun özü də mədəniyyət tariximizdə qalmalıdır.

Televiziya, radio və kino ilə yanaşı, teatrlarımız da əsərlər hazırlamalıdır. Məsələn, bildirdilər ki, "Leyli və Məcnun" operasının yeni quruluşda tamaşası hazırlanır. Bu, çox yaxşıdır. Lakin həmin tamaşanı layiqincə hazırlamaq lazımdır. Çünki bu opera əsrin əvvəlindən səhnəmizdə göstərilir və tamaşaçılar onu çox sevirlər. Əgər yeni tamaşa Füzulinin 500 illiyinə həsr edilirsə, onda daha yüksək professional səviyyədə hazırlanmalıdır.

Çıxış edənlərin bəziləri ziyalıların indi vəziyyətindən, onlara münasibətdən danışdılar. Bu, həqiqətən, bugünkü həyatımızın narahatlıq doğuran cəhətlərindən biridir. Bildiyiniz kimi, son onilliklərdə ziyalılarımız yaxşı yaşamış, müəyyən imtiyazlardan istifadə etmiş və onlar çox şey yaratmışlar. Biz elmimizin, mədəniyyətimizin, incəsənətimizin, ədəbiyyatımızın XX əsrdəki nailiyyətləri ilə fəxr edə bilərik. Şükürlər olsun ki, indi özünüz başqa ölkələri gedib görə, əsrimizdə Azərbaycan xalqının elm və mədəniyyətinin necə inkişaf etdiyini, bizə yaxın olan ölkələrdə, xalqlarda bu sahədə vəziyyətin necə olduğunu müqayisə edə bilirsiniz.

İndi biz keçid dövründəyik. Məni də çox narahat edir ki, ziyalılarımızın, mədəniyyət və incəsənət xadimlərimizin bir çoxu, bəlkə də, hamısı ağır şəraitdə yaşayır. Bu, onların yaradıcılığına da təsir göstərir. Hər halda, bu sahədə müəyyən işlər görməyə çalışacağıq. Mən hələlik qəti söz verə bilmirəm. Çünki bilirsiniz ki, indi Azərbaycanda 70-ci illərdə olan imkanlar yoxdur. O zaman heç bir minnətsiz hər

şey edirdik və bunu təbii hal sayırdıq. Yazıçıya, alimə, bəstəkara, rəssama mənəvi hörmət indi də var. Şəxsən məndə onlara qarşı belə hörmət həmişə olmuşdur və ömrümün axırınadək də qalacaqdır. Ancaq bunu maddi baxımdan reallaşdırmaq imkanları çox azdır. Bununla belə, biz yaradıcı adamlarımıza kömək etməliyik.

Bu, kitab nəşrinə də aiddir. Özünüz görürsünüz ki, indi Azərbaycanda nə qədər qəzet çıxır və az qala, hər gün yenisi yaranır. Fürsətdən istifadə edərək Sabir Rüstəmxanlıya demək istəyirəm: bu qədər qəzet olar? Bir tərəfdən mətbəəmiz pisdir, digər tərəfdən kağız və başqa poliqrafiya materialları çatışmır, amma qəzetlərin sayı gündən-günə artır. Mən mətbuat azadlığının tərəfdarıyam. Lakin hər şeydə ifrata varmaq olmaz.

Məsələn, Amerikanı, İngiltərəni, Fransanı, Türkiyəni, bütün bu proseslərin, dəyişikliklərin getdiyi Rusiyanın özünü götürək, heç yerdə belə şey yoxdur. Kimin bir az pulu var, gəlir ki, mən qəzet çıxarıram. Cabir Novruz bizim gözəl şairimizdir, o danışanda, düzü, mən çox məyus oldum. Belə bir şair öz kitabını nəşr etdirə bilmir, onun başqa problemləri də var. Axı nə üçün belə olmalıdır? Ancaq hansı yollarlasa pul qazanan gəlir ki, mən qəzet nəşr edirəm. Hər şeyi pul həll etməməlidir. Mətbuat Nazirliyi bu məsələ ilə məşğul olmalıdır. Axı həmin nazirliyə şair, mənəviyyat, mədəniyyət adamı başçılıq edir. Əgər, doğrudan da, dəyərli bir təşkilat qəzet çıxarırsa, bu, başqa məsələdir.

Bir də təkrar edirəm, bütün bunları deməklə mən mətbuat, söz azadlığının əleyhinə çıxmıram. Lakin hər şeyin həddi olmalıdır. Bu işlərə nəzarət edilməlidir. Əgər bizim bir belə kağızımız, mətbəələrimiz varsa, bunların hesabına kitab nəşr etmək lazımdır. Bəzi qəzetləri heç oxuyan da yoxdur. Həm "Azərbaycan" nəşriyyatının baş direktoru Nazim İbrahimov, həm də mətbuat və informasiya naziri Sabir Rüstəmxanlı bu məsələlərə ciddi nəzarət etməli və müəyyən qədər nizamlamalıdırlar.

Daha mən bir məsələni də demək istəyirəm. Oqtay Mirqasımov çıxışında dedi ki, kinostudiyanın çətin problemləri var və Rasim Balayevlə birlikdə mənimlə görüşmək istəyirlər. Prezident Aparatının Humanitar siyasət şöbəsinin müdiri Fatma Abdullazadə kino, teatr xadimlərinin mənimlə görüşmək istədiklərini xəbər vermişdir. Mən özüm də çox istəyirəm ki, bizim elm, mədəniyyət adamları ilə görüşüb onların problemlərinə kömək edim, yaxud heç olmazsa, dərdlərini yaxından bilim və mənəvi ürək-dirək verim. Lakin buna, sadəcə olaraq, vaxtım çatmır.



Kinematoqrafiyanın problemlərindən müəyyən dərəcədə xəbərim var. Ancaq bunları təkcə mən həll etməliyəm? Axı bizim çoxlu müvafiq orqanlarımız var. Baş nazirin mədəniyyət məsələlərinə baxan müavini Elçin Əfəndiyev də bununla maraqlanıb. Həll edin, nəyəsə gücünüz çatmırsa, bu başqa məsələdir. Ancaq elə şeylər var ki, orada güc çatmamaqdan söhbət gedə bilməz. Məsələn, deyirlər ki, kinostudiyanın əsas binasında kababxana, daha nələr var, otaqları satıblar. Bunun nə dərəcədə həqiqət olduğunu bilmirəm. Mənə böyük bir arayış təqdim ediblər ki, AzərTAC-ın yerləşdiyi binanın yarısından çoxunu kimlərsə satıblar, bank, mağaza açıblar. Axı necə ola bilər ki, dövlətin mülkiyyəti sayılan binanın yarısını ona-buna satsınlar? Əgər bütün bunlardan agentlik üçün müəyyən bir maddi xeyir gəlirsə, bəlkə də, buna göz yummaq olardı. Deyildiyinə görə, bəzi mədəniyyət ocaqları da kommersiya strukturlarına verilir.

Əgər mədəniyyətdən söhbət gedirsə, AzərTAC da, kinostudiya da, teatr da mədəniyyətdir. Onun 70-80-ci ildə yaranmış maddi-texniki bazasını hərə öz şəxsi mənafeyi üçün dağıdacaqsa, biz nə etməliyik? Həmin binalar xalqın, dövlətin vəsaiti hesabına tikilmişdir. Kinostudiyanın binası kimi tikililərə nə qədər vəsait qoyulmuşdur? Axı bütün bunlar xalqın cibindən getmişdir. İndi ola bilərmi ki, bir neçə adam şəxsi mənafeyi üçün bundan istifadə etsin? Nizami kinoteatrı və AzərTAC yerləşən binalar memarlıq abidələridir. Böyük memarlarımız Sadıq Dadaşovun və Mikayıl Hüseynovun layihələri əsasında tikilmişdir. Bakını bəzəyən, gözəlləşdirən binalardır.

O vaxtlar Sov.İKP-nin puluna biz indiki "Azərbaycan" nəşriyyatı üçün böyük buna tikdik. AzərTAC (o zaman Azərinform adlanırdı), "Xalq qəzeti" (keçmiş "Kommunist") həmin binaya köçməyərək öz yerlərində qaldılar. İndi deyirlər ki, "Xalq qəzeti" də öz otaqlarını ona-buna paylayır. Həmin "Azərbaycan" nəşriyyatının binasının tikilməsi üçün şəxsən mən özüm çox əziyyət çəkmişəm: Moskvadan – Mərkəzi Komitədən pul almaq, tikinti işlərinin gedişi ilə məşğul olmaq və s. Nəticədə orada böyük bir poliqrafiya bazası yaradılmışdı. İndi onun da bəzi yerlərini xüsusi strukturlara veriblər. Mən kommersiya strukturlarının əleyhinə deyiləm, onlara şərait yaratmaq lazımdır. Ancaq elmimizin, mədəniyyətimizin, mənəviyyatımızın hesabına yox.

Neçə ildir ki, Azərbaycan Dövlət Dram Teatrı işləmir. 1920-ci ildən indiyədək görünməmiş haldır ki, teatr bir belə

müddət işləməsin. Bu, biabırçılıq deyilmi? Mən yenə də şahidi olduğum şeylərdən danışmaq istəyirəm. 1941-45-ci illərdə Bakıda Dram Teatrı da, Opera Teatrı da, Rus Dram Teatrı da, Gənc Tamaşaçılar Teatrı da, Musiqili Komediya Teatrı da işləyirdi. Yadımdadır, müharibə illəri ərzində Naxçıvan kimi ucqar bir yerdə teatr daim fəaliyyət göstərirdi. Burada əyləşənlərin, yəqin ki, xatirindədir: 1973-cü ildə biz Azərbaycan Dövlət Dram Teatrının 100 illiyini böyük təntənə ilə qeyd etdik. Teatra Lenin ordeni verildi. Böyük sənətkarlarımız Mehdi Məmmədov, İsmayıl Osmanlı, İsmayıl Dağıstanlı, Hökümə Qurbanova yüksək ada layiq görüldülər. İndi isə teatr işləmir, daha doğrusu, deyirlər ki, binası işləmir. Məgər binasız teatr olar? Polad Bülbüloğlu altı ildir mədəniyyət naziridir, bəs nə üçün indiyədək binanın təmirini başa çatdırmamışdır?

Biz o zaman indiki Respublika sarayını, "Gülüstan" sarayını il yarıma, kondisioner zavodu kimi nəhəng müəssisəni iki ilə tikdik. Neçə olur ki, dörd ilə teatrın binasını təmir edə bilmirsiniz? Hamınız şəxsi işlərlə məşğul ola bilirsiniz, lakin mədəniyyətimizin belə bir incisi bu günə düşmüşdür. O zaman çoxları gileylənirdi ki, Azərbaycan Dövlət Dram Teatrının binası gözəl, yaraşıqlı tikilməmişdir. Lakin hər halda, bina var idi və teatr işləyirdi. Sonradan əgər təmirə ehtiyacı vardısa, üç aya, beş aya, bir ilə, təmir edəydiniz. İndi hanı Azərbaycan Dram Teatrı? Kollektiv dağılmışdır.

Vaxtilə, 70-ci illərin əvvəlində mənə deyirdilər ki, Ermənistanda, İrəvanda Azərbaycan Dövlət Dram Teatrı yaratmışıq. Özünə də Cəfər Cabbarlının adını vermişik. Amma teatrın binası yox idi, Ermənistanın rəhbərləri hər dəfə məni görəndə deyirdilər ki, biz İrəvanda Azərbaycan teatrı yaratmışıq, siz nə üçün Bakıda erməni teatrı açmırsınız. Mən də cavabında deyirdim ki, Stepanakertdə erməni teatrı var.

Yüz ildən artıq tarixi olan Azərbaycan Dövlət Dram Teatrı uzun müddət rəhmətlik Hacı Zeynalabdin Tağıyevin tikdirdiyi binada fəaliyyət göstərmiş, 1960-cı ildə isə indiki binaya köçmüşdür. Lakin Azərbaycan Dövlət Dram Teatrı indi səyyar teatr vəziyyətindədir. Siz isə deyirsiniz ki, teatr işləyir. Əgər belə əhval-ruhiyyə ilə yaşayırsınızsa, deməli, teatrı siz özünüz dağıdırsınız.

Bütün bunlar nədən irəli gəlir və mən bu mövzuya nə üçün toxundum? Ona görə ki, mədəniyyətimizin bugünkü vəziyyəti ilə bağlı burada ürək ağrıdan sözlər deyilirdi. Bu, Vətənini sevən hər bir azərbaycanlını, o cümlədən məni qəlbən incidir. Mədəniyyət ocaqlarına başçılıq edən adamlar indiyədək yaradılanları daha da artırmalı, əgər bunu bacarmırlarsa, heç olmasa, qoruyub saxlamalıdırlar. Dağıtmaq çox asandır. Son illərdə bu proses keçmiş SSRİ-nin hər yerində, o cümlədən Azərbaycanda da gedir. Lakin hər kəs fikirləşməlidir ki, nə yaratmışdır. Əgər yaratmamışsa, dağıtmağa mənəvi haqqı yoxdur.

Şübhəsiz ki, mən bu məsələlərin yoxlanılmasını tapşıracaq və ciddi ölçü götürəcəyəm. Elmimizlə, mədəniyyətimizlə, mənəviyyatımızla çox ehtiyatlı, çox diqqətli davranmaq lazımdır. Bu işləri bazar iqtisadiyyatının ixtiyarına vermək olmaz. Gərək Füzulinin yubileyini elə hazırlayıb keçirək ki, xalqımız mənəvi irsimizə, mədəni, milli irsimizə böyük hörmət bəslədiyimizin şahidi olsun. Biz Füzuli kimi dahilərin yaradıcılığından bəhrələnərək mədəniyyətimizin yeni böyük abidələrini yaratmalıyıq.

Burada akademik Ziya Bünyadov bildirdi ki, Bertelsin Füzuli haqqında yazdığı əsər çap olunması nəzərdə tutulan kitabların siyahısına düşməmişdir. Bertels həqiqətən böyük şərqşünasdır və xüsusən Nizaminin yaradıcılığının tədqiqi sahəsində çox böyük iş görmüşdür. Məsələn, Fuad Körpülünün yazdığı əsər bizim üçün gərəklidir. Amma Bertelsin yazdığı da çox lazımlıdır. Yubiley komissiyası sədrinin müavinləri Elçin Əfəndiyev, Eldar Salayev və Anar Prezident Aparatının şöbə müdiri Fatma Abdullazadə ilə birlikdə yubileyin keçirilməsinə dair praktiki məsələlərlə məşğul olacaq və mənə vaxtaşırı məlumat verəcəklər. Sağ olun.

*01 avqust 1994-cü il*

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibətilə Türkiyədə keçirilən yubiley tədbirlərində iştirak etmək üçün yola düşərkən Binə hava limanında jurnalistlərə qısa müsahibəsi[1]

Mənim bu səfərim Füzulinin 500 illiyi ilə əlaqədardır. Məhz yubileylə. Lakin Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasındakı dostluq əlaqələri elə sıxdır ki, səfərimiz Füzulinin yubiley şənlikləri ilə məhdudlaşmayacaq. Orada dövlət, hökumət başçıları ilə, ictimaiyyətlə görüşlərim olacaqdır. Ona görə də bu imkan eyni zamanda Azərbaycanla Türkiyə Cümhuriyyəti arasında əlaqələrin daha da inkişaf etməsi üçün yeni bir addım olacaqdır. Mən bunu çox əhəmiyyətli, səmərəli sayıram və belə düşünürəm ki, bu səfərdən həm Türkiyə Cümhuriyyəti, həm də Azərbaycan Respublikası tərəfindən istifadə ediləcəkdir.

*01 noyabr 1994-cü il*

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 2-ci kitab. Bakı: Azərnəşr, 1997, s. 453



## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Ankara yaxınlığındakı Bilkənd universitet şəhərciyində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyinə həsr olunmuş yubiley şənliklərinin təntənəli açılışında çıxışı[1]

Türkiyə Cümhuriyyətinin hörmətli prezidenti, əziz dostum və qardaşım Süleyman Dəmirəl!

Hörmətli xanımlar və cənablar!

Bu gün xalqlarımız üçün böyük bayram günüdür. Türk dünyasının, Azərbaycan xalqının, bütün türk xalqlarının böyük şairi, alimi, mütəfəkkiri, filosofu Məhəmməd Füzulinin anadan olmasının 500 illiyini Türkiyədə, Ankarada, bu gözəl Bilkənd Universitetinin sarayında təntənə ilə qeyd edirik. Bu salonda toplaşan soydaşlarımıza, qardaşlarımıza, bütün Türkiyə xalqına bu bayram münasibətilə Azərbaycan xalqı adından, Azərbaycan Respublikası adından salamımı yetirir, hörmət və ehtiramımı bildirirəm. Sizin hamınızı, bütün Türkiyə xalqını, türk dünyasını bu böyük bayram münasibətilə təbrik edirəm.

Xalqlarımız çoxəsrlik tarixi ərzində böyük sınaqlardan keçmiş, böyük çətinliklərlə rastlaşmış, özlərinin milliliyini, mənəviyyatını, dilini, dinini yaşatmış, saxlamış və bugünkü xoşbəxt günlərə gətirib çıxarmışlar. Bizim xalqlarımız dünya mədəniyyətinə böyük şəxsiyyətlər bəxş etmiş, dünya sivilizasiyasını elm, mədəniyyət sahəsində dəyərli əsərlərlə zənginləşdirmişlər.

Bu sırada, xalqlarımızın böyük şəxsiyyətləri sırasında Məhəmməd Füzulinin xüsusi yeri var. Beş yüz ildir ki, xalqlarımız Məhəmməd Füzulinin əsərlərindən ilham alaraq, bunların təsiri altında yaşayıb yaradıblar, öz mənəviyyatlarını, öz mədəniyyətlərini yaşadırlar. Məhəmməd Füzu-

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 2-ci kitab. Bakı: Azərnəşr, 1997, s. 458–461



Ankara yaxınlığındakı Bilkənd universitet şəhərciyində Məhəmməd Füzulinin anadan olmasının 500 illiyinə həsr edilmiş yubiley tədbiri. 01 noyabr 1994





Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyev Ankara yaxınlığındakı Bilkənd universitet şəhərciyində Məhəmməd Füzulinin anadan olmasının 500 illiyinə həsr edilmiş yubiley tədbirində çıxış edərkən. 01 noyabr 1994

li öz əsərləri, böyük mədəni-mənəvi irsi ilə xalqlarımızın daim bir-biri ilə yanaşı olmasının, birlikdə olmasının əsasını qoymuşdur. Onun əsərləri xalqlarımızın çətinliklərdən keçərək bu günə gəlib çıxmalarına daim kömək etmiş, həmişə bizdən ötrü məktəb olmuşdur, bu əsərlərdən dərs almışıq. Füzuli irsinin qiyməti əvəzsizdir. Azərbaycan xalqı Məhəmməd Füzulinin yaratdığı əsərlərin təsiri altında əsrlər boyu və xüsusən XX əsrdə öz mədəniyyətinin inkişafında böyük nailiyyətlər əldə etmişdir. Bəli, Füzulinin 500 il öncə yazdığı "Leyli və Məcnun" poeması əsasında Azərbaycanın böyük bəstəkarı, dahi insanı Üzeyir Hacıbəyov Şərq aləmində, türk dünyasında ilk professional opera yaratmışdır. Füzulinin əsərlərinin təsiri altında Azərbaycanın yazıçıları, alimləri, bəstəkarları, rəssamları böyük-böyük əsərlər yaratmış, respublikamızın mədəniyyətini inkişaf etdirmiş, dünya mədəniyyətinə böyük töhfələr vermişlər. Bunlar hamısı Məhəmməd Füzulinin bizə bəxş etdiyi böyük işdir, Azərbaycan xalqının bu günü və gələcəyi üçün böyük örnəkdir.

Bildiyiniz kimi, Azərbaycan xalqı öz tarixində cürbəcür mərhələlərdən keçmişdir. XX əsrin əvvəlindən indiyədək xalqımızın həyatında böyük ictimai-siyasi dəyişikliklər olmuşdur. Ancaq siyasi rejimlərə baxmayaraq, ictimai-siyasi vəziyyətin dəyişməsindən asılı olmayaraq Azərbaycan xalqı heç vaxt öz mədəniyyətini, öz dilini, mənəviyyatını unutmamışdır, xalqımız Füzuli irsini heç vaxt unutmamış, əksinə, bu irsdən bəhrələnərək bütün çətinliklərdən keçmiş, indi milli azadlığa nail olmuş, özünün müstəqil dövlətini yaratmışdır.

Türkiyə xalqının böyük tarixi var. Türkiyə Cümhuriyyətinin yaranmasından 71 il keçmişdir. Ötən əsrlərdə də, cümhuriyyət dövründə də Türkiyə, Türkiyə xalqı daim türk dünyası üçün örnək olmuşdur. Dahi insan, böyük öndər Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə Cümhuriyyəti 71 il ərzində türkün, türk dünyasının, türk xalqının nəyə qadir olduğunu bütün dünyaya əyani şəkildə nümayiş etdirmişdir.

Azərbaycan xalqı öz milli azadlığı uğrunda mübarizə apararkən, milli istiqlaliyyətinə nail olmağa, milli dövlətçiliyini yaratmağa çalışarkən daim Türkiyə xalqının dəstəyinə, dayağına arxalanmış, Mustafa Kamal Atatürkün qoyduğu yolla gedən Türkiyə Cümhuriyyətinin təcrübəsindən bəhrələnmişdir. Bütün bunlar artıq üç il ərzində mövcud olan müstəqil Azərbaycan Respublikasının yaranmasında və bu illər ərzində möhkəmlənib inkişaf etməsində böyük rol oynamışdır.

Azərbaycan xalqı ilə Türkiyə xalqı arasında, müstəqil Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında qırılmaz tellərlə bağlı olan dostluq və qardaşlıq əlaqələri var. Bu əlaqələri ulu babalarımız yaratmışlar. Bu əlaqələri Məhəmməd Füzuli yaratmış, o bizə nəsihət etmiş, o bizə bəxş etmişdir. Bu gün Türkiyənin, Azərbaycanın dəyərli insanları, vətənpərvər, sülhsevər insanları, vətənlərinə qeyrətlə, namusla xidmət etməyə çalışan adamları bu dostluq və qardaşlıq əlaqələrini genişləndirir və bundan sonra da inkişaf etdirəcəklər.

Azərbaycan Respublikası, Azərbaycan xalqı Türkiyə xalqı ilə, Türkiyə Cümhuriyyəti ilə dostluq və qardaşlıq əlaqələrini, Türkiyə Cümhuriyyətinin Azərbaycana göstərdiyi yardım və köməyi yüksək qiymətləndirir və həyatının bu ağır dövründə, torpaqlarına erməni təcavüzü davam etdiyi bir zamanda Türkiyəni, türk xalqını, Türkiyə Cümhuriyyətini özünə böyük dayaq sayır. Bu gün mən burada Azərbaycanın müstəqillik yolu ilə inkişafında bizə dayaq olan, kömək olan qardaş-bacılarımıza, Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinə, Türkiyə dövlətinə bütün Azərbaycan xalqı adından, respublikamızın vətəndaşları adından hörmət və ehtiramımı, təşəkkürümü bildirirəm. Əminik ki, xalqlarımızın əsrlər boyu davam etmiş və indi yüksək zirvəyə qalxmış dostluğu və qardaşlığı sarsılmaz olacaq, bundan sonra da davam edəcəkdir. Sizi əmin edə bilərəm ki, Azərbaycan xalqı milli azadlığı ilə fəxr edir, bu azadlığı heç vaxt əldən verməyəcək, öz müstəqilliyini qoruyub saxlayacaq və bu yolda Türkiyə xalqı, Türkiyə Cümhuriyyəti ilə daim birlikdə olacaqdır.

Bu yubiley mərasimində iştirak etmək üçün Azərbaycandan gəlmək istəyənlərin sayı həddindən artıq çox idi. Alimlər, yazıçılar, dövlət adamları bu mərasimdə iştirak etmək istəyirdilər. Şübhəsiz ki, onların hamısının gəlməsi üçün imkan yox idi. Ancaq hesab edirəm ki, indi bu salona toplaşanlar arasında Azərbaycandan gələnlərlə Türkiyədən olanların sayı, yəqin, bərabərdir, yaxud buna yaxındır. Bu onu göstərir ki, Azərbaycan xalqı həmişə Türkiyəyə maraq göstərir, Türkiyə həmişə azərbaycanlıları cəlb edir. Bugünkü bayram günündə Füzulinin yubileyinin burada qeyd olunması və Azərbaycandan böyük bir nümayəndə heyətinin buraya gəlməsi də bizim dostluq və qardaşlığımızın rəmzidir. Bütün bunlar bizi sevindirir, Türkiyə xalqına sevgi və məhəbbət hissini daha da artırır.

Mən İhsan Doğramaçıoğlunun rəhbərliyi altında bu mərasimin təşkilində mühüm xidmətləri olan bütün qardaş və bacılarımıza böyük hörmət və ehtiramımı bildirirəm.

Azərbaycanda Füzulinin 500 illiyini keçirmək üçün böyük komissiya yaradıl-



Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyev Ankara yaxınlığındakı Bilkənd universitet şəhərciyində Məhəmməd Füzulinin anadan olmasının 500 illiyinə həsr edilmiş yubiley tədbirində çıxış edərkən. 01 noyabr 1994

mışdır. Belə bir komissiyanın Türkiyədə də yaradılması xəbəri bizi sevindirdi. Bu komissiyanın həm başçılarına, həm də üzvlərinə Azərbaycan xalqı adından hörmət və ehtiramımı, təşəkkürümü çatdırıram.

Bu gün daha bir baxımdan əlamətdar gündür. Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostumuz və qardaşımız, Azərbaycan xalqının sevimli dostu, hörmətli Süleyman Dəmirəlin doğum günüdür. Biz buna "anadan olan günüdür" deyirik. Bu, təsadüfi deyil. 500 il bundan öncə Füzuli doğulub, 70 il bundan öncə də müasir dövrdə türk dünyasının böyük şəxsiyyəti, böyük insan, böyük ictimai-siyasi dövlət xadimi, hörmətli Süleyman Dəmirəl doğulmuşdur. Bu onu göstərir ki, Füzuli dünyası, Füzuli nəsli davam edir, dünya birliyinə, dünya mədəniyyətinə böyük insanlar bəxş edir. Belə böyük insanlar sırasında Türkiyənin həyatında 40 ildən artıq siyasi fəaliyyət göstərən, dövlətə sədaqətlə xidmət edən Süleyman Dəmirəl kimi insan da vardır.

Əziz dostum, qardaşım Süleyman bəy! Doğum günü münasibətilə sizi bütün Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, sizə cansağlığı, xoşbəxtlik arzulayır, Türkiyə xalqının gələcəyi naminə, bütün türk dünyasının gələcəyi naminə işlərinizdə uğurlar diləyirəm.

Azərbaycan Elmlər Akademiyası əziz dostumuz, qardaşımız İhsan Doğramaçıoğlunu Respublika Elmlər Akademiyasının fəxri akademiki seçmişdir. Biz İhsan Doğramaçıoğlunu Azərbaycanda gözləyirik. O, vaxtı olmadığından gələ bilmədi. Ona görə də xahiş edirəm, imkan verəsiniz, Azərbaycan Elmlər Akademiyasının prezidenti, akademik Eldar Salayev İhsan Doğramaçıoğluna akademiyamızın fəxri akademiki diplomunu təqdim etsin.

Eşq olsun türk dünyasına, eşq olsun Türkiyə xalqına!

Yaşasın ədəbiyyatımız, mədəniyyətimiz, mənəviyyatımız!

Yaşasın sarsılmaz Türkiyə–Azərbaycan dostluğu!

Sağ olun.

***01 noyabr 1994-cü il***



## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Parlamentində dahi Azərbaycan şairi Məhəmməd Füzulini anma mərasimindəki çıxışı[1]

Türkiyə Böyük Millət Məclisinin başqanı hörmətli Hüsaməddin Cindoruk!

Hörmətli millət vəkilləri!

Hörmətli nazirlər, cənablar və xanımlar!

İki gündür ki, biz sizin ölkənizdə, bizim öz ölkəmizdə müsafirik, qonağıq. Bizim bir kökdən, bir tarixdən olduğumuzu bir daha dünyaya nümayiş etdirən Məhəmməd Füzulinin anadan olmasının 500 illiyini iki gündür ki, birlikdə, bərabər qeyd edirik.

Məhəmməd Füzuli haqqında dünən də, bu gün də çox sözlər deyildi. 500 ildir ki, Məhəmməd Füzuli yaşayır. 500 ildir ki, Məhəmməd Füzulinin törəmələri – onun ideyaları ilə yaşayan, onun əsərlərindən ilham alan türklər, türk xalqları öz həyatını sürür və bugünkü xoşbəxt bir səviyyəyə gəlib çatmışlar. Füzuli haqqında Türkiyədə, Azərbaycanda böyük elmi əsərlər yazılıbdır. Şairlərimiz, yazıçılarımız ona öz əsərlərini həsr ediblər. Bəstəkarlarımız, rəssamlarımız onun əsərləri əsasında böyük əsərlər yaradıblar. Azərbaycanda elə bir yazıçı, şair tapmaq olmaz ki, o, Füzuli haqqında bir əsər yazmamış olsun. Ancaq bunların hamısından ən önəmlisi odur ki, Füzuli əsərinə, Füzuli yaradıcılığına, Füzuli irsinə əsrin əvvəlində – hələ o vaxt, xalqımızın, demək olar, çox qaranlıqda yaşadığı bir dövrdə, bilik, savad çox az adama qismət olduğu dövrdə dahi bəstəkar Üzeyir Hacıbəyov müraciət edib, şairin "Leyli və Məcnun" əsəri əsasında Şərq aləmində, türk dünyasında ilk dəfə böyük klassik, professional opera – "Leyli və Məcnun" operası yaradıbdır.

1909-cu ildə Bakıda Opera teatrı yaranıbdır və Üzeyir Hacıbəyov öz əsəri ilə Azərbaycan professional musiqisinin əsasını qoymuşdur. Bir əsrdir ki, biz bu əsasda Azərbaycan musiqisinin inkişaf etməsinin şahidiyik.

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 2-ci kitab. Bakı: Azərnəşr, 1997, s. 478–482



Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyev Türkiyə Parlamentində
Məhəmməd Füzulinin anma mərasimində çıxış edərkən. 02 noyabr 1994

Füzuli 500 il bundan qabaq da nurlu bir ulduz kimi parlayıbdır, dünyaya öz şüalarını yayıbdır. Füzuli təkcə Şərqdə yox, müsəlman aləmində, türk dünyasında yox, bütün dünyada, o cümlədən inkişaf etmiş Qərb ölkələrində çox məşhur olmuşdur. Amma Azərbaycan xalqı üçün, bizim üçün Füzuli daha əziz olmuş, son əsrdə xüsusilə yüksək zirvələrə qaldırılmışdır. Bu gün çox böyük iftixar hissi ilə deyə bilərik ki, Füzuliyə bizim Azərbaycan xalqının, Azərbaycan alimlərinin verdiyi qiymət, onun əsərlərindən daim bəhrələnmələri xalqımızın öz kökünə, adət-ənənəsinə, öz keçmişinə, öz tarixinə, dininə, dilinə nə qədər sadiq qalmasını sübut edir.

Azərbaycan xalqının həyatı böyük, çətin mərhələlərdən keçibdir. Ancaq bütün çətinlikləri keçməkdə Azərbaycan xalqına onun böyük insanlarının, böyük şəxsiyyətlərinin yaratdıqları sənət əsərləri kömək edibdir. Füzuli bunların arasında görkəmli yer tutur.

Füzuli keçmişdə də türkləri birləşdirən bir şəxsiyyət olub. Amma indi türk dünyası XX əsrdə parçalanmış olduğu bir halda, türk dünyasına mənsub ölkələrin, demək olar ki, tam əksəriyyəti, bir Türkiyədən savayı, onların həyatına, tarixinə, adət-ənənəsinə uyğun olmayan rejimlər içərisində yaşayan vaxtda Füzuli bizi yaşadıb, bu günlərə gətiribdir. Bu gün biz həm Azərbaycanda, həm Füzulinin doğulduğu yerdə – Kərbəlada, Bağdadda, həm Ankarada, Türkiyədə Füzulinin 500 illiyini qeyd edərkən, artıq keçmişdəki kimi parçalanmış vəziyyətdə

deyilik. İndi böyük Türkiyə Cümhuriyyətinin yanında digər türk cümhuriyyətləri də vardır. Əziz dostum və qardaşım Süleyman Dəmirəlin dəfələrlə dediyi sözü demək istəyirəm ki, ay-ulduzlu Türkiyə bayrağının yanında indi artıq beş müstəqil türk cümhuriyyətinin bayrağı durubdur. Bu bayraqlardan biri də Azərbaycanın bayrağıdır. Azərbaycanın müstəqillik bayrağı Türkiyə ilə bağlı, Türkiyənin təsiri altında qalxıbdır.

Azərbaycanda ilk dəfə müstəqil demokratik dövlət yarananda – 1918-ci ildə də bu, Türkiyə ilə bağlı, Türkiyənin təsiri altında, Türkiyənin köməyi ilə olubdur. Ondan sonrakı dövrdə biz müəyyən siyasi, ideoloji səbəblərə görə, düşdüyümüz vəziyyətə görə Türkiyədən ayrı olduğumuz halda qəlbimiz həmişə bir olub, Füzuli Türkiyədə də, Azərbaycanda da səslənib. Tək Füzuli yox, bizim xalqlarımızın Füzuli kimi böyük sənət adamları, şəxsiyyətləri bizi ayrılmağa qoymayıblar. Yəni bizi daim birləşdirib və bizi ayıran qüvvələrin qarşısını almağa kömək edib.

Ona görə də bu iki gündə burada bizim bu böyük mərasimi bərabər keçirməyimiz sadəcə bir təntənəli mərasim deyil. Bunun böyük tarixi, mənəvi, milli və deyə bilərəm ki, siyasi əhəmiyyəti vardır. Biz böyük məmnuniyyət hissi ilə bu gün Füzuli günlərini Türkiyədə başa çatdırırıq. Lakin o, başa çatmır, bizimlə gələn adamların bir çoxu burada elmi konfranslar, simpoziumlar keçirəcək, orada iştirak edəcəklər, Füzuli günləri hələ davam edəcəkdir.

Güman edirəm, biz buraya böyük bir heyətdə gəldiyimiz kimi, Türkiyədən də, şübhəsiz ki, bundan da böyük bir heyət Azərbaycana gələcəkdir. Çünki əgər yeddi milyonluq Azərbaycan buraya belə bir heyətlə gəlibsə, onda Türkiyədən Bakıdakı Füzuli yubileyinə nə qədər qardaşlarımız gələcəkdir.

İndi bizim vəziyyətimiz ağırdır, çətindir. Həyatımızın çox çətin dövrünü yaşayırıq. Ancaq qəlbimiz genişdir. Türkiyənin hörmətli, dəyərli insanları, siz qəlbimizdə həmişə yaşayırsınız. Sizi qəlbimizdə, könlümüzdə həm Füzuli bayramında, həm də bütün bayramlarda qəbul etməyə, qarşılamağa həmişə hazırıq. İnanıram ki, siz bu dəvətimizi qəbul edəcəksiniz. Füzuli günləri Azərbaycanda davam edəcək, başa çatacaq və gələcəyimiz üçün geniş yolların açılmasına böyük kömək edəcəkdir.

Bu iki gün müddətində Füzulinin yaradıcılığına verilən qiymət, eyni zamanda müstəqil Azərbaycan dövlətindən buraya gəlmiş heyətə göstərilən hörmət və ehtiram bizi həm sevindirir, həm də bizdə böyük təşəkkür hissi oyadır. Biz bunu bir



tərəfdən təbii hesab edirik. Çünki biz dost və qardaşıq. Bir millətik və bir-birimizlə çox bağlıyıq. Eyni zamanda bunu Türkiyə xalqının, Türkiyə Cümhuriyyətinin, Türkiyə dövlətinin Azərbaycana böyük qayğısı, diqqəti kimi qiymətləndiririk. Ümumiyyətlə, Füzuli yubileyi təkcə Füzulinin şəxsiyyətinə, onun yaradıcılığına verilən qiymət deyil. Füzuli yubileyi xalqlarımızın birləşdirilməsinə, yaxınlaşmasına, gələcəkdə bir yolla əzmlə getməsinə şərait yaradan böyük bir hadisədir. Ona görə də mən bütün türk qardaşlarımızı, Türkiyə vətəndaşlarını bu bayram münasibətilə bir daha təbrik edirəm. Bizə göstərilən qonaqpərvərliyə, hörmət və ehtirama görə təşəkkür edirəm. Türkiyədə Füzuli yaradıcılığına verilən belə yüksək qiymətə görə öz sevgimi, məhəbbətimi bildirirəm.

Bu mərasimin təşkili, şübhəsiz ki, Türkiyə dövlətinin sayğısı, diqqəti və qayğısı nəticəsində olmuşdur. Türkiyənin cümhurbaşqanı, əziz dostumuz, qardaşımız Süleyman Dəmirəlin bu mərasimdə bilavasitə iştirak etməsi, Füzuli haqqında geniş nitq söyləməsi, mən hesab edirəm ki, həm Türkiyə üçün, həm Azərbaycan üçün, həm də bütün türk dünyası üçün böyük bir hadisədir.

Bu gün Türkiyənin Böyük Millət Məclisində belə bir böyük mərasimin toplaşması və Füzuliyə həsr olunmuş belə bir gecənin keçirilməsi Türkiyə Cümhuriyyəti Böyük Millət Məclisinin, onun başqanı, hörmətli dostumuz, qardaşımız Hüsaməddin Cindorukun bu hadisəyə və Türkiyə–Azərbaycan dostluğuna göstərdiyi qayğının, hörmətin rəmzidir, təzahürüdür.

Bilirsiniz, bu gün qardaşım Hüsaməddin Cindoruka dedim, bu il fevral ayında Azərbaycanın Prezidenti kimi Türkiyədə rəsmi səfərdə olarkən Türkiyə Cümhuriyyətinin Böyük Millət Məclisində mənə millət vəkillərinə xitab etmək imkanı yarandı. Mən Türkiyənin Böyük Millət Məclisi qarşısında, millət vəkilləri qarşısında böyük həyəcan hissi ilə çıxış etdim. Oraya gələrkən hansı hisslər keçirdiyimi mən bu gün qardaşım Hüsaməddin Cindoruka dedim. Cocuq ikən, gənc yaşlarımda Türkiyəyə böyük hörmətim, məhəbbətim var idi. İndi ola bilər ki, elə böyük sirr deyil açım, o vaxtlar mən türk dili lüğətini, türk dili dərsliyini götürmüşdüm – türk dilini öyrənirdim. Bunu da açıq deyə bilərəm ki, müəllim də var idi, bir müddət – iki-üç il mənə türk dili öyrədirdi. Türkiyənin tarixini öyrənirdim, şairlərini öyrənirdim. Gənc ikən – indi mənim yaşımda olan adamlar ola bilər ki, bunu xatırlasın, məsələn, Rəşad Nuri Güntəkinin "Çalıquşu" romanı bizim hamımızı heyran edən



Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyev Türkiyə Parlamentində Məhəmməd Füzulini anma mərasimində çıxış edərkən. 02 noyabr 1994





Türkiyə Parlamentində Məhəmməd Füzulini anma mərasimi. 02 noyabr 1994

bir əsər idi. Son vaxtlarda "Çalıquşu" yenə yada düşdü, onun əsasında böyük bir film yarandı. O film təkcə türk ölkələrində yox, məsələn, mən bilirəm, Rusiyada da çox böyük hörmət, çox böyük şöhrət qazandı. Ancaq mən "Çalıquşu"nu 13-14 yaşında oxumuşdum. O məni heyran etmişdi.

Bir "Çalıquşu" deyil, biz o vaxtlar Türkiyənin böyük şairlərini, yazıçılarını öyrənirdik. Əbdülhəq Hamid, Tofiq Fikrət və bir neçə başqaları bizim o vaxt, orta məktəbdə oxuduğumuz illərdə ədəbiyyat dərsliklərimizə daxil idi. Ədəbiyyat dərsliklərində Türkiyənin bu böyük yazıçılarının, şairlərinin rəsmləri indi də gözümün qabağındadır. Yəni mən gənc vaxtlarımda – bu da təbiidir, burada heç bir qeyri-təbii şey yoxdur, içərimdən, kökümdən, qəlbimdən, mənəviyyatımdan gələn bir hissiyyatlardır ki, Türkiyəyə böyük maraqla, heyranlıqla baxırdım. Qəzetlərdə və başqa yerlərdə Türkiyənin Böyük Millət Məclisi haqqında oxuyanda həmişə onu əzəmətli bir millət məclisi sanırdım, düşünürdüm, fikirləşirdim ki, Türkiyənin bu Böyük Millət Məclisi nə böyük işlər görür.

Həyat elə gətirdi ki, mən gəlib Türkiyənin Böyük Millət Məclisində millət vəkilləri qarşısında söz demək imkanı aldım. Türkiyəyə və millət vəkillərinə xitab etdim. Bu, mənim üçün böyük şərəfdir. Mən bunu heç vaxt unutmayacağam. O gün orada ürəyimdə olan sözləri böyük həyəcanla öz dostlarıma, qardaşlarıma çatdırdım.

Biz bu gün yenə də Türkiyənin Böyük Millət Məclisindəyik. Hüsaməddin bəy mənə dedi, Türkiyənin 80-dən çox millət vəkili bu salonda bizimlə birlikdədir, biz onlarla birlikdəyik. Həm Füzuli yubileyini qeyd edirik, həm də Türkiyə–Azərbaycan dostluğunun daha da möhkəmlənməsi üçün hər tərəfdən səylər göstəririk. Bunlar bizim yaşadığımız günlərin reallığı, gerçəkliyidir. Allaha şükürlər olsun ki, biz gəlib bu günlərə çatdıq, bu günləri gördük. Mən sizə deyə bilərəm ki, Azərbaycanda nə qədər adamlar bu günlərin həsrəti ilə yaşadı, lakin gəlib bu günləri görə bilmədi. Azərbaycanda belələri çox olub – çox dəyərli adamlar, xalqlarımızın dostluğunu görmək istəyən adamlar.

Biz Türkiyə ilə Azərbaycan arasında həsrət körpüsünü, ümid körpüsünü yaradanda da mən bu hissiyyatlarla yaşadım. O vaxt mən Naxçıvanda yaşayırdım. Həyatım belə gətirdi ki, mən Naxçıvanda doğuldum, böyük bir yol keçdim, Moskvaya getdim. Ondan sonra gəlib doğulduğum yerdə yaşamağa məcbur oldum. Mənim üçün bu da çox gözəl bir dövrdür. Ona görə gözəl bir dövrdür ki, Türkiyə ilə Azərbaycan arasında əsrlər boyu həsrətində olduğumuz körpünün tikilməsində iştirak etdim, o körpünün inşasını apardım və Türkiyənin böyük oğlu Süleyman Dəmirəllə, Türkiyənin millət vəkilləri ilə, nazirləri ilə birlikdə həsrət, ümid körpüsünü bir yerdə açdıq.

Demək istəyirəm ki, yəni Azərbaycanda belə həsrətlərlə yaşamış adamlar çox olub. Onların bir çoxu bu günləri görmədən həyatını dəyişib. Ancaq biz xoşbəxtlərdənik ki, bu günləri gəlib görmüşük. Türkiyə ilə Azərbaycanın bərabərliyini, dostluğunu görürük, onun şahidiyik və bu dostluğu daha da inkişaf etdirmək üçün fəaliyyət göstəririk. Bu gün Türkiyənin Böyük Millət Məclisinin salonunda millət vəkilləri ilə birlikdə Türkiyə–Azərbaycan dostluğunu bayram edirik. Füzuli sənətinin bayramını keçiririk.

Bu bayramlar münasibətilə, Füzuli bayramı münasibətilə mən sizi təbrik edirəm və sizi əmin etmək istəyirəm ki, mənim türkiyəli qardaşlarım, dostlarım, Azərbaycan xalqı bu dostluğu daim möhkəmləndirməyə çalışacaq, bu dostluq sarsılmaz olacaq, əbədi olacaq və gələcək nəsillərimiz bu dostluğun, bu qardaşlığın daha gözəl bəhrələrini görəcəklər. Sizi bir daha təbrik edirəm, hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

*02 noyabr 1994-cü il*

# Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin Moskvada dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi[1]

Əziz dostlar, əziz moskvalılar, əziz rusiyalılar, Moskvada yaşayan əziz həmvətənlər, azərbaycanlılar!

Füzulinin 500 illik yubileyi münasibətilə Azərbaycan xalqından, müstəqil Azərbaycan dövlətindən səmimi salamı və hərarətli təbrikləri qəbul edin. Rusiya və Azərbaycan xalqları gözəl dostluq, əməkdaşlıq ənənələrinə, mədəniyyət sahəsində qarşılıqlı münasibətlərin zəngin tarixinə malikdirlər. Bu işdə xalqımıza həyatın bütün mərhələlərində mədəniyyət, ədəbiyyat, incəsənət xadimləri kömək etmişlər.

Bu gün biz fasilədən sonra, müəyyən müddətdən sonra yenidən birlikdəyik və dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyini birlikdə qeyd edirik. Şairin yubiley ilini YUNESKO "Füzuli İli" elan etmişdir. Füzulinin yubileyi Azərbaycanda, bir çox digər ölkələrdə geniş qeyd edilir, lakin bu, Azərbaycan xalqı üçün xüsusilə dəyərli və əhəmiyyətlidir ki, Füzulinin yubileyi Moskvada – zəngin mədəni və ədəbi ənənələri olan şəhərdə də qeyd olunur. Azərbaycanın mədəniyyət və incəsənət xadimlərinin bir çox nəsillərinin həyatı və yaradıcılığı bu şəhərlə bağlıdır.

Azərbaycan ədəbiyyatına, respublikamızın mədəniyyətinə belə qayğı göstərdiklərinə və bu gözəl gecəni təşkil etdiklərinə görə Rusiya dövlətinə, hamıya ürəkdən təşəkkür edirik. Mən Rusiya Federasiyasının Prezidenti, çox hörmətli Boris Nikolayeviç Yeltsinə gecəmizin iştirakçılarına göndərdiyi səmimi təbrikə görə minnətdaram. Bu təbrikdə o, dahi Azərbaycan şairinə, Azərbaycan xalqına, Azərbaycan mədəniyyətinə öz münasibətini və bütün Rusiya xalqının münasibətini ifadə etmişdir.

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 2-ci kitab. Bakı: Azərnəşr, 1997, s. 414–415





Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyev Moskvada Məhəmməd Füzulinin 500 illik yubiley tədbirində çıxış edərkən. 17 noyabr 1994

Moskvanın, Rusiyanın ən gözəl saraylarından biri Rusiyanın, digər xalqların incəsənət, mədəniyyət xadimlərinin yubileylərinə, həyat və yaradıcılıqlarının əlamətdar ildönümlərinə həsr olunmuş bir çox unudulmaz gecələri xatırladır. Bu salonda Azərbaycan mədəniyyəti korifeylərinin yubileyləri dəfələrlə bayram edilmişdir. Lakin bugünkü gecə xüsusi əhəmiyyətə malikdir. Bu gün Rusiya paytaxtında Məhəmməd Füzulinin 500 illiyi, müstəqil Azərbaycan dövləti şairinin yubileyi qeyd olunur. Bunun xüsusi mənası var. Elə bunun özü də ona dəlalətdir ki, Azərbaycan və rus xalqlarını, Rusiya və Azərbaycan xalqlarını birləşdirən dostluq telləri möhkəm və pozulmazdır, bu telləri heç nə qıra bilməz. Bu tellər əbədi olacaq

və gündən-günə möhkəmlənəcəkdir.

Bütün Yer kürəsində, o cümlədən də keçmiş Sovet İttifaqının ərazisində baş verən ictimai-siyasi proseslər müxtəlif bölgələrdə, eləcə də bizim Qafqazda adamların həyatını təbii olaraq çətinləşdirir, haradasa düşmənçilik, qarşıdurma şəraiti yaradılır. Biz burada, Moskvada Füzulinin 500 illiyini qeyd edərkən qəti şəkildə bildiririk ki, bütün bu hallar keçib gedəndir, onlar əsrlər boyu xalqlar arasında toplanmış, yaradılmış nə varsa, hamısını – dostluq, qarşılıqlı hörmət, qarşılıqlı yardım hisslərini sarsıda bilməz. Buna görə də belə düşünürəm ki, biz hamımız bu çətinlikləri əl-ələ verib birlikdə aradan qaldıracağıq, ümumbəşəri dəyərlərə xidmət etmək, ümumbəşəri amallara xidmət etmək üçün birləşəcəyik.

Rus və Azərbaycan xalqlarının incəsənət və mədəniyyəti, ədəbiyyatı bir-biri ilə elə sıx bağlanmış, bir-biri ilə elə möhkəm çulğaşmışdır ki, bu əlaqələri məhv etmək mümkün deyildir. Elə bugünkü gecə də buna ən inandırıcı və parlaq sübutdur.

Mən buraya rus xalqına, Rusiya xalqlarına, Moskvaya, moskvalılara Azərbaycan xalqının bəslədiyi dərin ehtiram hissi ilə gəlmişəm. Bu hisslər Azərbaycan xalqının rus xalqına münasibətini həmişə səciyyələndirmişdir. Bu hisslər indi də, müstəqil dövlətlərin hüdudları daxilində yaşadığımız dövrdə də yaşayır, bizi bir-birimizə bağlayır və bizi birləşdirir.

Mən bugünkü gecəyə görə sizə təşəkkür etmək, moskvalılara, rusiyalılara təşəkkür etmək və keçmiş zamanlarda bizi birləşdirmiş olan və bu gün də birləşdirən dostluğa görə rus xalqına, bütün Rusiya xalqlarına böyük hörmət, böyük minnətdarlıq hisslərini çatdırmaq istəyirəm.

Bugünkü gecəyə görə çox sağ olun! Sizə xoşbəxtlik və firavanlıq, Rusiya Federasiyasının xalqlarına uğurlar, sizə uğurlar, rus xalqına, rus mədəniyyətinə, rus ədəbiyyatına, rus incəsənətinə xoşbəxtlik və firavanlıq arzulayıram.

Sağ olun!

*17 noyabr 1994-cü il*



## Heydər Əliyevin Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibətilə Dərbənd şəhərində keçirilən beynəlxalq elmi konfransın iştirakçılarına məktubu[1]

Möhtərəm konfrans iştirakçıları, əziz dostlar!

Sizi – dahi Azərbaycan şairi Məhəmməd Füzulinin möhtəşəm, ulu poeziyasının işığına yığışmış sənətsevərləri səmimi qəlbdən salamlayır, bu nəcib məramınızı ürəkdən alqışlayıram.

Beş yüz ildir ki, Füzuli sənəti ülvi insani duyğuların, bəşəri dəyərlərin poetik salnaməsi kimi ürəkləri fəth edir. Füzuli təkcə Azərbaycanın, Şərqin deyil, bütün bəşəriyyətin dahi mütəfəkkiridir.

Fitri istedad və yüksək sənətkarlıqla səciyyələnən Füzuli yaradıcılığı milli-coğrafi sərhəd tanımır, dünya mədəniyyətinin incisinə çevrilərək xalqlar arasında mənəvi-mədəni əlaqələrin möhkəmlənməsində, millətlərin bir-birinə yaxınlaşmasında də, əvəzsiz rol oynayır.

Azərbaycan, ərəb və fars dillərində ölməz sənət nümunələri yaradaraq zəngin ədəbi irs qoyub getmiş Füzulinin yaradıcılığı dünyanın bir çox görkəmli alimləri tərəfindən tədqiq edilmiş, onun həyatı və sənəti barədə dəyərli elmi əsərlər yazılmışdır. Qardaş Dağıstan alimləri öz xalqlarının Füzuli sənətinə olan böyük hörmət və məhəbbətini ifadə edərək dahi şairin yaradıcılığını dərindən öyrənir, sanballı elmi-tədqiqat işləri aparırlar. Dərbənd şəhərində keçirilən beynəlxalq elmi konfrans da Füzuli poeziyasının öyrənilməsində xüsusi əhəmiyyət kəsb edir.

Əminəm ki, bu beynəlxalq elmi konfrans Azərbaycan və Dağıstan xalqlarının dostluq, qardaşlıq münasibətlərinin daha da zənginləşməsinə xidmət edəcəkdir.

Mən bir daha sizi – bütün Dağıstan sənətsevərlərini, füzulişünasları ürəkdən salamlayır, konfransınızın işinə uğurlar diləyirəm.

Hörmətlə,

**Heydər Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
15 iyul 1996-cı il

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 7-ci kitab. Bakı: Azərnəşr, 1998, s. 108-109

# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasının növbəti iclasında çıxışı[1]

Hörmətli komissiya üzvləri!

1994-cü ildən Azərbaycanda Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar yubiley tədbirləri keçirilir. Bu müddətdə çox iş görülüb. Məhəmməd Füzulinin yaradıcılığı həm Azərbaycanda, həm də bir çox xarici ölkələrdə təbliğ olunubdur. Hesab edirəm ki, 1994-cü ilin martında yaradılmış yubiley komissiyası gərəkli işlər görübdür. Məhəmməd Füzuli elə bir şəxsiyyətdir ki, onun yubileyi ilə əlaqədar tədbirləri daim davam etdirmək olar. Ancaq eyni zamanda müəyyən mərhələdə görülən işlərə də yekun vurmaq, ən yüksək tədbirləri keçirmək lazımdır. Ona görə də mən Məhəmməd Füzulinin yubileyi ilə əlaqədar yaradılmış komissiyanın bu gün növbəti iclasını çağırmışam.

Təklif edirəm ki, yubiley komissiyası sədrinin müavini Elçin Əfəndiyevin bu barədə məlumatını dinləyək, görülən işləri təhlil edək və bundan sonra görüləcək tədbirlər haqqında müəyyən qərar qəbul edək.

***

Elçin Əfəndiyev ətraflı məlumat verdi. Biz, yəqin ki, bu məsələlər barədə fikir mübadiləsi aparmalıyıq. Ancaq müzakirəyə başlamamışdan əvvəl mən iki məsələni qeyd etmək istəyirəm. Birincisi, bu gün iyulun 23-dür. Üç il bundan əvvəl respublikamızın Ağdam şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib.

Ağdam böyük rayondur. Onun ərazisi də böyükdür. Ermənistanın Azərbaycana təcavüzü başlayandan, ilk gündən, 1988-ci ildən Ağdam rayonu, xüsusən onun Dağlıq Qarabağla sərhədə yaxın yaşayış məntəqələri atəş altında olmuşdur. Gedən müharibə nəticəsində hələ 1993-cü il

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 7-ci kitab. Bakı: Azərnəşr, 1998, s. 161–175





Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyev Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasının növbəti iclasında çıxış edərkən. 23 iyul 1996

iyulun 23-dək, Ağdam şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilənədək rayonun ərazisinin bir qismi 1991-1992-ci illərdə işğal altında idi. 1993-cü il iyulun 23-də isə Ağdam şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. İndi Ağdam rayonu ərazisinin bir hissəsi, Ağdam şəhəri işğal altındadır. Orada yaşamış sakinlərimiz Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində öz yerlərindən didərgin düşüblər. Amma əhalinin digər hissəsi hazırda Ağdam rayonunun işğal olunmamış ərazisində yaşayır və fəaliyyət göstərir.

Ağdam rayonunun, şəhərinin işğal edilməsi Azərbaycan üçün, əlbəttə ki, böyük zərbə olmuşdur. Çünki Ağdam Azərbaycanın qədim, böyük, tarixi abidələrə malik şəhərlərindəndir. Bu, bütün Azərbaycan xalqını kədərləndirir. Biz də bu



Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyev Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasının növbəti iclasında çıxış edərkən. 23 iyul 1996

gün bu kədərli hadisəni yad edirik. 1988-ci ildən bəri, Ermənistanın Azərbaycana təcavüzü başlayandan 1994-cü ilin mayında atəş dayandırılanadək xalqımız çox böyük itkilər verib, insanlar şəhid, həlak olublar. Böyük itkilər vermişik. Ona görə də müzakirələr başlanmamışdan əvvəl mən istərdim ki, biz bu gün, bu dəqiqə bu faciəli hadisəni yad edək. Eyni zamanda Azərbaycanın ərazi bütövlüyü uğrunda, respublikamızın torpaqlarının qorunması uğrunda həlak olmuş soydaşlarımızın, vətəndaşlarımızın xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah rəhmət eləsin.

Ağdam şəhərinin işğal olunması ilə əlaqədar yaxın günlərdə mənim planlarım da var. Ağdam rayonunun nümayəndələri ilə görüş keçirmək fikrindəyəm. Güman edirəm ki, biz bu görüş zamanı həm keçmiş illəri təhlil edəcəyik, həm də gələcək haqqında, respublikamızın ərazi bütövlüyünün təmin olunması, o cümlədən işğal edilmiş torpaqlarımızın azad edilməsi ilə əlaqədar fikir mübadiləsi apara biləcəyik.

Füzulinin 500 illiyi ilə əlaqədar yaradılmış yubiley komissiyasının fəaliyyəti haqqında Elçin Əfəndiyev geniş məlumat verdi. Bir daha qeyd etmək istəyirəm ki, çox işlər görülübdür. 1994-cü ildə yaradılmış komissiyanın hər bir üzvü indiyədək görülmüş işlərə öz payını veribdir. Ancaq təəssüflər olsun ki, biz bu komissiyanın bir neçə üzvünü itirmişik. Keçən iclasda mən xatırladım, böyük şairimiz Xəlil Rza, böyük alimimiz Rüstəm Əliyev dünyalarını dəyişiblər. O iclasdan sonra bizim yenə də itkilərimiz var: böyük yazıçımız İsmayıl Şıxlı, böyük alimlərimiz Aslan Aslanov, Cahangir Qəhrəmanov da dünyalarını dəyişiblər. Komissiyamızın dünyasını dəyişən üzvlərinin hamısının xatirəsini istəyirəm bir dəqiqəlik sükutla yad edək.

Allah rəhmət eləsin.

Elçin Əfəndiyev məlumat verdi, həqiqətən, iş görülüb. Eyni zamanda təklif irəli sürdü ki, Zirvə mərasimini də keçirək. Bununla əlaqədar bir sıra təkliflər də irəli sürülüb. İstərdim ki, komissiya üzvləri öz fikirlərini desinlər, eyni zamanda kimin nə təklifi varsa, desin...

***

Mən bir məsələni dəqiqləşdirmək istəyirəm. Siz deyirsiniz ki, Nizami muzeyinin, bizim tarixi abidəmiz olan muzeyin adını dəyişdirib Füzuli muzeyi edək? O, bizim həyatımıza Nizami muzeyi kimi daxil olub. İndi o, Nizami adına muzeydir, eləmi? Həmin muzeyi, oradakı heykəllər, gözəl bəzəklər, naxışlar ilə birlikdə 1948-ci ildə yaratdılar. Mən o vaxtdan da o muzeyi Nizami muzeyi hesab edirəm...

Cəfər Cabbarlının abidəsini mən qoydum getdim. Xatirinizdədirmi, o abidəni 1981-ci ildə qoyduq. Mən 1982-ci ildə buradan getdim. Amma siz hamınız burada idiniz, o cümlədən sənin (Nəbi Xəzriyə müraciətlə – red.) də hər bir səlahiyyətin var idi. Ad yazmaq bir şey deyildir, yazılmamışdı – yazaydınız. Əlbəttə, o abidəni qurmaq, yaratmaq çox çətin idi. Düzgün deyirsən, abidənin müəllifi Mirələsgər Mirqasımov tələb edirdi ki, bu abidə bütöv qranitdən olsun. O vaxt bu işi aparanların bir çoxu deyirdi ki, o mümkün deyil. Bu mübahisə iki il davam etdi. Nəhayət, o, bir-iki dəfə mənim yanımda oldu, görüşdük. Baxdım ki, müəllifin təklifi elədir ki, bunu etmək lazımdır. Doğrudur, çətin idi, amma o, belə bir əsər yaradıbsa, müəllifin yaratdığını olduğu kimi icra etmək lazımdır.



Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə
Dövlət Komissiyasının növbəti iclası. 23 iyul 1996

Doğru deyirsiniz, mən bu işə qarışdım. Qraniti Ukraynadan çox çətinliklə gətirdik, bu abidəni qurduq, yaratdıq. İndi sən deyirsən ki, orada bazardır. Ola bilər. Ancaq oradakı Sabunçu dəmiryol vağzalı vaxtilə nə vəziyyətdə idi? Bunların hamısını siz görmüsünüz. Axır vaxtlar mən oralara getməmişəm. O zaman biz oranı abadlaşdırdıq, yenidən qurduq, dəmiryol vağzalı ilə meydanı birləşdirdik. Tarixi abidə olan Sabunçu vağzalının binasını bərpa etdik. Bunlar hamısı görülmüş işlərdir. Amma, əgər Cəfər Cabbarlının abidəsi önünə adı yazılmayıbsa, bu adı yazmaq hər şeydən asan idi. Gərək bunu edəydilər. Əgər bunu etməmisinizsə, şübhəsiz ki, mən bunu da edərəm.

İstanbulda Balasanyanın "Leyli və Məcnun" baletinin tamaşaya qoyulması, şübhəsiz ki, təəccüb doğurur. Məlumdur, vaxtilə Balasanyan "Leyli və Məcnun" baletini yazıb. Bu, Böyük Teatrda da tamaşaya qoyulub. Keçmişə nəzər salsaq, "Leyli və Məcnun" mövzusu Şərq aləminə məxsus olan mövzudur. Ancaq bu mövzu Azərbaycanın dahi şəxsiyyətlərinin yaradıcılığı nəticəsində əsərlərdə öz əksini tapıb. Nizami də, Füzuli də "Leyli və Məcnun" yazıb. Arif Məlikov doğru dedi, hesab edirəm ki, bəşər tarixində, Şərq aləminin tarixində, İslam aləminin tarixində "Leyli və Məcnun" mövzusunda məhz Məhəmməd Füzulinin poeması əsasında dahi bəstəkar Üzeyir Hacıbəyov tərəfindən opera yazılıbdır. Biz bəzən bunu tariximizdə adi bir hadisə hesab edirik. Ancaq bu, adi hadisə deyildir. Birincisi, ona görə ki, ümumiyyətlə, Şərq aləmində Üzeyir Hacıbəyovdan əvvəl opera yazan olmayıb. Bu operanı yaradan Üzeyir Hacıbəyovdur. Ola bilərdi ki, bu operanı hər hansı başqa bir mövzu üzərində yazsın. Üzeyir Hacıbəyov bu operanı məhz Füzulinin poeması əsasında yazıb. Bilirsiniz, Füzulinin Üzeyir Hacıbəyovla bağlanması, 500 il bundan əvvəl yaşamış Füzulinin 100 il bundan əvvəl yaşamış Üzeyir Hacıbəyovun Şərq aləminə xas olmayan opera sənəti əsasında bağlanması tarixi bir hadisədir. Bu, xalqımızın incəsənətdə, mədəniyyətdə, musiqidə nə qədər yüksəklərə qalxdığını göstərir. Biz bununla fəxr edirik və fəxr etməliyik. Yenə də deyirəm, bunu adi hadisə kimi qəbul etmək lazım deyil. Bu, qeyri-adi bir hadisədir.

Ancaq bizim sonrakı bəstəkarlarımız gərək Üzeyir Hacıbəyovun yolu ilə gedəydilər. "Leyli və Məcnun" mövzusunda bir balet yazaydılar. Qara Qarayevin "Leyli və Məcnun" simfonik əsəri çox dəyərli bir əsərdir. Mən onu dəfələrlə dinləmişəm. Yadımdadır, biz Qara Qarayevin 60 illik yubileyini qeyd edəndə həm Moskvada, həm də Bakıda məhz bu əsəri ifa etdilər. Ancaq bu mövzuda balet yazmaq lazımdır. Arif Məlikov "Məhəbbət əfsanəsi" adlı çox gözəl bir əsər yaradıb. Bu əsər dünyanın ən böyük teatrlarında tamaşaya qoyulub və bu gün də qoyulur. Ancaq gərək bir başqa bəstəkarımız da "Leyli və Məcnun" baleti yaradaydı. Bunu Arif Məlikovun özü də edə bilərdi. Çünki onun yaratdığı birinci balet çox uğurlar qazanıb, bir çox teatrlarda bu gün də uğurla gedir.

Mən hesab etmirəm ki, xalqımızın, bəstəkarlarımızın yaradıcılıq potensialı tükənibdir, yox. Bu gün də, sabah da əsərlər yaranacaq. Bəzən insanlar düşünürlər ki, bu olmasa, biz sabah necə yaşayacağıq? Amma sabah yeni bir istedad meydana çıxar. Əlbəttə, dahilər hər il yetişmir. Bu da təbiidir. Əgər belə olsaydı, şübhəsiz ki,

onların qiyməti olmazdı. Xalqımızda istedadlar potensialı çox böyükdür. Güman edirəm, indiyədək olmayan əsərlər bundan sonra yaranacaqdır. Biz də onu görəcəyik, sonrakı nəsillər də onu görəcəklər.

Ancaq İstanbulda Balasanyanın əsərlərinin tamaşaya qoyulması, şübhəsiz ki, təəccübləndirici bir məlumatdır. Güman edirəm ki, Polad Bülbüloğlu "Türksoy"un sədri və Mədəniyyət Nazirliyinin başçısı kimi gərək bu məsələni biləydi və türk qardaşlarımıza izah edəydi ki, belə ola bilməz. Ola bilər, nəzərdən qaçıb. Bu məsələni öyrənin, belə şeylər ola bilər. Bəlkə, bəziləri kimin kim olduğunu anlamırlar, yaxud bəziləri bunu qəsdən edirlər, ola bilər.

**Yekun sözü**

Güman edirəm, hamınız razılaşarsınız ki, bu gün komissiyanın iclası görülmüş işlərə yekun vuracaqdır. İclas həm də Füzulini qəlbimizdə, eləcə də xalqın qəlbində yenidən canlandırır. Son illər, xüsusən 1994-cü ildə Füzulinin 500 illiyi ilə əlaqədar yubiley komissiyası yaradıldıqdan sonra çox iş görülübdür. 94-cü, 95-ci və 96-cı illərdə keçirilən yubiley tədbirləri sadəcə olaraq bir yubiley günü, yaxud yubiley ayı və ya yubiley ili ilə bağlı mərasimlər deyildi, onlar Füzuli yaradıcılığının geniş bir çərçivədə təbliğ olunmasına şərait yaradırdı.

Füzulini ən əvvəl öz ölkəmizdə daim təbliğ etmək lazımdır. Bizim xalqımız, xüsusən gənc nəsil, yeni həyata qədəm qoyanlar Füzulini nə qədər oxusalar, dərk etsələr, onun yaradıcılığı ilə yaxından tanış olsalar, Füzuli şəxsiyyətinin böyüklüyünü hiss etsələr, adamlarımız bir o qədər saf mənəviyyat istiqamətində yaşayacaq və həyatlarını da bu ruhda quracaqlar. Çünki Füzulinin həyatı da, bütün yaradıcılığı da həm yüksək mənəviyyat, həm yüksək fəlsəfədir, həm də insanlara mənəvi, estetik qida verən böyük bir mənbədir.

Buna görə də təxminən bu üç ildə görülən işlər həyatımızda, xüsusən ictimai-siyasi, mədəni həyatımızda çox əhəmiyyətlidir, onların böyük təsiri var və bundan sonra da olacaqdır.

*23 iyul 1996-cı il*



## Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin Məhəmməd Füzulinin 500 illik yubileyinə həsr olunmuş beynəlxalq simpoziuma məktubu[1]

Hörmətli alimlər!

Xanımlar və cənablar!

Sizi dünya ədəbiyyatının klassiki, dahi şair və mütəfəkkir Məhəmməd Füzulinin 500 illik yubileyinə həsr olunmuş beynəlxalq simpoziumun açılışı münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Füzuli beş əsrdir ki, dünya poetik fikrinin inkişafında misilsiz rol oynayır. Onun yaradıcılığı əsrlərdən bəri Yaxın və Orta Şərqin ədəbi fikrini öz təsiri altında saxlamışdır. Füzuli poeziyasının türk xalqlarının mədəniyyətlərinin yaxınlaşması və qovuşmasında əhəmiyyəti xüsusi qeyd edilməlidir. Bu gün türkdilli xalqların hər biri Füzulini öz doğma şairi kimi sevir və onun 500 illik yubileyini təntənəli şəkildə qeyd edir.

Füzuli Azərbaycanın böyük milli sənətkarı olmaqla yanaşı, bütün müsəlman aləminin qəlb şairidir. Qoca Şərqin bədii, ədəbi-nəzəri, mənəvi-estetik dünyasının elə bir guşəsi yoxdur ki, Füzuli şeiri ilə bəhrələnməsin. Füzulinin humanizm və ümumbəşəri dəyərlərlə mayalanmış yaradıcılığı bütün bəşəriyyət üçün böyük mənəvi qidadır.

Əziz füzulişünas alimlər!

Sizi bu gün Füzulinin tarixi Vətənində – milli dövlət quruculuğu yolunda inamla irəliləyən Azərbaycan Respublikasında salamlamaqdan xüsusi fərəh hissi duyuram. Bu beynəlxalq simpozium bir daha təsdiq edir ki, dünyanın bir çox ölkələrində Füzulişünaslıq bir elmi istiqamət kimi artıq özünü təsbit etmişdir. Füzulinin tədqiqi və nəşri sahəsində Azərbaycanda da, sizin ölkələrdə də böyük işlər görülmüşdür.

Mən inanıram ki, Azərbaycanda keçirilən bu yubiley təntənələrindən sonra bütün dünyada füzulişünaslıq elmi daha da inkişaf edəcəkdir. Füzuli irsinin və dövrünün öyrənilməsində yeni elmi nəticələr əldə olunacaqdır. Sizə bu nəcib və şərəfli işinizdə uğurlar diləyirəm.

**Heydər Əliyev**

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 6 noyabr 1996-cı il

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 8-ci kitab. Bakı: Azərnəşr, 1998, s. 21-22

# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyinə həsr edilmiş təntənəli gecədə nitqi[1]

Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar, dostlar!

Sizi dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyi, xalqımızın el bayramı münasibətilə ürəkdən təbrik edirəm!

Məhəmməd Füzulinin 500 illik yubileyinə, yubiley mərasimlərində iştirak etmək üçün respublikamıza gəlmiş bir çox ölkələrdən olan nümayəndə heyətlərinə, dövlət xadimlərinə, ictimai xadimlərə, elm, mədəniyyət xadimlərinə, bütün qonaqlarımıza Füzuli yaradıcılığına, Azərbaycan Respublikasına göstərdikləri hörmət və diqqətə görə təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Məhəmməd Füzulinin 500 illik yubileyi üç ildir ki, Azərbaycanın hər bir guşəsini fəth edibdir və dünyanı dolaşır. Bu üç il müddətində Məhəmməd Füzulinin 500 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikasında, onun hər bir yerində – şəhərində, qəsəbəsində, hər bir guşəsində böyük təntənəli mərasimlər keçirilib, bu dahi şairin yaradıcılığına hörmət və ehtiram bildirilibdir.

Məhəmməd Füzulinin yubileyi təkcə Azərbaycanda yox, dünyanın bir çox ölkələrində təntənəli surətdə keçirilibdir. Türkiyədə – Ankarada, Rusiyada – Moskvada, İraqda – Bağdadda, Kərbəlada, Kərkükdə, İranda – Tehranda, Gürcüstanda, Qazaxıstanda, Özbəkistanda, Dağıstanda – Dərbənddə, Mahaçqalada, Parisdə, YUNESKO-nun baş qərargahında Məhəmməd Füzulinin 500 illik yubileyi ilə əlaqədar təntənəli mərasimlər keçirilib. Məhəmməd Füzulinin yaradıcılığı, onun irsi geniş təbliğ olunub və bütün dünyaya çatdırılıbdır.

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 8-ci kitab. Bakı: Azərnəşr, 1998, s. 23-30



Məhəmməd Füzulinin 500 illik yubileyinin dünya miqyasında keçirilməsi ilə əlaqədar Birləşmiş Millətlər Təşkilatının YUNESKO təşkilatı tərəfindən qəbul olunmuş qərar xalqımıza, mədəniyyətimizə, Məhəmməd Füzuliyə verilmiş böyük qiymət, hörmət və ehtiramdır. Məhəmməd Füzulinin 500 illik yubileyi münasibətilə Birləşmiş Millətlər Təşkilatının YUNESKO təşkilatının baş direktoru hörmətli cənab Federiko Mayor Azərbaycana gəlib, bu gün bizimlə bərabərdir, bu yubileyi bizimlə bir yerdə qeyd edir.

Məhəmməd Füzulinin 500 illik yubileyi ilə əlaqədar Azərbaycanda son üç ildə böyük tədbirlər keçirilmişdir. Türk dünyası yazıçılarının III qurultayında Məhəmməd Füzulinin yaradıcılığı və onun 500 illik yubileyi diqqət mərkəzində olmuşdur. Türkdilli ölkələrin beynəlxalq TÜRKSOY təşkilatının VIII toplantısında Məhəmməd Füzulinin yaradıcılığı, onun irsi diqqət mərkəzində olmuşdur. Bakıda beynəlxalq simpozium keçirilmişdir. Məhəmməd Füzulinin yaradıcılığı bu günlər bir daha həm Azərbaycanın ictimaiyyəti qarşısında yüksəlmiş, həm də dünyaya nümayiş etdirilmişdir.

Məhəmməd Füzuli Azərbaycan xalqının böyük şairi, alimi, filosofu olaraq, eyni zamanda bütün türkdilli, türksoylu xalqlara, bütün türk, İslam dünyasına mənsubdur.

Məhəmməd Füzulinin yaradıcılığı, əsərləri, onun irsi dünya mədəniyyətinə böyük töhfələr vermişdir, dünya mədəniyyətini zənginləşdirmişdir. Məhəmməd Füzuli 40 illik yaradıcılıq dövründə 500 il daim yaşayan böyük əsərlər yaratmışdır. O, Azərbaycan şeirinin, Şərq şeirinin ən yüksək zirvəsinə çatmış və onun yaratdığı şeirlər, onun poeziyası, poemaları, qəzəlləri, qəsidələri, rübailəri 500 ildir insanlara böyük mənəvi ruh verir.

Məhəmməd Füzulinin yaradıcılığında elmin, fəlsəfənin bir çox sahələri geniş təhlil olunmuş və onun əsərlərində öz əksini tapmışdır. Onun bütün əsərləri şeir, poeziya, ədəbiyyat nümunələri olmaqla bərabər, eyni zamanda böyük fəlsəfi ideyalar, elmi fikirlər daşıyır. Məhəmməd Füzuli öz yaşadığı dövrdən əvvəlki dövrü geniş təhlil etmiş və həm Şərqin ona qədər yaratdıqlarını, həm də qədim yunan, rum antik ədəbiyyatının, qədim hind ədəbiyyatının nümunələrini öz əsərlərində cəmləyərək, yaradıcılığında Şərqin və Qərbin sintezinin nəticəsi olaraq şeirin, elmin, fəlsəfənin ən yüksək zirvələrinə çatmışdır.

Məhəmməd Füzuli öz əsərləri, yaradıcılığı ilə özünə yenilməz bir heykəl, abidə yaratmışdır. Bu abidə 500 ildir ki, insanla-



Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyev Bakıda
Məhəmməd Füzulinin 500 illik yubiley tədbirində çıxış edərkən. 08 noyabr 1996

rın qəlbindədir. O, Azərbaycan Respublikasının hər bir vətəndaşının qəlbindədir. Bu, mənəvi abidədir. Bu abidə bütün fırtınalardan, küləklərdən, zəlzələlərdən, bütün müharibələrdən, döyüşlərdən, vuruşlardan keçərək yaşayır, gün-gündən yüksələrək zirvələri fəth edir. Biz bu gün, bu el bayramı günü Məhəmməd Füzulinin Azərbaycanın paytaxtı Bakıda, Füzuli meydanında ucaldılmış heykəlinin önünə getdik, onun heykəlinin qarşısına güllər qoyduq. Ancaq Füzulinin özünün yaratdığı mənəvi heykəl bizim hər birimizin qəlbindədir. O, əbədi yaşayacaq, gələcək nəsillərin qəlbində də yaşayacaqdır.

Məhəmməd Füzuli xalqların keçdiyi tarixi yolu təhlil edərək çox yüksək fəlsəfi ümumi bəşəri fikirləri, dəyərləri öz əsərlərində əks etdirmişdir. O, yaşadığı dövrdə gedən ictimai-siyasi prosesləri, insan cəmiyyətini, insan həyatını təhlil edərək insanlar, cəmiyyət üçün ölməz fikirlər söyləmiş, ölməz tövsiyələr vermişdir. Onun əsərlərinin hamısı insan cəmiyyəti, insanların bir-birinə münasibətini, insanlarda bütün müsbət keyfiyyətləri tərənnüm etməkdən, insanlarda, cəmiyyətdə olan mənfi hallara öz etirazını, nifrətini bildirməkdən ibarət olmuşdur.

Məhəmməd Füzulinin əsərlərində insanların sevgisi, məhəbbəti, eşqi, insanın insana münasibəti, sədaqəti, etibarlılığı vəsf, tərənnüm edilmişdir. Məhəmməd Füzuli bütün əsərlərində insanları sədaqətə, etibarlılığa, ataya-anaya, Vətənə, torpağa, eşqə, məhəbbətə, öz ülvi duyğularına sədaqətə dəvət etmişdir – bunların hamısı 500 il bundan əvvəl olduğu kimi, bu gün də insanlar üçün ən vacib, lazım olan yüksək mənəvi keyfiyyətlərdir.

Məhəmməd Füzuli öz dövrünün həyatını əks etdirərək, öz mühitindən qida alaraq yaratdığı əsərləri uzaq gələcəyə istiqamətləndirmişdir. Ona görə də Füzulinin əsərləri 500 ildir ki, yaşayır və bundan sonra da yüz illərlə, min illərlə yaşayacaqdır.

Məhəmməd Füzuli o dövrdə hakim olan ərəb və fars dillərində yazmışdır. Ancaq bizim üçün ən əhəmiyyətli cəhət bundan ibarətdir ki, Məhəmməd Füzuli əsərlərinin çox hissəsini türk dilində, bugünkü Azərbaycan dilində yazmışdır. Bu, Məhəmməd Füzulini ondan əvvəl və sonra yaşamış, yaratmış və xalqımıza məxsus olan bir sıra şairlərdən, alimlərdən fərqləndirən amildir. Biz Füzulinin "Leyli və Məcnun" poemasını, onun türk dilində





Bakıda Məhəmməd Füzulinin 500 illik yubileyi. 08 noyabr 1996

yazdığı divanını bu gün də dilimizdə rahat oxuyuruq, anlayırıq. Beləliklə, Məhəmməd Füzulinin ən böyük xidmətlərindən biri də öz dövrünün və ondan sonrakı dövrün mürəkkəb proseslərinə baxmayaraq, türk dilini, ana dilini yaşatmasından, onu yüksəklərə qaldırmasından ibarətdir.

Məhəmməd Füzulinin yaşadığı dövr çox mürəkkəb, böyük müharibələr dövrü olmuşdur. O, bu müharibələrin şahidi olmuş və müharibənin, düşmənliyin, cürbəcür münaqişələrin insana, cəmiyyətə nə qədər zərbələr vurduğunu öz gözləri ilə görmüşdür. Ona görə də Füzulinin əsərlərinin əsas motivlərindən biri də zorakılığa, zülmə, müharibəyə etirazdır. O, insanları

barışığa, sülhə, dostluğa, mehribanlığa dəvət etmişdir, insanlardakı, cəmiyyətdəki bu keyfiyyətləri öz əsərlərində tərənnüm etmişdir.

Füzuli onun bugünkü nəvə-nəticələri kimi sülhsevər, xeyirxah insan olmuş, xeyirxahlığı, sülhsevərliyi öz əsərlərində daim təbliğ etmişdir.

Məhəmməd Füzuli öz əsərləri ilə ondan sonrakı nəsillərin hamısına böyük təsir göstərmişdir. Əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə şairlər, yazıçılar, alimlər çox şeirlər yazmış, yaratmışlar. Bir çoxları onu təkrar etməyə çalışmışlar. Bu da Məhəmməd Füzuli yaradıcılığının bəşəriyyətə, xalqlarımıza göstərdiyi böyük xidmətlərindən biridir.

Məhəmməd Füzulinin əsərlərindən irəli gələn ideyalar xalqımızın, digər türkdilli xalqların, İslam dünyasına mənsub xalqların mədəniyyətində, ədəbiyyatında yeni-yeni böyük əsərlərin yaranmasına səbəb olmuşdur. Bu gün böyük iftixar hissi ilə demək istəyirəm ki. Azərbaycan xalqının dahi şairi Nizami Gəncəvi ilk dəfə qədim Şərqin məşhur əfsanəsi əsasında özünün ölməz "Leyli və Məcnun" poemasını yaratmışdır. Bu, XII əsrdə olmuşdur. XVI əsrdə Məhəmməd Füzuli həmin əfsanənin əsasında öz "Leyli və Məcnun" poemasını yaratmışdır. Leyli ilə Məcnuna həsr olunmuş ədəbi əsərlər dünyada çoxdur. Orta əsrlərdə yüzlərlə belə əsər yaradılmışdır. Ancaq biz belə hesab edirik ki, Məhəmməd Füzulinin "Leyli və Məcnun" poeması o əfsanənin fəlsəfi mənasını ən yüksək zirvələrə qaldırmışdır.

XX əsrin əvvəlində böyük Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyov Məhəmməd Füzulinin poeması əsasında müsəlman Şərqində ilk opera əsəri – "Leyli və Məcnun" operasını yaratmışdır. Bu da çox səciyyəvidir ki, XII əsrdə Nizami Gəncəvi bu mövzuda ilk poemanı yaratmış, XVI əsrdə Məhəmməd Füzuli "Leyli və Məcnun" poemasını yüksək səviyyələrə qaldırmış, XX əsrin əvvəllərində Üzeyir Hacıbəyov bu poemanın əsasında Azərbaycanın ilk opera əsərini yaratmışdır. 90 ildir ki, "Leyli və Məcnun" operası Azərbaycanın opera səhnəsindən düşmür. Bu opera 90 il müddətində bütün dünyanı dolaşıb. Füzuli yaradıcılığını, Üzeyir Hacıbəyov yaradıcılığını bütün dünyaya nümayiş etdirib, Azərbaycan xalqının şeirini, musiqisini yüksək zirvələrə qaldırıbdır.

Bizim əsrimizdə Azərbaycan yazıçıları, şairləri, bəstəkarları, rəssamları, hey-





Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyev və Məhəmməd Füzulinin 500 illik yubiley tədbirinin iştirakçıları Füzuli heykəlinin önündə. 08 noyabr 1996



Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyev və Məhəmməd Füzulinin 500 illik yubiley tədbirinin iştirakçıları Füzuli heykəlinin önündə. 08 noyabr 1996

kəltəraşları Məhəmməd Füzulinin əsərlərinə həsr olunmuş, onun əsərlərindən irəli gələn ideyalardan istifadə edərək gözəl əsərlər yaratmışlar. Qara Qarayevin "Leyli və Məcnun" simfoniyası, Cahangir Cahangirovun "Füzuli" kantatası və digər əsərlər buna misal ola bilər.

Beləliklə, Məhəmməd Füzuli öz yaradıcılığı ilə, öz əsərləri ilə indiyədək yaşamış, indi də yaşayan və bizim hamımıza ilham verən, mənəvi qida və ruh verən əsərləri ilə sonrakı nəsillərin şair, yazıçı, bəstəkar, rəssam və heykəltəraşlarının yaradıcılığı üçün gözəl mövzular, ideyalar vermiş, onlara ilham vermiş, onların öz sənətlərinin yüksək zirvələrinə qalxmasına kömək etmişdir. Bütün bunlar Məhəmməd Füzulinin yaradıcılığının və onun sonrakı nəsillərə qoyduğu irsin məzmunu və mənasıdır, onların yüksək qiymətidir.



O dövrdən 500 il keçibdir. Bu əsrlər, bu illər ərzində Məhəmməd Füzuli daim yaşayıbdır. Təsadüfi deyildir ki, onun əsərlərinin böyük əksəriyyəti bu günədək gəlib çatıbdır. Ancaq Məhəmməd Füzuli elmi cəhətdən, nəzəri cəhətdən indiki kimi öyrənilməyib, təhlil və tədqiq olunmayıb, təbliğ edilməyibdir.

Bu 500 il ərzində ilk dəfədir ki, Məhəmməd Füzulinin yubileyi, onun xatirəsi belə yüksək səviyyədə, belə geniş miqyasda keçirilir, yad olunur. Bu, bizim müasir Azərbaycanın, indiki nəslin, Azərbaycan Respublikasının, Azərbaycan xalqının öz mədəniyyətinə, öz tarixinə, öz dahi şəxsiyyətlərinə göstərdiyi hörmət və ehtiramdır. Lakin bu, Məhəmməd Füzuli yaradıcılığının tədqiq və təbliğ olunmasının başlanğıcıdır. Hesab edirəm ki, Məhəmməd Füzuli yaradıcılığı, onun irsi elə bir dəryadır ki, onun dərinliklərinə nüfuz etmək üçün, o dərin qatlardakı fikirləri, tövsiyələri mənimsəmək üçün, öyrənmək üçün hələ çox işlər görülməlidir. Güman edirəm ki, 500 illik yubiley tədbirləri Məhəmməd Füzuli yaradıcılığının elmi-nəzəri cəhətdən gələcəkdə də tədqiq, təbliğ olunması üçün böyük yollar açır.

Əmin olduğumu bildirmək istəyirəm ki, gələcək nəsillər Füzulinin 500 illik yubiley mərasimlərini unutmayacaq və bu təşəbbüsü daha da yüksəklərə qaldıracaqlar.

Məhəmməd Füzulinin yaradıcılığına, onun əsərlərinə xalqımızda hörmət və minnətdarlıq hissi həmişə olmuşdur. Ancaq Məhəmməd Füzulinin əsərlərini və yaradıcılığını biz keçmişdə heç vaxt indiki kimi dərk edə bilməmişdik. Bunlar da Azərbaycan xalqının artıq milli azadlığa, dövlət müstəqilliyinə nail olması ilə əlaqədardır. Biz indi öz müstəqil dövlətimizdə, müstəqil ölkəmizdə öz tariximizi, öz milli-mənəvi dəyərlərimizi, ənənələrimizi sərbəst, daha doğru, daha düzgün qiymətləndirə bilirik və onları heç nədən çəkinmədən, qorxmadan təbliğ edə bilirik.

Biz Məhəmməd Füzuli yubileyini xalqımızın, respublikamızın həyatında ağır bir mərhələdə keçiririk. Bildiyiniz kimi, səkkiz il bundan öncə Azərbaycan xalqına qarşı, Azərbaycan Respublikasına qarşı Ermənistan tərəfindən hərbi təcavüz edilmişdir. Bu hərbi təcavüz nəticəsində Azərbaycan ərazisinin bir qismi, 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən

işğal olunmuşdur, zəbt edilmiş torpaqlardan bir milyondan artıq soydaşımız didərgin düşmüş, qaçqın düşmüş, qaçqın vəziyyətində çadırlarda yaşayır. Azərbaycanın ərazi bütövlüyü pozulmuş, onun milli dövlətçiliyinə, ərazi bütövlüyünə böyük zərbələr vurulmuşdur.

Bununla yanaşı, Azərbaycan öz dövlət müstəqilliyini əldə etmək ərəfəsində və dövlət müstəqilliyinə nail olduqdan sonra böyük ictimai-siyasi, sosial-iqtisadi proseslər dövrünü yaşayır. Bu dövrdə Azərbaycanın həyatında çox təhlükəli, Azərbaycanın dövlətçiliyi üçün, milli mədəniyyəti üçün çox qorxulu hadisələr də baş vermişdir. Bütün bunlar Azərbaycanın ictimai-siyasi və mədəni həyatını zəhərləmiş, pozmuş, böyük çətinliklər yaratmışdır. Bunlarla yanaşı, Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra ölkədə demokratik, hüquqi, dünyəvi dövlət qurmuşdur. Respublikamızda demokratik proseslər inkişaf edir, iqtisadi islahatlar həyata keçirilir. Biz yeni dövlət qururuq, yeni demokratik cəmiyyət formalaşdırırıq, yeni iqtisadiyyat formaları yaradırıq. Bunların hamısı çox mürəkkəb, eyni zamanda çətin proseslərdir.

Belə bir zamanda, belə bir dövrdə Məhəmməd Füzuli yaradıcılığı bizə ruh verir, ilham verir. Məhəmməd Füzuli yaradıcılığı xalqımızda həmişə milli mənlik duyğularını, hisslərini tərbiyə etmiş və xalqımızı öz milli mənliyini dərk etmək, qorumaq ruhunda tərbiyə etmişdir. Məhəmməd Füzuli yaradıcılığı xalqımızın milli azadlıq uğrunda mübarizəsində, yeni dövlət quruculuğu prosesində, ölkəmizdə demokratik, hüquqi dövlət qurulması prosesində bizə kömək edən ən böyük amillərdən biridir. Biz fəxr edirik ki, xalqımız belə qədim, zəngin mədəniyyətə malikdir. Biz fəxr edirik ki, xalqımız öz böyük şəxsiyyətləri vasitəsilə Azərbaycanın milli-mənəvi dəyərlərini daim qoruyub saxlamış, zənginləşdirmiş və bu gün ümumbəşəri dəyərlərin bir hissəsinə çevirmişdir. Biz fəxr edirik ki, Məhəmməd Füzuli kimi dahi şairimiz var, böyük alimimiz var, böyük filosofumuz var.

Şübhə yoxdur ki, Məhəmməd Füzulinin 500 illik yubiley mərasimləri xalqımızın mənəvi həyatını daha da zənginləşdirir, xalqımıza daha böyük ruh verir, xalqımızı vətənpərvərlik, Vətənə sədaqət, torpağa sədaqət ruhunda tərbiyələndirir və Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa etmək üçün, işğal olunmuş torpaqları azad etmək üçün, Azərbaycan Respublikasını yüksəklərə qaldırmaq üçün bizim hamımızı səfərbər edir. Biz bu gün də, gələcəkdə də öz həyatımızda, öz işimizdə Məhəmməd Füzulinin yaratdığı mənəvi dəyərlərdən istifadə edərək xalqımızı xoşbəxt gələcəyə aparacağıq.

Mən əminəm ki, bu yubiley şənlikləri, bu böyük bayram xalqımızı daha da birləşdirəcək, daha da yekdil edəcəkdir. Məhəmməd Füzuli insanları dostluğa, mehribanlığa dəvət edibdir. Eşqi, məhəbbəti, sevgini vəsf edərkən, insanlarda saf mənəviyyatı, ülvi duyğuları vəsf edərkən Məhəmməd Füzuli insanları birliyə, həmrəyliyə, dostluğa, mehribanlığa çağırıbdır. Bu gün Məhəmməd Füzulinin bu fikirləri bizim üçün hər şeydən vacibdir. Biz ölkəmizi bu ağır mərhələdən keçirmək üçün, ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün, işğal olunmuş torpaqlarımızı azad etmək üçün, ölkəmizdə demokratik prosesləri inkişaf etdirmək üçün, ölkəmizin dünya birliyində özünə layiq yer tutması üçün, onu daha da irəliyə aparmaq üçün daxilimizdə olan birliyi, həmrəyliyi möhkəmlətməliyik.

Mən məmnuniyyət hissi ilə deyə bilərəm ki, son illər Azərbaycan dövlətinin qüdrətinin möhkəmlənməsi illəri olmuşdur. Son illər Azərbaycanın daxilində ictimai-siyasi vəziyyətin sabitləşməsi illəri olmuşdur. Son illər insanların bir-birinə münasibətlərinin daha da mehribanlaşması, daha da inkişaf etməsi illəri olmuşdur. Biz bunları öz nailiyyətlərimiz kimi qiymətləndiririk. Amma eyni zamanda respublikanın gələcəyi üçün bunları ilk addımlarımız hesab edirik və ümidvaram ki, Məhəmməd Füzuli yaradıcılığı, onun nəsihətləri, onun bizə bəxş etdiyi töhfələr və irs bizə bu yolda uğurla getməyə kömək edəcəkdir.

Eşq olsun şeirə, eşq olsun Füzuliyə, eşq olsun Füzuli yaradıcılığına! Yaşasın elm, mədəniyyət, yaşasın şeir!

Yaşasın müstəqil Azərbaycan Respublikası!

*08 noyabr 1996-cı il*

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dahi şair və mütəfəkkir Məhəmməd Füzulinin 500 illik yubileyi şərəfinə təşkil olunmuş rəsmi qəbulda nitqi[1]

Hörmətli xanımlar və cənablar, hörmətli qonaqlar, əziz dostlar!

Məhəmməd Füzulinin 500 illik yubileyinə həsr olunmuş mərasimlər sona çatır. Üç ildir ki, Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar müxtəlif tədbirlər keçirilir. Hesab edirəm ki, bu müddətdə Məhəmməd Füzulinin yaradıcılığı, onun irsi geniş təbliğ olunubdur və onun böyük şəxsiyyətinə, yaradıcılığına, irsinə xalqımızın, millətimizin hörmət və ehtiramını bildirə bilmişik.

Bu gün yubiley mərasimlərinin son günüdür və çox böyük görüşlərlə və Məhəmməd Füzuliyə həsr olunmuş sözlərlə, bədii ifadələrlə, musiqi ilə, şeirlə dolu bir gündür. Qürur hissi ilə qeyd etmək istəyirəm ki, müstəqil Azərbaycan Respublikası və onun dövləti öz böyük oğlunun – böyük Füzulinin xatirəsini bu günün imkanları çərçivəsində qeyd etmək üçün əlindən gələni etmişdir. Eyni zamanda onu da demək yerinə düşərdi ki, 500 il ərzində – Füzulinin sağlığında da, o, həyatdan gedəndən sonra da Füzuli yaradıcılığı, Füzuli şəxsiyyəti haqqında bu qədər yüksək səviyyəli tədbirlər keçirilməmişdir. Füzulinin 400 illiyi də olub. 450 illiyi bizim nəslin vaxtında olub, indi 500 illik yubileyini başa çatdırırıq. Biz fəxr edə bilərik ki, bu 500 illik yubileydə Füzulini onun yaradıcılığının, şəxsiyyətinin layiq olduğu səviyyədə çatdırdıq.

Şübhəsiz ki, Füzuli elə bir şəxsiyyət, elə bir dahidir ki, onun haqqında, xatirəsi ilə əlaqədar nə qədər iş görülsə də, Füzulinin öz səviyyəsinə çatmaq mümkün olmayacaq. Ancaq biz buna çalışmışıq, bu yolla getmişik və şübhə yoxdur ki, bu yolla getməkdə davam edəcəyik.

Füzulinin yubileyini keçirmək üçün bu üç il müddətində Azərbaycanın dövlət orqanları, ictimai və mədəniyyət təşkilatları olduqca çox iş görüblər. Füzulinin 500 illik yubileyi üzrə dövlət komissiyasının üzvləri çox iş görüblər. Füzulinin 500 illik yubileyinin hazırlanmasında, üç il müddətində keçirilməsində və bu son günlərdə yubiley mərasimlərinin keçirilməsində xidmət göstərmiş, iştirak etmiş dövlət orqanlarına, ictimai təşkilatlara, mədəniyyət təşkilatlarına, ayrı-ayrı elm, mədəniyyət, incəsənət xadimlərinə öz təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Məhəmməd Füzulinin 500 illik yubileyi bir çox dost ölkələrin nümayəndələrini Azərbaycana topladı. Biz Azərbaycanda böyük Nizaminin 800 illik yubileyini də qeyd etmişik. Nizaminin 840 illik və 850 illik yubileyləri də qeyd olunubdur. Böyük Azərbaycan şairi Nəsiminin 600 illik yubileyini qeyd etmişik. Deyə bilərəm ki, Məhəmməd Füzulinin 500 illik yubileyi Azərbaycanın böyük şəxsiyyətlərini indiyə qədər keçirilmiş bütün yubiley mərasimlərindən öz məzmununa, mənasına görə və tədbirlərin əhatəliliyinə görə hamısından yüksəyə qaldırmışdır.

Bunun səbəblərindən biri də odur ki, Azərbaycan xalqı bu yubileyi öz dövlət müstəqilliyini, milli azadlığını əldə edəndən sonra keçirir. Biz müstəqil ölkəyik, müstəqil dövlətik, öz tariximizə, mədəniyyətimizə, milli mənəviyyatımıza istədiyimiz münasibəti, layiqli münasibət göstərmək imkanına malikik və bu haqqı qazanmışıq. Ona görə də Məhəmməd Füzulinin 500 illik yubileyinə gələn nümayəndə heyətlərinin, qonaqların da sayı keçmiş dövrlərdə ölkəmizə gələn qonaqların, nümayəndə heyətlərinin sayından artıq olmuşdur. Şəxsən mən çox məmnunam ki, bir neçə qitəni əhatə edən insanlar Füzulinin 500 illik yubileyi ilə əlaqədar bu gün Azərbaycan torpağında bir araya gəlmişlər. Amerika Birləşmiş Ştatlarından, Amerika qitəsindən, Avropadan, Asiyadan, Ərəbistandan, Afrikadan gələn qonaqlar bizim bu yubiley mərasimlərini həddindən artıq mənalı-məzmunlu etmiş və ona böyük beynəlxalq xarakter vermişdir. Bunlara görə, güman edirəm, beynəlxalq YUNESKO təşkilatı da Füzuli yubileyinin böyük beynəlxalq miqyas almasını da bu günlərdə hiss etdi.

Füzulinin 500 illik yubileyinə gəlmiş bütün qonaqlara təşəkkürümü bildirirəm. Azərbaycana gəlmiş hörmətli qonaqlarımız bu günlərdə keçirilən elmi simpoziumda, yazıçıların qurultayında. TÜRKSOY-un toplantısında və nəhayət, bu gün yubiley mərasiminin zirvə tədbirində Füzuli haqqında, onun yaradıcılığı, irsi haqqında, Azərbaycan xalqı, müstəqil

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 8-ci kitab. Bakı: Azərnəşr, 1998, s. 31–33

Azərbaycan Respublikası haqqında çox xoş sözlər dedilər. Hörmətli qonaqlar, bütün bu sözlərə, xoş arzulara görə, dostluq münasibətinə görə, bu günlər Məhəmməd Füzulinin əziz xatirəsinə həsr olunmuş yubileyi bizimlə bir yerdə keçirdiyinizə görə sizə dərin minnətdarlığımı və böyük təşəkkürümü bildirirəm.

Hesab edirəm ki, Füzulinin 500 illiyi ilə əlaqədar keçirilmiş tədbirlər, yaranmış əhval-ruhiyyə Füzulinin yaradıcılığını daha da dərindən öyrənmək və təbliğ etmək üçün bizə çox mühüm imkanlar yaradıbdır. İnanıram ki, Füzuli yaradıcılığına, onun irsinə olan hörmət və ehtiram bundan sonra daha da artacaqdır.

Bu, təkcə Füzuliyə görə, Füzulinin yaradıcılığına görə deyil, bizim bugünkü günümüz, sabahımız üçün lazımdır. Füzulini oxuyaraq, ona sitayiş edərək, Füzulinin xatirəsi qarşısında baş əyərək, biz eyni zamanda dostluğa, mehribanlığa, milli həmrəyliyə, bərabərliyə sadiq olmağımızı nümayiş etdiririk. Əmin ola bilərsiniz ki, Azərbaycan xalqı dostluğa, əməkdaşlığa bundan sonra da sadiq olacaqdır. Əmin edirəm ki, müstəqil, demokratik Azərbaycan Respublikasında birlik, həmrəylik, dostluq, mehribanlıq üçün bundan sonra da gərəkli addımlar atılacaqdır. Bunların hamısını bizə böyük Füzuli vəsiyyət edibdir. Bunlar hamısı Füzuli yubileyindən çıxardığımız nəticələrdir.

Mən bu el bayramı, dostluq bayramı, şeir, mədəniyyət bayramı münasibətilə sizi bir daha təbrik edir, hamınıza cansağlığı, səadət, bütün işlərinizdə uğurlar arzulayıram. Füzuli yaradıcılığı, Füzuli irsi şərəfinə, şeirin, mədəniyyətin şərəfinə, insanlığın, mənəviyyatın şərəfinə badə qaldırmağınızı xahiş edirəm. Hörmətli dostlar, əziz qonaqlar, sizin şərəfinizə!

***08 noyabr 1996-cı il***



# MƏQALƏLƏR



**Nizami Cəfərov**
*Azərbaycanda Atatürk Mərkəzinin direktoru, akademik, millət vəkili*

# Heydər Əliyev və Məhəmməd Füzuli

*("Heydər Əliyev və Türk dünyası" elmi-publisistik əsərindən parça)*

Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyevin ümumtürk mədəni irsi barədəki çoxsahəli təsəvvür, təhlil və mülahizələri böyük bir dövlət xadiminin ictimai-siyasi maraq dairəsi üçün təbii sayılacaq hüdudları aşaraq, cəsarətlə demək olar ki, həmin irsin ümumbəşəri miqyasda tarixi-fəlsəfi dəyərləndirilməsi səviyyəsinə yüksəlməklə keyfiyyətcə yeni missiya müəyyən etmişdir. Hələ sovet hakimiyyəti illərində Azərbaycanın Nizami, Nəsimi, Füzuli, Vaqif, Mirzə Fətəli, Aşıq Ələsgər, Cəlil Məmmədquluzadə, Sabir, Hüseyn Cavid, Üzeyir Hacıbəyli, Cəfər Cabbarlı, Səməd Vurğun kimi onlarla dahi şəxsiyyətinin həm Azərbaycanda, həm Sovetlər Birliyində, həm də dünyada tanınması məqsədilə bütün imkanları səfərbər edən Heydər Əliyev müstəqillik dövründə bu imkanları daha da genişləndirməyin mükəmməl təcrübəsini təqdim etməyə nail oldu. Və heç də təsadüfi deyildi ki, Ümummilli Lider milli-mədəni irsin təbliğinə ölkənin düşdüyü acınacaqlı vəziyyətdən çıxarılması uğrunda aparılan gərgin mübarizənin çox mühüm tərkib hissələrindən biri kimi baxırdı. Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasının 1 avqust 1994-cü il tarixli iclasında sədr Heydər Əliyev deyirdi: "İndi iqtisadi vəziyyət, yaşayışımız, bir sözlə, həyat nə qədər çətin olsa da, biz Məhəmməd Füzulinin yubileyini yüksək səviyyədə keçirməliyik. ...Həyatımızın bu keçid dövründə, ağır dövründə, mənəviyyatımızın, mədəniyyətimizin müəyyən dərəcədə sıxıntı keçirdiyi dövrdə belə bir yubileyin təşkili həyatımızı, bəlkə də, zənginləşdirəcəkdir". Ümummilli Lider, əlbəttə, Füzulinin yubileyinin mövcud çətin şəraitə baxmayaraq, yüksək səviyyədə keçirilməsinə bir neçə baxımdan önəm verirdi ki, onlardan biri də Azərbaycan xalqının dərin və zəngin tarixi köklərə malik olduğunu inkar edən düşmən qüvvələri susdurmaqdan ibarət idi: "Biz daim çalışmalıyıq ki, Azərbaycan xalqını dünyaya daha yaxından tanıdaq. Bilsinlər ki, xalqımızın çoxəsrlik, zəngin tarixi, mədəniyyəti var. Bilsinlər ki, Azərbaycanın bugünkü mədəniyyəti dahi şəxsiyyətlərimizin yaradıcılığı və əsrlərdən-əsrlərə keçən mədəniyyətimizə, elmimizə, mənəviyyatımıza əsaslanır". Dövlət müstəqilliyi əldə edildikdən sonra Azərbaycan mədəniyyətinin dünyada tanıdılması işi yeni məna-məzmun kəsb etdi ki, müasir Azərbaycan dövlətçiliyinin qurucusu həmin məsələyə xüsusi diqqət verirdi:

"UNESCO Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar qərar qəbul etmişdir. Bildiyimiz kimi, UNESCO hər il bu qəbildən olan qərarlar qəbul edir. Lakin bu imkandan necə istifadə etmək, şübhəsiz ki, hər bir ölkənin, xalqın özündən asılıdır... Türkdilli ölkələrdə Füzulinin yubileyinin keçirilməsi də bu tədbirlər sırasına daxildir. ...Ərəblər və farslar Füzulini öz şairləri sayırlar. Türkdilli xalqlar isə hesab edirlər ki, o türkdür. Biz də deyirik ki, Füzuli türk, azərbaycanlıdır. Eyni zamanda bunu türkmən, özbək, qazax, Türkiyədə yaşayan türklər, İraq türkmənləri də deyə bilərlər. Qoy Füzuli hamıya məxsus olsun, tarixə bəşəri bir şəxsiyyət kimi düşsün. Eyni zamanda biz bu yubiley tədbirlərindən istifadə edərək dünyaya bir daha bildirməliyik ki, Füzuli azərbaycanlıdır..."

Əlbəttə, sovetlər dövründə türk xalqlarının nəinki ictimai-siyasi, hətta ədəbi-mədəni əlaqələrini belə hər hansı şəkildə inkişaf etdirmək cəhdlərinə Moskva "pantürkizm" kimi baxdığına görə Türk dünyasının ortaq mənəvi dəyərləri barədə "ucadan" danışmaq mümkün deyildi. Və bu, olduqca anti-tarixi (və eyni zamanda anti-metodoloji!) təsəvvürlərin yaranmasına rəvac vermişdi ki, onlardan ən acınacaqlısı həmin ortaq dəyərləri türk xalqları arasında "bölüşdürmək", hər bir ədəbi şəxsiyyət və ya abidəyə rəsmi bir "sahib" elan edib, digərlərini kənarlaşdırmaq idi. Müstəqilliyin mənəvi sahədəki bəhrəsi həm də o oldu ki, ortaq dəyərlərə ortaq miras kimi yanaşılmağa başlandı. Dahi şa-





Səadətdin. Füzulin portreti. 1926






Elmira Şahtaxtinskaya. "Məhəmməd Füzuli 500". 1994

ir-mütəfəkkirin yubileyinin, ilk növbədə, hansı ölkələrdə keçirilməsinin zəruriliyinə gəldikdə, Heydər Əliyev bildirmişdi: "Türkiyədə tədbirlərin keçirilməsi məsələsi məni xüsusi maraqlandırır... Çünki Türkiyədə Füzulini elə Azərbaycandakı qədər tanıyırlar... Füzulinin yubileyinin İranda – Tehranda və Təbrizdə keçirilməsi də çox mühümdür. Orta Asiya dövlətlərində, Qazaxıstanda, Tatarıstanda, Başqırdıstanda da belə tədbirlərin keçirilməsi gərəklidir". 1994-cü ilin noyabr ayının 1-də Türkiyənin Bilkənd Universitetində, 2-sində isə Böyük Millət Məclisində keçirilən Füzuli yubileyləri bütün Türk dünyasında əks-səda verdi. Və H.Əliyev həmin tədbirlərdəki çıxışlarında dahi şairin zəngin irsi barədə mükəmməl analitik təhlil verməklə yanaşı, türk xalqlarının mənəvi birliyinin nümayişi üçün bu irsin nə qədər mötəbər mənbə olduğunu dönə-dönə vurğulamışdı. O, Bilkənd Universitetindəki çıxışında demişdi: "Xalqlarımız çoxəsrlik tarixi ərzində böyük sınaqlardan keçmiş, böyük çətinliklərlə rastlaşmış, öz milliliyini, mənəviyyatını, dilini, dinini yaşatmış, saxlamış və bugünkü xoşbəxt günlərə gətirib çıxarmışlar. Bizim xalqlarımız dünya mədəniyyətinə böyük şəxsiyyətlər bəxş etmiş, dünya sivilizasiyasını elm, mədəniyyət sahəsində dəyərli əsərlərlə zənginləşdirmişlər. Bu sırada, xalqlarımızın böyük şəxsiyyətləri sırasında Məhəmməd Füzulinin xüsusi yeri var". Böyük Millət Məclisindəki çıxışında isə Ümummilli Lider özünün növbəti tarixi sözlərindən birini söyləmişdi: "Füzuli keçmişdə də türkləri birləşdirən bir şəxsiyyət olub. Amma indi, XX əsrdə Türk dünyası parçalanmış olduğu bir halda, Türk dünyasına mənsub ölkələrin, demək olar ki, tam əksəriyyəti (bir Türkiyədən savayı) onların həyatına, tarixinə, adət-ənənələrinə uyğun olmayan rejimlər içərisində yaşayan vaxtda Füzuli bizi yaşadıb bu günlərə gətiribdir. Bu gün biz həm Azərbaycanda, həm Füzulinin doğulduğu yerdə – Kərbəlada, Bağdadda, həm Ankarada, Türkiyədə Füzulinin 500 illiyini qeyd edərkən artıq keçmişdəki kimi parçalanmış vəziyyətdə deyilik. İndi böyük Türkiyə Cümhuriyyətinin yanında digər türk cümhuriyyətləri də vardır". 1996-cı ilin 23 iyulunda Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasının növbəti iclası keçirilir. Və həmin iclasda komissiya sədrinin müavini Elçin Əfəndiyev 1994-cü ilin avqust ayından bəri görülən işlər barədə məlumat verdikdən sonra Heydər Əliyev yekun sözü söyləyərək deyir: "Füzulini ən əvvəl öz ölkəmizdə daim təbliğ etmək lazımdır. Bizim xalqımız, xüsusən gənc nəsil, yeni həyata qədəm qoyanlar Füzulini nə qədər çox oxusalar, dərk etsələr, onun yaradıcılığı ilə





Nəcəfqulu İsmayılov. Füzulinin portreti. 1958



Oqtay Sadıqzadə. Füzulinin portreti. 1958



yaxından tanış olsalar, Füzuli şəxsiyyətinin böyüklüyünü hiss etsələr, adamlarımız bir o qədər saf mənəviyyat istiqamətində yaşayacaq və həyatlarını da bu ruhda quracaqlar. Çünki Füzulinin həyatı da, bütün yaradıcılığı da həm yüksək mənəviyyat, həm yüksək fəlsəfədir, həm də insanlara mənəvi, estetik qida verən böyük bir mənbədir". Bunları nəzərə alan böyük dövlət xadimi Füzuli kimi dühaların yubileylərini keçirərkən tələsməməyi məsləhət görür. Hər şeydən əvvəl, ona görə ki bu cür yubileylər cəmiyyətin həmin düha haqqındakı təsəvvürlərini daha da genişləndirməli, yanlış qənaətləri aradan qaldırmalı, ictimai-mədəni şüurun, milli-mənəvi təfəkkürün sağlamlaşmasına, inkişafına və klassikanın müasirləşməsinə təkan verməlidir. Digər tərəfdən, Ulu Öndər deyir: "Biz millətimizdən danışarkən deyirik ki, 500 il bundan öncə yaşamış azərbaycanlı Füzuli dünya mədəniyyət xəzinəsinə öz böyük töhfələrini veribdir. Ona görə də biz yubileyi elə keçirməliyik ki, bu tədbir təkcə Azərbaycanda deyil, Türkiyədə də, İranda da, İraqda da, Moskvada da, Dərbənddə də, bir sözlə, hər yerdə böyük iftixar hissi doğursun". Əlbəttə, Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda hələ sovet dövründə çox yubileylər keçirilmiş, Azərbaycan mədəniyyətinin keçmiş Sovetlər Birliyi, eləcə də dünya miqyasında tanıdılmasında kifayət qədər böyük təcrübə qazanılmışdı. Lakin Füzulinin 500 illik yubileyi müstəqillik illərində keçirilən ilk irimiqyaslı yubiley olduğundan dövlət səviyyəsində məsləhətləşmələrə ehtiyac var idi. Tamamilə təbiidir ki, həmin məsləhətləşmələrdə türk dövlətlərinin o qədər zəngin olmayan təcrübələrinə daha çox istinad edilirdi. Və Dövlət Komissiyasının iclasında sədr deyir: "Bilirəm ki, məsələn, keçən il avqust ayının sonunda biz Qırğızıstanın paytaxtı Bişkekə yalnız "Manas" dastanının min illik yubileyinə deyil, həm də türk cümhuriyyətləri dövlət başçılarının Zirvə görüşünə toplaşmışdıq. Xatirimdədir, o vaxt belə bir qərar qəbul olundu ki, türk ölkələri dövlət başçılarının növbəti Zirvə görüşü bu ilin oktyabrında Daşkənddə keçirilsin. Düzdür, görüşün günü müəyyənləşdirilmədi. Özbəkistan Prezidenti cənab İslam Kərimov burada olarkən dedi ki, onlar Əmir Teymurun 670 illiyinə hazırlaşırlar. ...Mən belə başa düşürəm ki, ola bilər, onlar həmin Zirvə görüşünü Əmir Teymurun yubileyi ilə bir vaxta salsınlar. Bişkekdə "Manas"ın yubileyində olduğu kimi". Bu isə o deməkdir ki, ümumtürk mədəni-mənəvi məkanı öz reallığını müstəqilliyin ilk illərindən başlayaraq bütün ciddiliyi, zəruriliyi və qədim dövrlərdən gələn tarixi məntiqi (və təbii metafizikası) ilə diktə etmək-



Əzim Əzimzadə. "Füzuli". 1914



Sadıq Şərifzadə. Füzulinin portreti. 1958

də idi. Artıq Azərbaycan mədəni irsinin dünyada təbliği ümumtürk miqyaslı prosedurlardan keçirdi: "...Füzulinin yubileyinə türkdilli ölkələrdən, şübhəsiz, daha çox nümayəndə gələcəkdir. Bu məsələni də nəzərdən qaçırmaq olmaz. Burada Anar təklif verdi ki, bizdə türkdilli ölkələrin yazıçılarının qurultayı keçirilsin. Mən bu təklifi qəbul edirəm... Belə bir qurultayı Azərbaycanda keçirmək lazımdır. Özü də mütləq... Onu Füzulinin yubileyi ilə eyni vaxta salmaq məqsədəuyğundur. Çünki əgər biz yazıçıların qurultayını keçiririksə, ən böyük yazıçımız, hamı üçün ən böyük yazıçı Füzulidir... Polad Bülbüloğlu burada o vaxt TÜRKSOY məclisinin də keçirilməsini təklif edir. Bəlkə, bu da yaxşı olardı. Amma bir az düşünün, bunların hamısı eyni vaxta düşsə, tədbirlər çox və yorucu olar. Bu barədə düşünmək lazımdır. ...Əgər biz o yazıçılar qurultayını keçiririksə, deməli, biz onu bütün türkdilli ölkələrlə razılaşdırdıqdan sonra keçirməliyik". Geniş müzakirələrdən, müəyyən çətinliklərə baxmayaraq, görülən gərgin hazırlıq işlərindən sonra 1996-cı ilin noyabr ayının 8-də Bakıda Respublika Sarayında Füzulinin 500 illik yubileyi münasibətilə təntənəli gecə keçirildi. Azərbaycan Xalqının Ümummilli Lideri həmin gecədəki nitqində dünyanın bir çox ölkələrindən respublikamıza təşrif buyurmuş nümayəndə heyətlərinə, dövlət xadimlərinə, ictimai xadimlərə, elm və mədəniyyət xadimlərinə təşəkkür və minnətdarlığını ifadə etdikdən sonra bildirdi: "Füzulinin yubileyi təkcə Azərbaycanda yox, dünyanın bir çox ölkələrində təntənəli surətdə keçirilibdir. Türkiyədə – Ankarada, Rusiyada – Moskvada, İraqda – Bağdadda, Kərbəlada, Kərkükdə, İranda – Tehranda, Gürcüstanda, Qazaxıstanda, Özbəkistanda, Dağıstanda – Dərbənddə, Mahaçqalada, Parisdə – UNESCO-nun Baş Qərargahında Məhəmməd Füzulinin 500 illik yubileyi ilə əlaqədar təntənəli mərasimlər keçirilib. Məhəmməd Füzulinin yaradıcılığı, onun irsi geniş təbliğ olunub və bütün dünyaya çatdırılıbdır". Azərbaycan Xalqının Ümummilli Lideri xüsusi olaraq bunları da qeyd etdi: "Türk Dünyası Yazıçılarının III qurultayında Məhəmməd Füzulinin yaradıcılığı və onun 500 illik yubileyi diqqət mərkəzində olmuşdur. Türkdilli dövlətlərin beynəlxalq TÜRKSOY təşkilatının VIII toplantısında Məhəmməd Füzulinin yaradıcılığı, onun irsi diqqət mərkəzində olmuşdur. Bakıda beynəlxalq simpozium keçirilmişdir. ...Məhəmməd Füzuli Azərbaycan xalqının böyük şairi, alimi, filosofu olaraq eyni zamanda bütün türkdilli, türksoylu xalqlara, bütün türk,



islam dünyasına mənsubdur". Heydər Əliyev Füzulini həm Azərbaycan xalqının, həm də ümumən türk-müsəlman xalqlarının dünya ədəbiyyatına, elminə, mədəniyyətinə, ictimai-fəlsəfi fikrinə bəxş etdiyi son dərəcə nəhəng simalardan biri kimi səciyyələndirməkdə tamamilə haqlı idi: "Məhəmməd Füzuli öz yaşadığı dövrdən əvvəlki dövrü geniş təhlil etmiş və həm Şərqin ona qədər yaratdıqlarını, həm də qədim yunan, rum antik ədəbiyyatının, qədim hind ədəbiyyatının nümunələrini öz əsərlərində cəmləyərək yaradıcılığında Şərqin və Qərbin sintezinin nəticəsi olaraq elmin, fəlsəfənin ən yüksək zirvələrinə çatmışdır". Ümumiyyətlə, xalqın milli-mənəvi özünəməxsusluğunun (və özgürlüyünün!) ən mühüm göstəricilərindən biri (bəlkə də, birincisi) olan dil məsələsinə çox həssas yanaşan (və bu həssaslığı bütün məlum siyasi-ideoloji qadağalara baxmayaraq, sovet dövründə də dövlət səviyyəsində nümayiş etdirməkdən çəkinməyən) Heydər Əliyevin öz nitqində Füzulinin tarixi dil missiyası üzərində ayrıca dayanması bir çox mətləblərə işıq salır: "Məhəmməd Füzuli o dövrdə hakim olan ərəb və fars dillərində yazmışdır. Ancaq bizim üçün ən əhəmiyyətli cəhət bundan ibarətdir ki, Məhəmməd Füzuli əsərlərinin çox hissəsini türk dilində, bugünkü Azərbaycan dilində yazmışdır. Bu, Məhəmməd Füzulini ondan əvvəl və sonra yaşamış, yaratmış və xalqımıza məxsus olan bir sıra şairlərdən, alimlərdən fərqləndirən amildir. Biz Füzulinin "Leyli və Məcnun" poemasını, onun türk dilində yazdığı divanını bu gün də dilimizdə rahat oxuyuruq, anlayırıq. Beləliklə, Məhəmməd Füzulinin ən böyük xidmətlərindən biri də öz dövrünün və ondan sonrakı dövrün mürəkkəb proseslərinə baxmayaraq, türk dilini, ana dilini yaşatmasından, onu yüksəklərə qaldırmasından ibarətdir". Əlbəttə, bütün türk xalqlarının ümumi mənəvi sərvəti olan türkcənin orta əsrlərin sonlarından başlayan diferensiasiya prosesində Füzuli dilinin yeri o dərəcədə müstəsnadır ki, sinxron mükəmməlliyi ilə yanaşı, türk dilinin (və dillərinin) həm keçmişi (retrospektivi), həm də gələcəyi (prespektivi) barədəki elmi-metodoloji təsəvvürləri bu baxımdan ona ən yaxın olan Nəvai də daxil olmaqla türkcənin hər bir dil dühasından daha adekvat, daha sistemli şəkildə təqdim edir... Dahi Azərbaycan şairi və mütəfəkkiri Füzulinin 500 illik yubiley təntənələri 1996-cı il noyabr ayının 8-də Bakıda "Gülüstan" sarayında keçirilən rəsmi qəbulla başa çatdı ki, həmin qəbulda H.Əliyev üç il davam edən yubiley təntənələrinin çox



Səttar Bəhlulzadə. "Füzuli". 1969

böyük əhəmiyyətindən bəhs etdikdən sonra öz nitqini belə yekunlaşdırdı: "Əmin ola bilərsiniz ki, Azərbaycan xalqı dostluğa, əməkdaşlığa bundan sonra da sadiq olacaqdır. Əmin edirəm ki, müstəqil, demokratik Azərbaycan Respublikasında birlik, həmrəylik, dostluq, mehribanlıq üçün bundan sonra da gərəkli addımlar atılacaqdır. Bunların hamısını bizə böyük Füzuli vəsiyyət edibdir. Bunlar hamısı Füzuli yubileyindən çıxardığımız nəticələrdir". Heç şübhəsiz, Ümummilli Liderin haqqında bəhs etdiyi nəticələr, ilk növbədə, aşağıdakılardan ibarətdir: 1) hər bir türk xalqı həm ortaq (ümumtürk), həm də öz milli-mədəni irsinə sahib çıxmalı, həmin irsin özünəməxsus zəngin dəyərləri üzərində inkişaf edib yüksəlməlidir; 2) hər bir türk xalqı öz etnik-mənəvi köklərinə, digər türk xalqları ilə qarşılıqlı mədəni əlaqələrə həmişə açıq olmalıdır; 3) hər bir türk xalqının, eləcə də bütövlükdə Türk dünyasının mədəniyyəti ümumdünya mədəniyyətinin üzvi tərkib hissəsidir...





Mikayıl Abdullayev. Füzulinin "Leyli və Məcnun" əsərinə illüstrasiya. 1977



**Teymur Kərimli**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik*

# Heydər Əliyev və klassik irs[1]

*(kitabdan parça)*

Ulu Öndər böyük Azərbaycan şairi Məhəmməd Füzulinin 1994-cü ildə keçirilmiş 500 illik yubileyinə hazırlıq komissiyasının iclasında Suriya səfərinin təfərrüatını, Nəsiminin məzarını necə aşkara çıxardığını xatırlayaraq demişdi: "Mən 70-ci illərdə Suriyada olarkən Nəsimnin qəbrini ziyarət etmək üçün xüsusi olaraq Hələb şəhərinə getmişdim. Mənim Hələbə səfərimin təşkili barədə Suriya prezidenti Hafiz Əsədin xüsusi göstərişi var idi. Hələb şəhərinin başçıları axşam mənə bildirdilər ki, səhər Nəsiminin qəbrini ziyarət edəcəyəm. Ertəsi gün üç-dörd saat gözləməli oldum, çünki qəbrin yerini bilmirdilər. Nəhayət, onun yerini bilən bir nəfər tapdılar. Yəqin siz də bilirsiniz, Nəsiminin məzarı ümumi qəbiristandadır. Nəsiminin törəmələri də orada dəfn olunmuşdur. Qəbirüstü abidə və s. yoxdur, orada bu, adət deyil. Ancaq qəbir çox yaxşı vəziyyətdə idi, ona qulluq edən adam da var idi."

Heydər Əliyevin bu sözləri maraqlı bir nüans doğurur ki, onu burada qeyd etməyə bilmərik. Məsələ burasındadır ki, istər Nəsiminin, istərsə də Füzulinin qərib məzarları, onlara yiyəlik eləyən, sahib çıxan tapılmadığı vaxtlarda müəyyən qədər başqa statusda, başqa vəziyyətdə olmuş, sonra isə məhz Heydər Əliyevin yüksək səviyyədə göstərdiyi maraq nəticəsində daha ali statusa keçirilmişlər.

[1] Teymur Kərimli. Heydər Əliyev və klassik irs. Bakı, 2023. "Elm və təhsil"



1994-cü ildə Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi ərəfəsində biz İraqa gedərkən Kərbəlada artıq şairin dəfn olunduğu məzar sökülərək yerində yol salınmışdı və Azərbaycan ziyalılarının da məzarı Bakıya köçürmək barədə qaldırdıqları məsələ məhz bu problemlə bağlı idi. Füzulinin 500 illik yubileyini keçirən dövlət komissiyasının iclasındakı çıxışında Heydər Əliyev bu ağrılı problemi də diqqətdən qaçırmayaraq öz münasibətini bildirmişdi: "Hələ 70-ci illərdə Füzulinin qəbrinin Bakıya köçürülmək məsələsi çox geniş müzakirə edilirdi... O zaman belə bir məlumat aldıq ki, Kərbəlanın baş planına əsasən yol çəkilir və həmin yol Füzulinin qəbri olan yerdən keçdiyinə görə guya şairin cənazəsinin qalıqlarını hansısa məscidə aparmışlar. Adətən, belə hallarda qəbri başqa yerə köçürürlər. Lakin həmin məlumat məni çox narahat etdi, çünki bu, Füzuliyə qarşı çox böyük hörmətsizlik olardı. Şübhəsiz ki, bu halda onun cənazəsinin qalıqlarını Bakıya gətirib ən görkəmli yerdə dəfn edərək şairin məqbərəsini yaratmağa mənəvi haqqımız olardı. Lakin bilirsiniz ki, bundan bir il sonra mən Azərbaycandan getdim və işlərin sonrakı gedişindən xəbərim olmadı. Ancaq indi öyrəndim ki, Füzulinin qəbrini başqa yerə köçürmüşlər."

SSRİ kimi nəhəng bir imperiyanın aparıcı simalarından biri kimi, təbii ki, Heydər Əliyevin nəinki klassik Azərbaycan ədəbiyyatına, hətta Azərbaycanın özünə belə ayırmağa vaxtı çox məhdud idi. Ancaq onun quruca adı da bəs etmişdi ki, İraq rəhbərləri Füzulinin qəbrini köçürərkən Azərbaycan şairinə lazımi hörmət və ehtiram göstərsinlər və onu uzun müddət xidmət göstərdiyi İmam Hüseyn türbəsinin kitabxanasının girişində torpağa tapşırsınlar. Görənlər bilirlər ki, Füzulinin qəbri – adı çəkilən kitabxanaya girərkən, birinci mərtəbədə sağ əldəki divarın üzərində bəzəkli kaşı ilə işlənmiş bir lövhədən ibarətdir və həmin lövhənin üzərində şairin adı, doğum və ölüm illəri qeyd edilmişdir. Məzarın üzərində ənənəvi başdaşı yoxdur və bu nə qədər mistik səslənsə də, sanki bununla şeirin peyğəmbəri Məhəmməd Füzulinin öz vəsiyyətini yerinə yetirmişlər. Həmin vəsiyyət isə böyük şairin aşağıdakı beytlərində öz əksini tapmışdır:

Ucaldın qəbrim, ey bidərdlər,
səngi-məlamətdən,
Ki məlum ola dərd əhlinə qəbrim
ol əlamətdən.

Məzarım üzrə qoymun mil,
əgər kuyində can versəm,
Qoyun bir sayə düşsün qəbrimə
ol sərvqamətdən.



Mikayıl Abdullayev. “Füzuli”. 1984





Mikayıl Abdullayev. “Məhəmməd Füzuli”. 1994

Füzulişünaslar bilirlər ki, son beytdəki "sərvqamət" obrazı məcazi məna ilə yanaşı, həm də İmam Hüseyn türbəsinin üzərində ucalan minarəyə işarədir və Füzuli bununla, həmin türbəyə yaxın bir yerdə dəfn olunmasını vəsiyyət etmişdi. Ancaq ilk qəbrində, təbii ki, mil, yəni başdaşı olmuşdu; köçürüləndən sonra isə başdaşının olmaması, İmam Hüseyn aşiqi Füzuli vəsiyyətinin olduğu kimi yerinə yetirilməsi ilə nəticələnmişdi.

Onu da qeyd edim ki, bu yaxınlarda Kərbəlaya ziyarətə getmiş bir əməkdaşımızdan xahiş etmişdim ki, Füzulinin adı çəkilən məzarını yoluxsun və şəkil çəksin. Nə yazıq ki, artıq dediyimiz yerdə təsvir etdiyimiz kaşı lövhə yoxdur. Bu məlumatı alarkən çox təsirləndim və dahi şairin doğulduğu yer və ictimai mühit haqqında dediyi bu peğəmbəranə sözlər yadıma düşdü:

"...Doğulduğum və yaşadığım yer İraqi-Ərəbdir ki, sultanların kölgəsindən uzaq və sakinlərinin şüursuzluğu üzündən xərabə qalmış bir ölkədir".

Görünür, aradan 500 ildən artıq bir vaxt keçsə də, hələ də İraqi-Ərəb sakinlərinin şüursuzluğu aradan qalxmayıb, yoxsa Azərbaycan nümayəndə heyəti üçün şou düzəldib sonra dahi şairin xatirəsinə hörmətsizliklə həmin lövhəni söküb atmazdılar...

Ancaq olsun! Ərəblərin qiymət verə bilmədiyi dahi mütəfəkkir Məhəmməd Füzulinin məzarına bu gün təkcə Kərbəladakı sərv qamətli minarənin sayəsi deyil, eyni zamanda, Azərbaycanın müxtəlif yerlərində vüqarla ucalan sərv qamətli Heydər Əliyev heykəllərindən bir sayə, qayğıkeş bir kölgə düşməkdədir. Deməli, Ulu Öndərin ruhu bu gün də Füzulini və başqa klassiklərimizi öz himayəsi, sayəsi altında saxlamaqdadır.

1993-cü ildə – Nəsimi yubileyinin keçirilməsindən 20 il sonra, Azərbaycan Elmlər Akademiyasının ziyalıları ilə görüşündə Heydər Əliyev bu tədbirin istər o dövr üçün, istərsə də mədəni inkişafımızın sonrakı dövrləri üçün böyük əhəmiyyətini bir daha vurğulayaraq demişdi:

"Yenə də qeyd edirəm ki, tariximiz çox zəngindir və biz bunu vaxtaşırı xalqa çatdırmalıyıq. Xatirinizdədirmi, Nəsiminin 600 illik yubileyini qeyd etdiyimiz zaman bu, dünyada nə qədər əks-səda doğurdu, Azərbaycanı nə qədər tanıtdı! Nəhayət, 600 ildən sonra biz Nəsiminin Hələb şəhərindəki məzarını tapdıq. İndi onun məzarı oraya gedən adamlar üçün bir ziyarətgahdır.

Məhz Azərbaycan xalqına mənsub olan Nəsimi kimi nadir bir şəxsiyyəti dünya ictimaiyyətinə, elminə, dünya mədəniyyətinə tanıtmaq, şübhəsiz ki, xalqımızın hörmətini qaldırmaq deməkdir. Mən təkcə şairlər haqda danışmaq istəmirəm. Nəsimi də yalnız şair deyil, həm də alim, filosofdur."

Yeri gəlmişkən qeyd edək ki, klassik Azərbaycan ədəbiyyatına, xüsusən onun ən böyük və faci nümayəndələrindən biri olan İmadəddin Nəsiminin həyat və yaradıcılığının yüksək səviyyədə öyrənilməsinə və təbliğinə bu cür sevgi, saygı və qaygı Heydər Əliyev məktəbinin ən böyük yetirməsi olan, Heydər Əliyevin istər daxili, istərsə də xarici siyasət kursunun davamçısı və inkişaf etdirəni, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də yüksək səviyyədə həyata keçirilməkdədir. 2008-ci ilin noyabr ayında Hələb şəhərində Nəsimi yaradıcılığına həsr edilmiş Beynəlxalq elmi konfransın keçirilməsi bu sevginin və qaygının ən bariz təzahürüdür.

Bu konfransın faydalı cəhətlərindən biri də o oldu ki, Suriyada daha çox din uğrunda şəhid kimi tanınan Nəsimi, Azərbaycan alimlərinin elmi məruzələrindən sonra həm də böyük bir şair, söz sənətkarı kimi ərəb elmi dairələrinə tanıdıldı, onun yaradıcılığı, poetik irsində özünə yer tapan yüksək humanist fikirlərlə tanış olmaq arzusu ədəbi dairələrdə baş qaldırdı. Nəsiminin bir sənətkar və filosof kimi insana bəslədiyi sevgi duyğuları, kamil insan tərbiyə etmək arzuları, şairin öz əsərlərinin örnəyində əyani olaraq dinləyicilərin nəzər-diqqətinə çatdırıldı. Qeyd edildi ki, Nəsiminin humanizmi, insan sevgisi bir çox sufi şairlərində olduğu kimi mücərrəd, mistik xarakter daşımayıb, konkret obyektə – kamil insana yönəlmişdir və böyük şair istər zamandaşlarını, istərsə də özündən sonra gələn nəsilləri bədii sözün qüdrəti ilə məhz bu ruhda tərbiyə etmək istəyir və bununla da özündən öncə yaşayıb yaratmış böyük humanist şair və filosofların mütərəqqi ənənələrini davam və inkişaf etdirir. "Mərhəba, insani-kamil, canımın cananəsi; aləmin cismi sədəfdir, sənmisən dürdanəsi?!" – deyən şair antroposentrist fikirlərini bu cür bədii örnəklərin vasitəsi ilə öz oxucularına çatdırmağa nail olmuşdur.

Hələb konfransının bir əlamətdar cəhəti də, Nəsiminin 640 illik yubileyi ərəfəsində keçirilməsi idi. Bu, bir növ, yubiley qabağı elmi qüvvələrin sınağa çəkilməsi, Nəsimi irsi üzərində tədqiqatların səviyyəsinin və perspektivlərinin müəyyənləşməsi oldu. Məlum oldu ki, böyük humanist şairin həyat və yaradıcılığının öyrənilməsi, təbliği və nəşri problemlərinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdə narahatlıq doğurması heç də əsassız deyilmiş. Doğrudur, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata



Kamil Xanlarov. "Füzuli". 1995



keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə 25 min tirajla çap olunan kitabar arasında Nəsiminin ikicildliyi də artıq nəfis şəkildə işıq üzü görmüşdür, lakin təəssüf ki, eyni sözü Nəsimi yaradıcılığının tədqiqi və təbliği haqqında demək mümkün deyildir. Şübhəsiz ki, cənab Prezidentin şəxsən marağı və qayğısı istər 640 illik yubileyin yüksək beynəlxalq səviyyədə keçirilməsinə, istərsə də nəsimişünaslığın sonrakı inkişafına misilsiz təkan verəcəkdir. Xüsusilə düzgün yeridilən daxili və xarici siyasət sayəsində milli dövlətçiliyimizin yetişdiyi indiki yüksək inkişaf səviyyəsində xalqımızın yetişdirdiyi dahi söz və fikir adamlarının bütün dünyaya tanıdılması, dünya birliyindəki yerimizin daha da möhkəmlənməsinə, ölkəmizin və xalqımızın layiq olduğu mövqeyi əldə etməsinə yardım göstərəcəkdir.

Ədəbiyyat tariximiz üçün onu da qeyd etmək yerinə düşər ki, Nəsimi irsinin öyrənilməsi, təbliği, Nəsimi mavzoleyinin dünya standartları səviyyəsində təmiri və bərpası haqqında yüksək Prezident təşəbbüsünün irəli sürülməsindən sonra Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunda da bu yöndə alimlərin üzərinə düşən vəzifələrin icrası baxımından yeni bir canlanma özünü göstərməkdədir. Belə ki, Nəsimi yubileyinə hazırlıq çərçivəsində şairin həyat və yaradıcılığı haqqında yeni elmi-kütləvi monoqrafiyanın yazılması, həmin monoqrafiyanın ingilis, rus, alman, fransız, ərəb, çin və b. dünya mədəniyyətinin aparıcı dillərinə, eləcə də bütün türk xalqlarının dillərinə tərcümə edilməsi və xüsusi Nəsimi saytında yerləşdirilməsi üzərində ciddi işlər aparılmaqdadır. Bu, Azərbaycan ədəbiyyatşünaslarının milli dövlətçiliyimizin möhkəmləndirilməsi, milli dəyərlərimizin qlobal səviyyədə tanıdılması yönündə Respublika Prezidentinin apardığı məqsədyönlü fəaliyyətə canla-başla yardımçı olmaq və öz üzərlərinə düşən vəzifələri yüksək elmi-təşkilati səviyyədə yerinə yetirmək istiqamətində atdıqları addımlar kimi qiymətləndirilə bilər. Azərbaycan klassikinə qırx ildən sonra yeni yüksək səviyyədə qayıtmaq isə – bütövlükdə Əliyevlərin elm və mədəniyyət tutumlu daxili siyasətinin parlaq təzahür örnəyi kimi nəzərdən keçirilməlidir. Bu siyasətin varisliyi üçün əlamətdar olan bir cəhəti də qeyd etmədən keçmək olmaz ki, bu da Nizaminin 1981-ci ildə keçirilmiş 840 illiyi ilə Nəsiminin 2009-cu ildə keçirilmiş 640 illik yubileyindəki rəqəmlərin bənzərliyi, onların hər ikisinin Şərqdə, o sıradan Şərqlə Qərbin qapısı sayılan Azərbaycanda da müqəddəs rəqəm hesab edilən "40" simvolik sayı ilə bitməsidir. Və o da yəqin ki, simvolik məna daşıma-



Əli Verdiyev "Füzuli mədrəsədə". 1994

mış deyil ki, 2009-cu ildə, yəni Nizaminin vəfatından 800, Nəsiminin doğumundan isə 640 il keçərkən Azərbaycan xalqının yetirdiyi ən böyük şəxsiyyətlərədən biri olan Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən – xalqımızın və ölkəmizin taleyinə günəş kimi doğmasından da nə az, nə çox – düz qırx il keçir.

Nəsiminin 600 illik yubileyi Ulu Öndərin səyi və qeyrəti ilə qlobal miqyasda – UNESCO səviyyəsində keçirilmişdi. Ancaq bu təşkilat sonu iki sıfırla bitən tarixləri qəbul etdiyi üçün Nəsiminin 640 illiyini bu səviyyədə keçirmək texniki cəhətdən imkansızdır. Ancaq UNESCO-nun bu tədbirə qoşulmaması heç də Nəsimi yubileyinin qlobal səviyyədə keçirilə bilməməsi demək deyil. Yubileyin ən yüksək səviyyədə keçirilməsi üçün Azərbaycan dövlətinin həm kifayət qədər vəsaiti, həm də dünya elmi dairlərində nüfuzu və sanbalı vardır. Məhz buna görə Nəsimi yaradıcılığına həsr edilmiş Beynəlxalq konfransın keçirilməsi klassik irsimizin Ulu Öndər Heydər Əliyevin mədəniyyət siyasəti işığında keçirilməsi çox əlamətdar oldu.

XV yüzilliyin böyük Azərbaycan şairi Nemətullah Kişvəri daha çox öz taleyindən-bəxtindən gileylənməklə altı yüz il bundan öncə özünü başqa bir nəhəng türk şairi ilə – Əlişir Nəvai ilə müqayisə edərək yazmışdı:



Kişvəri şeiri Nəvai şeirindən əksik iməs,
Bəxtinə düşsəydi bir Sultan Hüseyni Bayqara.

Kişvəri bu beytlə hökmdar və sənətkar probleminə diqqəti çəkmişdi, sənətkarın taleyində hökmdarın necə müstəsna rol oynaya biləcəyini vurğulamışdı. Heydər Əliyevin Azərbaycan klassik ədəbiyyatına, onun ən böyük simalarına göstərdiyi alovlu sevgi və yüksək himayə – Kişvərinin bu fikrinin nə qədər doğru olduğunu bir daha sübuta yetirdi. İki türk hökmdarının – Şah İsmayıl Xətayinin və Sultan Süleyman Qanuninin vaxtilə yiyə durduqları, təəssübünü çəkdikləri, himayədarlıq etdikləri böyük Füzulinin bəxtinə üçüncü türk hökmdarı – Azərbaycan xalqının ümummilli lideri, klassik ədəbiyyatımızın heyrətamiz bilicisi və mesenatı Heydər Əliyev də düşdü. Və bu hökmdarın Füzulinin sənət taleyində oynadığı rol misilsiz oldu. Əgər əvvəlki hökmdarlar Füzulini yalnız Şərqdə və türk ədəbi-mədəni mühitində tanıtmışdılarsa, Heydər Əliyev bu dahi Azərbaycan şairinin şöhrətini bütün dünyaya yaydı.

1993-cü ilin iyununda əzəmətli bir xilaskar kimi yenidən respublika hakimiyyətinə qayıtmasından sonra Heydər Əliyev Azərbaycan Elmlər Akademiyasında ziyalılarla görüşərkən mədəniyyətə qayğıdan danışmış və Füzulinin qarşıdan gələn yubileyinin lazımi səviyyədə keçirilməsinin bütün türk dünyası üçün əhəmiyyətini qeyd edərək demişdi: «... Bizim mədəniyyətimiz, elmimiz çox zəngindir. Biz Nizamidən, Füzulidən danışarkən onları tək şair kimi deyil, böyük filosof kimi, dünyaya, dünya mədəniyyətinə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq. Gələn il Füzulinin 500 illik yubileyi olacaq. Biz bu yubileyə yaxşı hazırlaşmalıyıq. Biz Füzulini təkcə "Leyli və Məcnun" poemasının müəllifi kimi yox, dünya miqyaslı filosof kimi, böyük alim kimi dünyaya tanıtmalıyıq. Təkcə ədəbiyyatçılar və yaxud Yazıçılar Birliyi deyil, bütün elm xadimlərimiz bu sahədə işləməlidirlər... Tariximiz çox zəngindir və biz bunu vaxtaşırı xalqa çatdırmalıyıq. Xatirinizdədirmi, Nəsiminin 600 illik yubileyini qeyd etdiyimiz zaman bu, dünyada nə qədər əks-səda doğurdu, Azərbaycanı nə qədər tanıtdı.! Nəhayət 600 ildən sonra biz Nəsiminin Hələb şəhərindəki məzarını tapdıq. İndi onun məzarı oraya gedən adamlar üçün bir ziyarətgahdır. Məhz Azərbaycan xalqına mənsub olan Nəsimi kimi nadir bir şəxsiyyəti dünya ictimaiyyətinə, elminə, dünya mədəniyyətinə tanıtmaq, şübhəsiz ki, xalqımızın hörmətini qaldırmaq deməkdir." (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K. 1. Bakı: Azərnəşr, 1997, s. 157.)

Özünəməxsus lakoniklik və dəqiqliklə həmin dövrü xarakterizə edən Heydər Əliyev, geosiyasi şəraitdəki çətinliklərə və gənc müstəqil Azərbaycan Respublikasının iqtisadi durumunun həddən artıq ağır olmasına baxmayaraq, yubileyin yüksək beynəlxalq səviyyədə, Füzulinin adına və şöhrətinə layiq bir şəkildə keçirilməsini vacib hesab edir və bunu belə əsaslandırırdı: "Respublikamızın bu ağır dövründə böyük yubileylər keçirilməsi, şübhəsiz ki, müəyyən qədər çətinliklərlə üzləşəcək. Ancaq bunlara baxmayaraq, həyatımızın mədəni-mənəvi sahəsi heç vaxt unudulmamalıdır. Çətinliklər nə qədər çox olsa da, mədəniyyətə, mədəni irsimizə, mənəviyyata daim xüsusi diqqət yetirməli və bu sahələrin geri qalmasına yol verməməliyik."

Uzaqgörən rəhbər, ən çətin anlarda belə xalqın mədəni və mənəvi inkişafı sarıdan müvəqqəti də olsa laqeydlik göstərilməsinə, hər hansı bir vacib tədbirin təxirə salınmasına alternativ görmürdü.

Prezident Heydər Əliyevin bilavasitə rəhbərliyi altında 1994-cü ilin əvvəllərində Füzulinin yubileyinə geniş hazırlıq işləri başlandı. Azərbaycan mədəniyyətinin bütün sahələrini təmsil edən görkəmli mütəxəssislərdən ibarət mötəbər yubiley komissiyası yaradıldı. Füzuli yubileyinə bu dərəcədə böyük əhəmiyyət verilməsinin başqa bir ciddi səbəbi də o id ki, Azər-



Əzim Əzimzadə. "Füzuli". 1912



baycan Respublikası müstəqillik əldə etdikdən sonra təbii ki, onun düşmənləri bu böyük tarixi nailiyyətlə barışmaq istəməmiş, hər bir bəhanə ilə tarixin təkərinə çöp uzatmaq fürsətini əldən verməmişdilər. Nəticədə bəzi dairələrdə Azərbaycanın müstəqilliyə layiq olmadığı haqqında cəfəng fikirlər formalaşdırmaq dərəcədə xainliyə də gəlib çatmışdılar. Füzulinin yubileyinin beynəlxalq səviyyədə keçirilməsinin bu cür cəfəngiyyata layiqli bir cavab olacağını vurğulayan Heydər Əliyev özünəməxsus təmkinli bir qəzəblə düşmənləri belə qırmaclayırdı: "...Hamımıza məlum olan düşmən qüvvələr həmişə sübut etməyə çalışmışdır ki, Azərbaycan xalqının zəngin tarixi olmamışdır, onun kökü yoxdur. Şübhəsiz ki, bu, cəfəngiyyatdır. Bəzən buna heç cavab verməkistəmirsən. Lakin xalqımıza düşmən olan, qəsd etmək istəyən dairələr, qüvvələr, bəzən də millətlər respublikamızı parçalamaq, onun ərazisini qəsb etmək istəyənlər əvvəllər də çalışmışlar və indi də çalışırlar sübut etsinlər ki, guya Azərbaycan xalqı tarixi köklərə malik olan bir xalq deyildir. Ona görə də Füzuli kimi şəxsiyyəti bir daha dünyaya tanıtmaqla onun necə böyük şair, mütəfəkkir, filosof olduğunu və dünya mədəniyyətinə nə qədər töhfə verdiyini, onu necə zənginləşdirdiyini göstərəcəyik. Buna bizim əvvəllər də ehtiyacımız olmuşdur, lakin bu gün xüsusilə vacibdir. Çünki Azərbaycan müstəqil dövlətdir, xalqımız milli azadlığa nail olmuşdur və biz müstəqilliyimizin daimi, əbədi olması üçün çalışırıq və bundan sonra da çalışaçağıq."

Heydər Əliyev öz çıxışında dünya ədəbiyyatının klassiki Məhəmməd Füzulinin yalnız Azərbaycanın sərhədlərindən kənarda deyil, ölkə daxilində də yaxşı tanıdılmasını, onun yüksək və nəcib hisslərlə, zəngin və tutarlı fikirlərlə dolu əsərlərinin hər bir azərbaycanlı evinə, azərbaycanlı ailəsinə çatdırılmasının vacibliyini və əhəmiyyətini göstərirdi.

Əsərlərini Yaxın və Orta İslam Şərqinin geniş yayılmış üç klassik poeziya və nəsr dilində yazan Məhəmməd Füzulini yalnız Azərbaycan türkləri deyil, quru ərazinin az qala yarısını tutan geniş türk dünyasının başqa xalqları, eləcə də ərəblər və farslar öz sənətkarları sayırlar. Füzuli yaradıcılığının bu beynəlmiləl məzmununa və ensiklopedik xarakterini təkcə Füzulini deyil, həm də onun yüksək poetik səviyyədə təmsil etdiyi Azərbaycan ədəbiyyatını ümumbəşəri və humanist ideallara çatdıran bir cənət kimi qiymətləndirərək deyirdi: "...ərəblər və farslar Füzulini öz şairləri sayırlar. Türkdilli xalqlar isə belə hesab edirlər ki, o, türkdür. Biz də deyirik ki, Füzuli türk, Azərbaycanlıdır. Eyni za-



Nicat Məmmədov. Füzulinin büstü. 1957





Elcan Şamilov. Füzulinin heykəli. 1959

manda bunu türkmən, özbək, qazax, Türkiyədə yaşayan türklər, İraq türkmanları da deyə bilərlər. Qoy Füzuli hamıya məxsus olsun, tarixə bəşəri bir şəxsiyyət kimi düşsün." (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K. 7. Bakı: Azərnəşr, 1998, s. 85.)

Müstəqillik dövründə klassik irsin tədqiq istiqamətlərinin Sovet dövründəki ideoloji tələblərdən arınmış, köklü şəkildə fərqli olmasını başlıca şərtlərdən biri hesab edən Ümummilli Lider bu baxımdan elmi obyektivliyin qorunmasını başlıca şərtlərdən biri sayaraq alimləri də bu vacib şərti yerinə yetriməyə, elmi həqiqətləri təhrif etməməyə çağırırdı: "Xatirimdədir, bir dəfə haradasa dedim ki, Nizaminin fəlsəfi görüşləri haqqında çoxlu tədqiqatlar aparmışlar. Şübhəsiz, Nizaminin şeirlərini proletar şeirinə döndərmək mümkün deyildir, ona görə də hamı sübut etməyə çalışmışdır ki, Nizami metafizik yox, dialektik olmuşdur. Əlbəttə, bunlar təbiidir və heç kəsi günahlandırmaq lazım deyildir. Mən də bu fikirdə deyiləm. Bu, o dövrün nəticəsidir və indi heç kəs deməsin ki, o zaman belə düşünməmişdir. Biz hamımız həmin dövrdə yaşayır və onun stereotiplərindən kənara çıxa bilmirdik. Çıxmağa imkan da yox idi, çünki o dövrdə yazıçı da, alim də, adi adam da belə hesab edirdi ki, başqa cür ola bilməz. Ona görə də indi kiminsə döşünə döyməsi mənasızdır. Beləlarinin özləri də o zaman bu cür yazmışlar. Bu, bizim tariximizin reallığıdır. Onu təhrif etmək olmaz. 1917-ci ildən sonra buna cəhd göstərdilər. Lakin bacarmadılar. O dövrdə yaşayan və Azərbaycanın mədəniyyətini, ədəbiyyatını inkişaf etdirən adamlara indi irad tutmaq olmaz, bu günahdır." (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K. 1. Bakı: Azərnəşr, 1997, s. 155.)

Düz sözə nə deyəsən? Doğrudan da son illərdə yalnız cəmiyyət həyatının bir çox sahələri kimi, ədəbiyyatda da, Cəfər Cabbarlının Məmmədəlisi kimi nihilizm yolu tutmaq dəbə düşmüşdür. Başqa sözlə desək, Azərbaycan ədəbiyyatşünaslığı, xüsusən klassik irsə münasibətdə, necə deyərlər, "yağışdan çıxıb yağmura düşmüş", ifratdan təfritə yuvarlanmşdır. Bir sıra klassiklərin yaradıcılığını heçə saymaq, onları çağdaş dövrün uydurma, heç bir əsası olmayan dəyərləri, daha doğrusu, dəyərsizliyi mövqeyindən ittiham etmək cəhdlərilə tez-tez üzləşirik. Klassik sənətkarı yalnız müasir tələblər baxımından deyil, həm də öz dövrünün şərtləri daxilində yaratdığı əsərlərə, təmsilçisi olduğu fikir və ideya cərəyanlarına görə qiymətləndirmək lazımdır. Heydər Əliyev özünün klassik Azərbaycan mədəniyyətinin ayrı-ayrı nümayəndələri ilə bağlı çıxış və məruzələrində bu sadə, lakin müdrik həqiqəti dönə-dönə yada salmış, görkəmli





Səttar Bəhlulzadə. "Füzuli". 1969

sənətkarlarımızın yaradıcılığını və şəxsiyyətini yersiz hücumlardan, əsassız tənqid və təhriflərdən mətanətlə, müsbət mənada, özünəməxsus azərbaycançılıq təəssübü ilə qorumuşdur.

O da əlamətdardır ki, Nizami mövzusu, Nizamiyə məhəbbət Ümummilli Lideri hər zaman məşğul edən mövzulardan olmuş və o, sonralar dəfələrlə bu mövzuya qayıdaraq hər dəfə onda yeni bir cəhət, klassikin yeni bir xidmətini aşkarlamağa nail olmuşdur. 24 may 2000-ci ildə Gəncə şəhərində Nizami Gəncəvinin məqbərəsini ziyarət edərkən söylədiyi dərin məzmunlu nitq bu baxımdan zəngin material verir, çağdaş nizamişünaslığın uğurlarından biri kimi qiymətləndirilməyə layiq olduğunu göstərir.

Ümummilli Liderin buradakı Nizami Gəncəvi məqbərəsi, dahi klassikin xatirəsi ilə bağlı dediyi sözləri oxuduqca onun bu böyük azərbaycanlıya, dünya çaplı bu

dahiyə sonsuz məhəbbəti qarşısında ehtiramla əllərini sinəndə qoşlaşdıraraq baş əyməmək mümkün olmur.

Orta əsrlərin kəsif toz-dumanı içindən mənəvi cəhətdən alnıaçıq, üzüağ çıxmış Nizami Gəncəvinin 800 ildən bəri uyuduğu məqbərəsini erməni daşnaklarının riyakar fitnəkarlığı ilə fiziki cəhətdən toz basması Heydər Əliyevi çox narahat etmiş, illərlə bu problemin həlli yollarını axtarmışdır. Ümummilli Lider üzünü gəncəlilərə tutaraq bu barədə səmimiyyətlə belə deyir:

"Bir halda ki, bu gün siz burada yığışmısınız, mən də keçmiş dərdlərimi deyirəm. Bu bizim üçün bir dərd olmuşdur. Yenə də deyirəm, belə böyük müəssisəni, bu cür texnologiyası, məhsulu olan müəssisəni gətirib Nizami Gəncəvinin qəbrinin, məqbərəsinin yanında tikmək tarixi, mənəvi cinayət olmuşdur. Ancaq nə etməli? O vaxt gərək ya bu müəssisəni dağıdaydıq – bu da mümkün deyildi, çünki Sovet İttifaqının böyük tikintilərindən biri idi – ya da, deyirdilər ki, əgər bu mümkün deyilsə, tədbir görün, Nizami Gəncəvinin məqbərəsini başqa yerə köçürək.

Onu da etmək mümkün deyildi, bunu da etmək mümkün deyildi. Biz neçə illər bu əziyyəti çəkdik. Sonra burada texnologiya dəyişildi, əsasən boksitə keçildi."

Nizaminin 840 illik yubileyinin keçirilməsi barədə o vaxtkı Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin ikinci katibi, partiyanın baş ideoloqu Mixail Andreyeviç Suslovla cəngi-cidalının təfərrüatını ilk dəfə bu çıxışında açan Heydər Əliyev bizim gözümüzdə o dövrün əyalətlərə yuxarıdan aşağı baxan Moskva dinozavrları ilə yalın əllə qorxub-çəkinmədən vuruşan əfsanəvi qəhrəmanlarımız kimi canlanır.

"Mən bu gün böyük hisslərlə Nizaminin məqbərəsini bir daha ziyarət etdim. Onu da sizə deyə bilərəm ki, Nizaminin 800 illiyi 1948-ci ildə keçirilmişdi. Amma 840 illik yubileyini mən böyük təntənə ilə keçirtdim, yəni bu tədbiri həyata keçirməyə nail oldum. O vaxt buna da imkan vermirdilər. Mən Moskvada Kommunist Partiyasının Mərkəzi Komitəsinin qarşısında bu məsələni qaldıranda – çünki onlarsız bu işi görə bilməzdik – dedilər ki, "840 il yuvarlaq rəqəm deyildir. 800 illiyi qeyd etmisiniz, 850 illik də ola bilər. amma 840 olmaz, çünki sonra deyəcəksiniz ki, 845, nə bilim, 847." Xatirimdədir, Mərkəzi Komitənin ikinci katibi var idi – Suslov, Brejnevin dövründə ikinci katib idi – mənə dedi ki, bu, mümkün deyildir."

Amma ona da Heydər Əliyev deməzdilər ki, Mixail Suslovun rədd cavabından ümidsizliyə düşüb bu işdən əl üzsün... Belə də olur: Ulu Öndərin dəmir məntiqi qarşısında o boyda imperiyanın baş ideoloqu əllərinin dalını özü də bilmədən yerə qoymalı olur...

Çıxışının sonunda Nizami və Gəncə mövzusuna da qısaca toxunan Ulu Öndər bir daha dahi şair və mütəfəkkirin cahanşümul irsinin əhəmiyyətini xatırladaraq demişdir: "Bütün Azərbaycan xalqı Nizami Gəncəvi ilə fəxr edir. Ancaq gəncəlilər xüsusi iftixar hissi keçirirlər. birincisi, ona görə ki, Nizami gəncəlidir, Gəncənin adını dünyada məşhur edibdir, bu torpaqda yaşayıbdır, bu torpaqda yazıbdır. Onun yazdığı əsərlər bütün dünyada məşhurdur. Təsəvvür edin, 850 il bundan öncə bu qədər böyük əsərlər yaratmaq!.. Bu əsərlər təkcə şeirdən ibarət deyildir, onların hər birində böyük elm var, böyük fəlsəfə, dahi fikirlər var. Buna görə onun əsərləri də yaşayır, özü də yaşayır."

Böyük Azərbaycan şairi Füzulinin yarım minillik yubiley günlərində Məhəmməd Füzulinin müqəddəs qəbrinin Bakıya köçürülməsi məsələsi də hər bir azərbaycanlı kimi Ulu Öndəri də narahat edirdi. Yubiley komissiyasının iclasında problemi hərtərəfli araşdıraraq ona aydınlıq gətirən Heydər Əliyev demişdi: "Füzulinin qəbrinin Bakıya köçürülməsi barəsində də söhbət getdi. Bu yeni məsələ deyil. Hələ 70-ci illərdə Füzulinin qəbrinin Bakıya köçürülməsi məsələsi çox geniş müzakirə edilirdi. Mən bu məsələ ilə məşğul olurdum. 1981-ci ildə Yazıçılar İttifaqının qurultayında bu məsələ qaldırılanda mən tanınmış yazıçılarımıza, Allah onlara rəhmət eləsin, narazılığımı bildirərək dedim ki, siz məsələni ortaya atır, lakin təşəbbüs göstərmirsiniz. O zaman mən bu məsələni Mirzə İbrahimova tapşırdım..." (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K. 7. Bakı: Azərnəşr, 1998, s. 83.)

Ümummilli Lider öz fenomenal yaddaşının köməyilə keçənləri göz önündə belə canlandırırdı: "O zaman belə məlumat aldıq ki, Kərbəlanın baş planına əsasən yol çəkilir və həmin yol Füzulinin qəbri olan yerdən keçirildiyinə görə, guya şairin cənazəsinin qalıqlarını hansısa məscidə aparmışlar. Adətən, belə hallarda qəbri başqa yerə köçürürlər. Lakin həmin məlumat məni çox narahat etdi, çünki bu, Füzuliyə qarşı çox böyük hörmətsizlik olardı. Şübhəsiz ki, bu halda onun cənazəsinin qalıqlarını Bakıya gətirib ən görkəmli yerdə dəfn edərək şairin məqbərəsini yaratmağa mənəvi haqqımız olardı. Lakin bilirsiniz ki, bundan bir il sonra mən Azərbaycandan getdim və işlərin gedşdindən xəbərim olmadı. Ancaq indi öyrəndim ki, Füzulinin qəbrini başqa yerə köçürmüşlər." (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K. 7. Bakı: Azərnəşr, 1998, s. 83.)

Əlbəttə, bunu da nəzərdən qaçırmaq lazım deyil ki, İraqda Füzulinin məzarının üstündən yol salınması haqqında söz-söh-

bət müəyyən qədər sensasiya yaratmaq xatirinə tirajlanmışdı. Əslində, köhnə qəbristanlığın üzərindən yol salınarkən başqa mərhumlar kimi Füzulinin də qalıqlarısəliqə ilə köçürülmüş və İmam Hüseyn məscidinin girəcəyində yenidən torpağa tapşırılmışdı. 1994-cü ilin sentyabrında Füzuli yubileyi çərçivəsində Heydər Əliyevin göstərişi ilə İraq Ərəb Respublikasında olduğumuz zaman böyük Füzulinin Kərbəladakı torpağını da ziyarət etdik. Bu məqamda Füzulinin öz şeirini Kərbəla torpağı ilə müqayisə etdiyi məşhur qitəsi yada düşməyə bilməzdi:

Ey Füzuli, məskənim çün
Kərbəladır, şeirimin
Hörməti hər yanda vardır,
xalq onun müştağıdır,
Ləl deyil, yaqut deyil,
nə inci, nə mirvaridir,
Adi torpaqdır, vəlakin
Kərbəla torpağıdır...

Fuzulinin cənazəsinin qalıqlarının Azərbaycana köçürülməsi haqqında söz-söhbət yenidən meydana çıxanda Heydər Əliyev bu məsələdə tələskənliyə yol verməyin zərərli olduğunu, tarixin keşməkeşlərində Azərbaycandan uzaqlarda torpağa tapşırılmış böyük sənətkarlarımızın ruhunu incitməməyi tövsiyə etmişdi.

Nəhayət, onu da unutmayaq ki, böyük şairin özü də öz sənətini dil və üslub baxımından xarakterizə edərkən, türkcə divanının dibaçəsində başqa qardaş türk xalqlarının poeziya həvəskarlarından, poetik söz xiridarlarından fərqli şəkildə işlətdiyi bəzi spesifik, yəni sırf Azərbaycan türkcəsi ilə olan söz və ifadələrin anlaşılmayacağı təqdirdə sanki üzr istəyərək yazmışdı: "Təvəqqe budur ümumən əhaliyi-izzü etibardən, xüsusən büləğayi-Rum və füsəhayi-tatardən ki, əgər şahidi-hüsni-ibarətimdə ol diyarın əlfazü ibarətlərindən zivər olmasa və müxəddəreyi-nəzmim ol mülklərin lətayifü zərbül-məsəllərindən zinət bulmasa, bu daini məzur buyuralar. Zira hər mülkün əhlinə ariyətdən ar gəlir və hər taiyəfədən hər nə kim var isə tətbböi-əğyari mövcibi-qeyrət bilib, bu diyarın istilahatı qeyrə məqdur olmamaq üzrxahımız yetər." (Füzuli. Əsərləri. 6 clddə. C. 1. Bakı: Şərq-Qərb, 2005, s. 32)

Heydər Əliyevin Türkiyə parlamentindəki nitqi özünün aydınlığı, Heydər Əliyev dilinə xas üslubi xüsusiyyət olan səlisliyi, obrazlılığı ilə dinləyicini ovsunlayır. Özü də hər şeydən əvvəl bir Füzuli qədirbiləni olan Ulu Öndər aşağıdakı sözləri səmimi-qəlbdən deyir: "Füzuli 500 il bundan qabaq da nurlu bir ulduz kimi parlayıbdır, dünyaya öz şüalarını





Eldar Mikayılzadə. "İki zirvə". 1990-cı illər



Arif Mərdan. "Füzuli dünyası". 1996

yayıbdır. Füzuli təkcə Şərqdə yox, müsəlman aləmində, türk dünyasında yox, bütün dünyada, o cümlədən inkişaf etmiş Qərb ölkələrində çox məşhur olmuşdur. Amma Azərbaycan xalqı üçün, bizim üçün Füzuli daha əziz olmuş, sevilmiş, son əsrdə xüsusən yüksək zirvələrə qaldırılmışdır. Bu gün çox böyük iftixar hissi ilə deyə bilərik ki, Füzuliyə bizim Azərbaycan xalqının, Azərbaycan alimlərinin verdiyi qiymət, onun əsərlərindən daim bəhrələnmələri xalqımızın öz kökünə, adət-ənənəsinə, keçmişinə, tarixinə, dininə, dilinə nə qədər sadiq qalmasını sübut edir."

Heydər Əliyev Rusiyanın paytaxtı Moskva şəhərində keçirilən Füzuli gecəsində dərin məzmunlu nitqi ilə indinin özündə belə klassik irsi dəyərləndirməyin və təbliğ etməyin klassik örnəyini göstərmişdi: "Bu gün biz fasilədən sonra, müəyyən müddətdən sonra yenidən birlikdəyik və dahi Azərbaycan şairi Məhəmməd Füzulinin yubileyini birlikdə qeyd edirik. Şairin yubiley ilini YUNESKO "Füzuli İli" elan etmişdir. Füzulinin yubileyi Azərbaycanda, bir çox ölkələrdə geniş qeyd edilir, lakin bu, Azərbaycan xalqı üçün xüsusilə dəyərli və əhəmiyyətlidir ki, Füzulinin yubileyi Moskvada, zəngin mədəni və ədəbi ənənələri olan bir şəhərdə də qeyd edilir... Rus və Azərbaycan xalqlarının incəsənəti və mədəniyyəti, ədəbiyyatı bir-biri ilə elə sıx bağlanmış, bir-biri ilə elə möhkəm çulğalaşmışdır ki, bu əlaqələri məhv etmək mümkün deyildir. Elə bugünkü gecə də buna ən inandırıcı və parlaq sübutdur."

Dahi şairin 1996-cı ilin yazında Bakıda keçirilən yubiley şənlikləri də məhz Prezidentin arzuladığı kimi müstəqil dövlətin ilk böyük ədəbiyyat və mədəniyyət bayramına çevrildi.

Klassik ədəbiyyat, Heydər Əliyev üçün hər şeydən əvvəl, müasirliyi, konkret tarixi situasiyada xalqa mədəni-mənəvi xidmət göstərmək potensialı ilə maraqlı və aktual idi. O, bu tələbi klassik ədəbiyyatın bütün böyük nümayəndələri qarşısında qoyur və özü də onların həmin tələbə yüksək səviyyədə cavab verdiklərini məntiqi dəlillərlə əsaslandırırdı. Xüsusi halda Füzuli yaradıcılığı barədə dediyi sözləri bu baxımdan bütövlükdə klassik irsə də aid etmək olar: "Füzulini ən əvvəl öz ölkəmizdə daim təbliğ etmək lazımdır. Bizim xalqımız, xüsusən gənc nəsil, yeni həyata qədəm qoyanlar Füzulini nə qədər oxusalar, dərk etsələr, onun yaradıcılığı ilə yaxından tanış olsalar, Füzuli şəxsiyyətnin böyüklüyünü hiss etsələr, adamlarımız bir o qədər saf mənəviyyat istiqamətində yaşayacaq və həyatlarını da bu ruhda quracaqlar. Çünki Füzulinin həyatı da, bütün yaradıcılığı



da həm yüksək mənəviyyat, həm yüksək fəlsəfədir, həm də insanlara mənəvi, estetik qida verən böyük bir mənbədir."

Molla Pənah Vaqifin Azərbaycan poeziyasının, Azərbaycan ədəbi dilinin inkişafındakı müstəsna xidmətlərini yüksək qiymətləndirən Heydər Əliyev sonralar da müxtəlif münasibətlərlə bu böyük şairin yaradıcılığından bəhs etmiş, onun daşıdığı ədəbi-estetik dəyərin müxtəlif yönlərini açıqlamışdı. Bu baxımdan Azərbaycanın xalq şairi Səməd Vurğunun 90 illik yubiley gecəsində söylədiyi nitqindən kiçik bir parça maraq doğurur. Səməd Vurğunun çox möhkəm sələf-xələflik telləriлə bağlı olduğu Vaqif yaradıcılığına bir daha nəzər salan Ulu Öndərimiz çox maraqlı elmi nəticələrə gəlmişdir: "Səməd Vurğun Azərbaycan şeirinə çox böyük yeniliklər gətiribdir. Ancaq mən bir məqama toxunmaq istəyirəm. Böyük şairimiz Molla Pənah Vaqif XVIII əsrdə şeir dilini xalq dilinə daha da yaxınlaşdırdı. Onun yazdığı şeirləri xalqın bütün təbəqələri həm anlaya, həm qavraya bildi, həm də sevdi. Beləliklə o, Azərbaycan şeirində yeni bir yol açdı."

Onu da qeyd edək ki, Heydər Əliyevin özü də klassiki ancaq yubileydən-yubileyə öyrənməyin, onun əsərlərini nəşr etməyin əleyhinə olmuş, xalqımızın yetirdiyi ölməz söz nəhənglərinə daim diqqət və qayğı göstərməyi ilk növbədə ziyalılardan və mütəxəssislərdən tələb etmişdir. Bu baxımdan onun, Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasının iclasında dünya ədəbiyyatının böyük liriki haqqında dediklərini ümumilikdə klassik irsimizə də aid etmək lazımdır: "...Füzulinin öyrənilməsi və təbliği sahəsində işlər yubileydən sonra da davam etdirilməlidir. Bəzən belə olur; yubileyə qədər çox iş görülür, nitqlər söylənilir, təntənələr başa çatır, sonra isə hər şey soyuyur. Əlbəttə, bunun özü də müəyyən qədər təbiidir. Lakin gərək biz belə etməyək."



**Musa Qasımlı**
*Millət vəkili, professor*

## "Heydər Əliyev. İstiqlala gedən yol (1969–1987-ci illər)"[1]

*(kitabdan parça)*

Heydər Əliyevin ədəbi irsə qayğı sahəsində fəaliyyətinin mühüm istiqamətlərindən biri böyük Azərbaycan şairi Məhəmməd Füzulinin qəbrinin qorunması və məqbərəsinin tikilmə imkanlarının öyrənilməsi idi. Qeyd etmək lazımdır ki, 50-ci illərin sonu – 60-cı illərdə bu məsələ gündəliyə gəlsə də, həllindən ötrü ciddi addımlar atılmamışdı. H.Əliyev hakimiyyətə gəldikdən sonra həmin məsələ ilə yaxından maraqlanmağa başladı. O, MK-nın beynəlxalq əlaqələr şöbəsinin müdirinə Məhəmməd Füzuliyə İraqın Kərbəla şəhərində məqbərə tikilməsi imkanlarını öyrənmək barədə tapşırıq verdi. Bu tapşırığa əsasən MK-nın şöbə müdiri Sov. İKP MK-nın müvafiq şöbəsi ilə əlaqə yaradaraq məsələni müzakirə etdi. O, müzakirələrdən sonra tapşırığın necə yerinə yetirilməsi barədə H.Əliyevə 1977-ci il 2 sentyabr tarixli geniş arayış təqdim etdi. Həmin arayış, ilk növbədə, məsələnin tarixini izləmək baxımından əhəmiyyətlidir. Arayışda deyilirdi: "Sizin tapşırığınıza əsasən böyük Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin məqbərəsinin Kərbəlada tikilməsi mümkünlüyü haqqında məsələ öyrənilmişdir...". Arayışdan aydın olur ki, MK-nın şöbə müdiri Sov. İKP MK-nın müvafiq şöbəsində İraqla əlaqələrə

[1] Musa Qasımlı. Heydər Əliyev. İstiqlala gedən yol (1969–1987-ci illər). Bakı, 2006, "Bakı universiteti", s. 190–196



məsul olan N.Q.Neçkinlə danışmışdı. O bildirmişdi ki, İraqın əlverişsiz daxili vəziyyəti ucbatından Füzulinin məzarının tikintisi məsələsini İraq hökuməti qarşısında qaldırmaq üçün şərait uyğunsuzdur. Bununla belə, o, mütəxəssislərlə əlavə olaraq məsləhətləşəcəyini və tövsiyələrini bildirəcəyini söyləmişdi. Onun bu fikrini Sov. İKP MK-nın beynəlxalq əlaqələr şöbəsinin Yaxın Şərq bölməsinin müdiri Y.S.Qryadunov da təsdiq etmişdi. Bundan sonra H.Əliyevin təklifi ilə məsələnin həllinə Azərbaycanın Xarici İşlər Nazirliyi və Elmlər Akademiyası cəlb edilmişdi. Məsələ SSRİ XİN qarşısında qaldırılmışdı. Lakin SSRİ Xarici İşlər Nazirliyinin Yaxın Şərq şöbəsinin müdiri, nazirliyin kollegiya üzvü Sıtenko Sovet İttifaqının Bağdaddakı səfirinə istinadən Füzulinin məzarının bərpası fikrindən vaz keçməyi tövsiyə etmişdi. Motiv yenə də eyni idi: əlverişsiz siyasi şərait.

Bundan sonra H.Əliyev tövsiyəsinə uyğun olaraq Azərbaycan Elmlər Akademiyasının prezidenti H.Abdullayev İraqın Bakıdakı baş konsulu Ədnan Qaydan Məhəmmədlə görüşərək Azərbaycan ictimaiyyəti və alimləri adından məsələnin müsbət həll olunması üçün hökuməti qarşısında vəsatət qaldırılmasını xahiş etmişdi. Məsələni araşdıran İraq konsulu 1976-cı il iyul ayının 21-də Azərbaycanın Xarici İşlər Nazirliyinə cavab notası göndərmişdi. Notada deyilirdi: "İraq prezidenti dəftərxanasının rəhbərliyi bildirir ki, İraq ərazisində dəfn olunduğundan şair Füzulinin mavzoleyinin bərpası üçün hökumət məsuliyyət daşıyacaqdır".

Notadan aydın olurdu ki, diplomatik kanallarla məsələnin həllinə cəhd edilməsi artıq heç bir nəticə verməyəcək. Çünki İraqın baş konsulu hökumətində kifayət qədər nüfuz sahibi idi və BƏƏS partiyasının rəhbər dairələri ilə sıx əlaqələr saxlayırdı. Onun fikri məsələnin həlli barədə İraq hökumətinin yekun rəyi kimi də qəbul edilə bilərdi.

Bütün bunlara baxmayaraq, H.Əliyev bu istiqamətdəki fəaliyyətini inadla davam etdirirdi. O, Azərbaycan KP MK-nın beynəlxalq əlaqələr şöbəsinin müdirinə Sov. İKP MK ilə yenidən əlaqə saxlamağı tapşırdı. Tapşırığa əsasən MK-nın şöbə müdiri Sov. İKP MK-nın beynəlxalq şöbəsinin müdir müavini K.N.Brutenslə, Y.S.Qryadunovla və başqa məsul şəxslərlə bir neçə dəfə telefonla danışdı. Onlar Azərbaycan KP MK-nın fikirlərini, istəklərini başa düşdüklərini bildirsələr də, bu məsələni yaxın vaxtlarda qaldırmamağı tövsiyə etdilər. Qryadunov fikrini bununla əsaslandırırdı ki, indi İraqda milli məsələ kəskin xarakter alıb, uzun illər ərzində ABŞ, İran, Türkiyə və regionun başqa rejimləri kürd hərəkatından İraq hökumətinə qarşı istifa-

də edirlər, türkmən əhalisinin milli hisslərini qızışdırırlar. İraqdakı BƏƏS partiyası rejimi ölkədəki milli problemləri həll etmək iqtidarında deyil və bütün ərazilərdə ərəbləşdirməni həyata keçirir. O bildirirdi ki, İraqda müxtəlif dini təmayüllər arasında da münasibətlər kəskindir. Hətta Kərbəla şəhərində şiələrin hökumət əleyhinə olan mitinqlərini bomba ilə dağıtmağa da cəhd edilmişdi. Sov. İKP MK-nın beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları qeyd edirdilər ki, Füzulinin məzarının bərpası məsələsi gələcəkdə SSRİ-yə səfər edən BƏƏS partiyası nümayəndələri ilə danışıqlarla müzakirə obyekti ola bilər.

Bütün bu cavablardan sonra Azərbaycan KP MK-nın şöbə müdiri Füzulinin mavzoleyinin bərpası məsələsini müvəqqəti olaraq MK-nın nəzarətindən çıxarmağı və uzunmüddətli məsələlər cərgəsinə aid edib əlverişli şərait yarandıqda baxmağa icazə verməyi xahiş etdi. Sənədlə tanış olan H.Əliyev onunla razılaşsa da, fəaliyyətini başqa formalarda davam etdirməyə başladı. Onun təklifi ilə füzulişünasların beynəlxalq simpoziumlarının keçirilməsinə təşəbbüs edildi və buna uğurla nail olundu. Bu isə məsələnin unudulmadığını, Azərbaycan tərəfini daim narahat etdiyini göstərirdi.

H.Əliyev İraqdan SSRİ-yə gələn müxtəlif səviyyəli nümayəndə heyətləri qarşısında həmin məsələni cəsarətlə qaldıraraq həllinə çalışırdı. Dövlətlərarası münasibətlərdə müəyyən problemlərin yaranması təhlükəsi də onu dayandıra bilmirdi. H.Əliyev Azərbaycan şair və yazıçılarının diqqətini həmin məsələyə cəlb edərək məqsədə çatmaq üçün çalışırdı. O, məsələnin müzakirəsini hətta yazıçıların VII qurultayında da qaldıraraq nəinki ziyalıları, həmçinin ictimaiyyəti agah etdi. Qeyd etmək lazımdır ki, H.Əliyev qurultay ərəfəsində Azərbaycan yazıçılarına böyük bir hədiyyə verdi. Onun Azərbaycan ədəbiyyatına və ədəbi irsə münasibətinin, qayğısının daha bir təzahürü yazıçılar üçün Xəzər dənizi sahilində Şüvəlanda Yaradıcılıq evinin istifadəyə verilməsi oldu.

H.Əliyev nitqində ədəbiyyatın qayğısına qalan, bütün buxovları, əngəlləri qıraraq nəinki yazıçıların himayəçisi olduğunu göstərir, eyni zamanda onları xalqı düşündürən Cənubi Azərbaycan məsələsindən, tarixdə mühüm rol oynamış ziyalılardan yazmağa, tarixi romanlar yaratmağa, M.Füzulinin məqbərəsinin keşiyində durmağa, qorxmamağa, çəkinməməyə səsləyirdi. O deyirdi: "...milli mədəniyyətimiz dirçəlmişdir", "Azərbaycanın yaradıcı ziyalılarının xoşbəxt taleyi onların xalqla qırılmaz birliyindədir, xalq mənafeyinə... fədakarlıqla xidmət etmələrindədir", "poeziyamız Azərbaycan klassik... lirikasının ən yaxşı ənənələrini davam etdirərək fəal vətəndaşlıq mövqeyində dayanmaqdadır". O daha sonra qeyd edirdi: "Nizaminin və Füzulinin, Xaqaninin və Nəsiminin, Axundovun və Məmmədquluzadənin, Üzeyir Hacıbəyovun və Məmməd Səid Ordubadinin vətəni öz müasir yazıçılarından və şairlərindən parlaq tarixi əsərlər gözləyir, Azərbaycan tarixinin, mədəniyyət və elminin görkəmli xadimlərinin bədii obrazlarını gözləyir", "...tarixi simaların obrazları yaradılan və tariximizin mühüm dövrləri tərənnüm olunan ədəbi əsərlər ən yüksək səviyyədə yazılmalıdır".

H.Əliyev qurultaydakı nitqində M. Füzulinin qəbrinin bərpası məsələsini bütün kəskinliyi ilə açıq şəkildə qaldırmağı yazıçılara tövsiyə etdi. Füzulinin məzarının vəziyyəti barədə danışan şair Bəxtiyar Vahabzadəyə müraciətlə H.Əliyev deyirdi: "Bir neçə il bundan qabaq bizə məlum oldu ki, Kərbəlada Füzulinin qəbrini doğrudan söküblər və onun sümüklərini bir qutuya yığıb hansı bir məscidin zirzəmisində saxlayırlar. Biz öyrəndik ki, həqiqətən oranı söküblər, bu, plana düşübdür, başqa bir yerdə qəbri bərpa edəcəklər. Biz dövlət orqanları vasitəsi ilə müəyyən tədbirlər gördük. Bilirsinizmi, İraq hökuməti ilə bizim hökumət arasında müəyyən mürəkkəbliklər vardır. Mərkəzi Komitədə belə məsləhət gördük ki, əgər bu işə bizim elm xadimlərimiz, yazıçılarımız, dünyada tanınmış adamlarımız qarışsalar bu məsələni həll edərik. Dövlət xətti ilə yox. Bilirsiniz ki, Füzuli sovet vətəndaşı deyil. Füzuli bizim Azərbaycan şairidir. Ancaq yazıb-yaradıb və vəfat edibdir İraqda. Bu məsələni ayrı-ayrı alimlər vasitəsilə daha tez həll etmək olar. Ancaq burada S. Rüstəm, M.İbrahimov və Sizə öz narazılığımızı bildiririk. Heç bir yoldaş bu sahədə ürəklə, can-başla, patriotik hisslərlə çalışmır. H.Araslı məktub yazıb, İraq konsulu deyib ki, baxarıq. Həqiqətən bunu istəyirsənsə, gedib o konsulun boğazından tut və de ki, Füzuli mənimdir. Füzuli mənim tarixim, Füzuli mənim mənliyimdir. Siz niyə bu işə belə yanaşırsınız? Əgər siz belə bir iş tutsanız, heç kim sizi tutmaz. Niyə indiyə kimi İraq prezidentinə məktub yazmamısınız? Əgər Süleyman Rüstəm belə bir məktub yazsa, İraq prezidenti onu həbs edəcək?"

H.Əliyev daha sonra üzünü M.İbrahimova tutaraq "Sizi Ümumittifaq Asiya və Afrika xalqları ilə həmrəylik təşkilatının sədri kimi böyük bir vəzifəyə qoymuşuq, bundan böyük daha nə istəyirsiniz" deyir və təşkilatın sədri kimi ona bu məsələ barədə YUNESKO-ya, BMT-yə məktublar yazmağı tövsiyə edirdi. O, açıq şəkildə bildirirdi: "Bu işlərdə siz patriotizm

hisslərinizi axıra çatdırmağa nail ola bilmirsiniz. Bu ümumi işlərdə siz istədiyiniz qədər ürəkdən çalışmalısınız. Danışmağa böyük ustalığınız vardır. Hətta Bəxtiyar Vahabzadə məclislərdə oturub Azərbaycan xalqının həyatı haqqında danışır. Bu işlərdə çalışmağı yoxdur. Bu barədə başqa qardaş respublikalardan dərs almaq, öyrənmək lazımdır. Yenə deyirəm, əgər bizim mədəniyyətimiz, tariximiz üçün siz belə hərəkətlər edərək müəyyən qədər cızığınızdan çıxsanız, qorxmayın... bizim respublikamızda heç vaxt, heç kimdən sizə xəta toxunmaz. Çünki bu, xalq mədəniyyəti üçündür. Bizim respublikamız üçündür".

Göründüyü kimi, H.Əliyev yazıçı və şairləri ümumxalq mənafeyinə dair məsələlərdə kifayət qədər yekdil olmağa, başqa respublikalardan nümunə götürməyə çağırır, bu problemlə məşğul olan şəxsə xətər toxunmayacağına təminat verir, onları qoruduğunu rəsmi şəkildə bildirir. O, özündən əvvəlki rəhbərlərdən fərqli olaraq Azərbaycan şair və yazıçılarına tam sərbəstlik verir, xalqın problemlərindən yazmağı təşviq və himayə edirdi. Bu, Azərbaycan tarixində, xüsusən sovet tarixində o vaxtadək görünməmiş bir hadisə idi.

H.Əliyevin fikrincə, Füzuli istedad və yüksək sənətkarlıqla səciyyələnən yaradıcılığı ilə milli-coğrafi sərhədlər tanımayan, dünya mədəniyyətinin incisinə çevrilərək xalqlar arasında mənəvi-mədəni əlaqələrin möhkəmləndirilməsində, onların bir-birinə yaxınlaşmasında əvəzsiz rol oynayan bir mütəfəkkir idi. H.Əliyev Füzulini bütün Şərqin böyük korifeyi hesab edirdi.



Camal Rəhimov. "Füzuli. Şəb-i hicran"



Hüseyn Əliyev. "Məhəmməd Füzuli". 1990-cı illər



**İmamverdi Əbilov**
*Filologiya elmləri doktoru, professor*

## Dünənin... sabahın... çağdaş dahisi[1]

*(kitabdan parça)*

1994-cü il sentyabr ayının ikinci həftəsinin axırında dahi Füzulinin 500 illiyi ilə əlaqədar İraqda keçirilən tarixi festivalda mən də iştirak etdim. Yazıçıların, alimlərin, mədəniyyət xadimlərinin böyük bir dəstəsi ilə 2 gecə, 3 gündüz yol keçib Bağdada varid olduq. Anarın, Elçinin, Qabilin, Bəkir Nəbiyevin, Yaşar Qarayevin, Cabir Novruzun, Oqtay Əfəndiyevin, Vaqif Səmədoğlunun, Vasim Məmmədəliyevin, Fərhad Xəlilovun, Çingiz Abdullayevin, Zəlimxan Yaqubun, Qəzənfər Paşayevin, Fikrət Qocanın, Fikrət Sadıqın, Azadə Rüstəmovanın, Nüşabə Araslının, Səmət Əlizadənin, Mailə Muradxanlının, Sabir Əhmədovun, Şahmar Əkbərzadənin, Şamil Qurbanovun, Ayaz Vəfalının, İsrafil İsrafilovun, Vaqif Məmmədovun, Ədalət Vəliyevin, İsa İsmayılzadənin, Arif Abdullazadənin, Vilayət Quliyevin, Teymur Kərimlinin, Gülhüseyn Hüseynoğlunun... doyulmaz söhbətləri ilə uzun yol bizə qısa göründü və biz irfani söhbətlərlə davam edən unudulmaz səfərin sonunda gecənin üfüq qapısını qədim Bağdadda açdıq, Babil qapısına sancılan səhərin şəfəqləri üzümüzə çiləndi... rəsmi mərasimə qədər İbrahim Peyğəmbərin Vətəni – insanlığın ilk şəhər nümunəsi Babildə olduq, beynəlxalq musiqi festivalı nümayəndələrinin sorğularına cavab verdik...

Kərbəlanı ziyarətimiz iki cəhətdən bizi həyəcanlandırırdı. Biz dünyanın ən möhtəşəm ziyarətgahını fəxri şühədamız İmam Hüseynin və ələmdarı Kərbəlanın – Həzrət Abbasın məzarı-şəriflərini ziyarət edəcəkdik, həm də 500 illik ayrılıqdan sonra görüşünə gəldiyimiz ulu babamız Füzulinin məzarını ziyarət edib önündə baş əyəcək, türbəsini öpəcək, torpağından Vətənə – Bakıdakı Füzuli abidəsinin həndəvərinə səpmək üçün götürəcəkdik. Belə də etdik. Amma müşahidəmizdən qaçmayan bəzi lövhələr bizi daxilən ağrıdırdı. Bağdad kimi nəhəng bir şəhərdə yubileyi keçirilən Füzulimizin adına bir küçəyə, bir dalana belə rast gəlmirdik. İraq Füzuli yubileyindən bixəbərə oxşayırdı. Yubileyin rəsmi hissəsinin keçirildiyi nəhəng salonun baş tərəfində də dahi şairimizin məlum tablosunu aradıq, fəqət tapa bilmədik. Aşkar hiss olunurdu ki, İraq hökuməti tədbirin əhəmiyyətini nəzərə alıb tələsik tədbirlər görmüş, fəqət biz, şübhəsiz ki, bu tələm-tələsik hazırlıqdan razı qalmadıq. İmam Hüseyn (ə) ziyarətgahının heyətinə açılan bəzəkli, hündür, enli tağın altından keçərkən sağ tərəfdəki qapını göstərib, "Füzulinin məzarı buradadır" dedilər. İçəri keçdik. Başdaşını əvəz edən və divara hörülmüş firuzəyi kaşı üzərində ərəbcə yazılmış lövhə adı Yer üzünün şeir Tanrısı kimi məşhur olan dahi haqqında yeganə şəhadət idi. "Şair Füzuli əl Bağdadi burada basdırılmışdır. İdraklı şair Məhəmməd İbn Süleyman əl Bağdadi, hansı ki, 900 hicr ilində İraqda anadan olmuşdur. Bu da 1494-cü ilə təsadüf edir. Bağdadda, Hillədə, Kərbəlada və Nəcəfdə – bu şəhərlərin hər birində yaşamışdır. 963-hicri – 1556-cı ildə Kərbəlada vəfat etmişdir". Dualar oxuduq, sinədaşını xatırladan qara mərməri öpdük, şəkillər çəkdirdik. II mərtəbədə nələr yerləşdiyini soruşdum. "Ziyarətgahın kitabxanasıdır" – dedilər. Qalxdım, uzunsov şüşə altındakı qədimdən qədim kitablara, iri həcmli dini kitablara, əlyazmalara həsrətlə baxdım, Füzuli dühasının ətrini duymağa çalışdım... Həm kitabxanada, həm də dahi Füzulinin uyuduğu guşənin içərisində də, xaricində də təmir işinin yenicə tamamlandığı aşkar görünürdü. II mərtəbəni çıxarkən və düşərkən paltarımıza yapışan rəng qəlpələri acı təxminimizə şəhadət verirdi. Deməli, İraq hökuməti uzun illərlə davam edən Füzuliyə biganəliyini gəlişimizlə ört-basdır etməyə çalışsa da, həqiqəti ört-basdır etməyə imkanı olmamışdı. Hər halda, Füzuli, məzarının yeni tərtibatı, burada aparılan geniş bərpa işləri, dahi şairimizə miqyaslı diqqət məntiqi etibarı ilə Heydər Əliyevin

---

[1] İmamverdi Əbilov. Dünənin... sabahın... çağdaş dahisi. Bakı, "Nurlar", 2007, s. 47-56

xidmətlərindən biri hesab olunurdu. İraq hökuməti çox geniş tərkibdə Füzuli pərəstişkarlarını qarşılamalı olmuşdu, festival iştirakçıları isə Prezident H.Əliyevin xeyir-duası ilə Bakıdan Bağdada yola düşmüşdü. Dahi şairimiz isə sağlığında olduğu kimi, 500 ildən sonra da hakimlərin biganəliyini sanki qayğılı baxışlarla seyr edir, yazdıqlarının əbədi yaşayacağına əminliklə şamdan, kağızdan və qələmdən ayrılmırdı... Və nə qədər qəribə olsa da, elə bil uzaq əyyamdan səs eşidildi, qeybdən gələn bu səsin kimə məxsus olduğunu dərhal tanıdım.

*Ey Füzuli, məskənim çün Kərbəladır, şerimin*
*Şöhrəti hər yanda vardır, xalq onun müştaqıdır,*
*Nə qızıldır, nə gümüş, nə ləl, nə mirvaridir,*
*Sadə torpaqdır – fəqət Kərbəla torpağıdır.*

Dahi şairimizin Yaradandan təmənnası yadıma düşür: "Rəva görmə ki, ruhumun quşu bu mülkdən başqa bir diyarı dolaşmaq arzusunda olsun. Axı mən məhz burada – elm cənnətində cəvahir xəzinəsi kəsb etmişəm". Bura Kərbəla idi və biz bu müqəddəs şəhərdə düşündürücü, heyranlıq və idrak dolu bir gün yaşadıq.

Bir gün əvvəl Bağdadın məşhur "Əl-Mənsur" mehmanxanasının geniş salonunda "Füzuli–500" beynəlxalq simpoziumunda iştirak etdik. Həmyerlimiz akademik Vasim Məmmədəliyevin ərəb dilində məruzəsi ərəb alimlərini heyrətə saldı, hətta onun ərəb olmadığına şübhə edənlər oldu... İclas ərəfəsindəki təfsilat isə nümayəndə heyətimizin üzvlərini xeyli məmnun elədi. Salona daxil olmazdan əvvəl qapı ağzında yubandıq. Ərəb füzulişünaslarının hamısı tam gəlməmişdi. Dəhlizin girişində 2-3 nəfərin gəldiyini gördük. Yaxınlaşanda onlardan birini tanıdığımı dedim. Özümüzünkülərdən inanmayanlar oldu. Vasim müəllim xoş bir heyrətlə soruşdu:

– Bu, ərəb dünyasında çox nüfuzlu alimdir, sən hara, o hara? Məşhur Hüseyn Əli Məhfuzu tanıyırsansa, görüşməyin vacibdir. Cavab verməyə macal tapmadım, artıq onlarla üzbəüz idik. Bizimlə görüşdülər, Vasim müəllim ərəb alimi ilə müxtəsər danışıb məni göstərdi. 36 il əvvəl gördüyüm, çöhrəsindən təbəssüm və təmkin yağan Hüseyn Əli Məhfuza azərbaycanca dediklərimi Vasim müəllim tərcümə edirdi:

– Füzulimizin 1958-ci il dekabr ayının 10-da Bakıda – Opera və Balet Teatrında keçirilən təntənəli yubiley gecəsində Sizi də, türk alimi Levend Sirri Agah da, Nazim Hikməti də... dinləmişəm. Sizi dönə-dönə alqışladıq ki, hələ o vaxt – nisbətən cavan çağınızda Füzulinin həyatı, dövrü, yaradıcılığı barədə nə qədər yeni malu-





İsmayıl Məmmədov. Məhəmməd Füzulinin portreti



Əli Minayi. Füzulinin "Ənis ül-qəlb" qəsidəsinə illüstrasiya



matlar eşitdik Sizdən... Sovet dönəmində xarici qonaqlarla ünsiyyət qurmaq zor iş idi. Siz Bakıya Moskvadan gəlmiş, Bağdada da Moskvadan qayıtdınız. İndi gecikmiş təşəkkürlərimi qəbul edin! O, Bakı ilə doğma şəhəri kimi maraqlanırdı. Vasim müəllim tərcümə edirdi:

– 36 yaşlı təşəkkürü tər çiçəklər kimi qəbul edirəm. Sağ olun! Dediyiniz təntənəli qış günündə sonralar ucaldılacaq Füzuli heykəlinin təməl daşını qoyduq. Eşitmişəm, Füzulinin möhtəşəm abidəsi əsl sənət nümunəsi kimi indi orada ucalır.

Ərəb alimi mütəəssir olmuşdu. Həmin gecə məruzə edən Mirzə İbrahimovu soruşdu. Bir il əvvəl vəfat etdiyini söyləyəndə qəmli-qəmli nə isə pıçıldadı. Vasim müəllim yanımızda idi:

– Yer üzünün bütün sakinləri planetin qonağıdır. Təəssüf ki, ərzin əbədi sakini yoxdur. Bakı füsunkar şəhərdir. Xüsusilə Xəzər və onun sahili. Eşitmişəm, sonra xeyli dəyişikliklər olub. Anarxiyaya bənzəyən dövrdən də xəbərim olub. Amma liderinizin dəmir iradəsindən də xəbərdaram, çox eşitmişəm. Bilirsiniz, xalq seçdiyi qəhrəmanlar haqqında dastanlar yaradır, bəzən də inamın, məhəbbətin ifadəsi olan əfsanələr ortaya qoyar. Sizin Əliyev haqqında lap çox eşitmişəm. Onun iradəsi, qətiyyəti, uzaqgörənliyi haqqında. Görüşsəniz, mənim salamlarımı yetirin, lütfən. Deyin ki, qədim İraq torpağında onu sevənlər çoxdur, biri də mən.

– Biz də Sizi unutmamışıq, professor.

Mən ona 1958-ci ildə keçirilən təntənəli yubiley gecəsində Kabil Universitetinin professoru Xəlilullah Xəlili, İran ədəbiyyatşünası M.Fəridani, tacik şairi Əbdüssəlam Dahoti, gürcü Şenqaliya, moldavan şairi Busuyok, rus Qorbunov kimi görkəmli adamların çıxış etdiyini xatırlatdım.

Lakin London, Qahirə, Tehran akademiyalarının akademiki Hüseyn Əli Məhfuzun necə böyük məhəbbətlə qarşılandığını, yəqin ki, unutmamışsınız. Şərəfli alim ömrünün bəhrəli illərini dahi Füzuliyə həsr eləmiş möhtəşəm alimi – Sizi sadəcə alqışlamadıq, qiyabi olaraq bağrımıza basdıq. Çünki Siz Füzulinin uyuduğu torpaqdan gəlmişdiniz. Bakıya Füzuli ruhu gətirmişdiniz.

Professor mənimlə təkrar görüşdü, gülə-gülə nəsə deyib bizdən ayrıldı.

– Yaddaşına əhsən söyləyir Hüseyn Əli Məhfuz.

Bu sözləri boynuma sarılıb deyən Vasim müəllim idi. Sentyabrın üçüncü həftəsində Bağdad valisi şərəfimizə təmtəraqlı mərasim təşkil elədi və uzaq Dəclə sahilində Füzulinin poetik aləmi dünyanın irfan məclisi kimi yadımızda qaldı. Hamımız mehmanxanaya xoş ovqatla qayıtdıq və Füzuli babamızın ruhuna dünyəvi



hörmətdən heyran-heyran danışdıq. Anar özünəxas təmkinlə qitədən-qitəyə yayılan şöhrətin sahibi ilə bu şöhrəti dalğa-dalğa ölkədən-ölkəyə ötürən yüksək səlahiyyət sahiblərinin zəhməti arasında oxşarlıq görürdü. O, təxminən ay yarım əvvəl dahi şairin yubileyini keçirən Dövlət Komissiyasının iclasında Heydər Əliyevin dediyi müdrik proqram-göstərişləri xatırladı:

"Elmimizlə, mədəniyyətimizlə, mənəviyyatımızla çox ehtiyatlı, çox diqqətli davranmaq lazımdır. Bu işləri bazar iqtisadiyyatının ixtiyarına vermək olmaz. Gərək Füzulinin yubileyini elə hazırlayıb keçirək ki, xalqımız mənəvi irsimizə, mədəni, milli irsimizə böyük hörmət bəslədiyimizin şahidi olsun. Biz Füzuli kimi dahilərin yaradıcılığından bəhrələnərək mədəniyyətimizin yeni böyük abidələrini yaratmalıyıq".

Nəcəfqulu İsmayılov. "Məhəmməd Füzulinin portreti". 1960-cı illər

**Tərlan Novruzov**
*Filologiya elmləri doktoru, professor*



## Heydər Əliyev və klassik ədəbi irs[1]

*(kitabdan parça)*

Heydər Əliyevə qədər klassiklərin yubiley mərasimlərinə sadəcə ədəbi tədbir keçirmək kimi, çox soyuq və rəsmi dövlət planı kimi baxılırdı. Heydər Əliyevin rəhbərliyi dövründə isə bu tədbirlər ümumxalq işinə, klassik irsin yenidən dərki prosesinə çevrildi. Keçirilən bu və ya digər yubiley tədbirləri əsrlərin arxasından – istər Nizamini, Xaqanini, istərsə də Füzulini xalqın qəlbində yenidən canlandırdı, onların təkcə ictimaiyyət, ziyalılar, oxumuşlar zümrəsi deyil, bütün adi xalq kütlələri tərəfindən yenidən, tamamilə başqa bir ölçüdə tanınmasına, yaradıcılıqlarının geniş bir çərçivədə təbliğ olunmasına şərait yaratdı.

Heydər Əliyev bu yubiley tədbirlərinə xüsusi əhəmiyyət verir, onların geniş, dünya miqyasında keçirilməsinə çalışırdı və bunun ictimai-sosial, tarixi, ədəbi-mədəni mahiyyətini böyük estetik meyar və prinsiplərlə izah edirdi: "Füzulini ən əvvəl öz ölkəmizdə daim təbliğ etmək lazımdır. Bizim xalqımız, xüsusən gənc nəsil, yeni həyata qədəm qoyanlar Füzulini nə qədər oxusalar, dərk etsələr, onun yaradıcılığı ilə yaxından tanış olsalar, Füzuli şəxsiyyətinin böyüklüyünü hiss etsələr, adamları-

[1] Tərlan Novruzov. Heydər Əliyev və ədəbiyyat məsələləri. Bakı. 2007, s. 30–33



Əmir Hacıyev. Məhəmməd Füzulinin portreti. 1950-ci illər



mız bir o qədər saf mənəviyyat istiqamətində yaşayacaq və həyatlarını da bu ruhda quracaqlar. Çünki Füzulinin həyatı da, bütün yaradıcılığı da həm yüksək mənəviyyat, həm də insanlara mənəvi, estetik qida verən böyük bir mənbədir".

Bu fikir klassiklərin yubileylərinin millətə, xalqa nəyi verəcəyinin, müasirlərə, indiki həyata necə təsir göstərəcəyinin sübutudur. Heydər Əliyev fikrini inkişaf etdirərək problemə ikinci bir aspektdən yanaşır, diqqəti onun daha böyük əhəmiyyətinə cəlb edir: "Tarixi şəxsiyyətlərin yubileylərinin keçirilməsi bir tərəfdən onların, millət qarşısında xidmətlərinə verilən qiymətdir. Bu, lazımdır, özü də mütləq lazımdır. Digər tərəfdən isə, belə yubileylərin keçirilməsi xalqın, millətin zənginliyini nümayiş etdirir. Eyni zamanda, bu yubileylər xalqın, millətin daha da, yüksəlməsinə kömək edir".

Beləliklə, Heydər Əliyev bu mühüm ədəbiyyat işinə ümumdövlət, ümumxalq, millət mənafeyi mövqeyindən yanaşır, onu dəyərləndirir, həm klassik irsin əhəmiyyətini, milli-əxlaqi dəyərini üzə çıxarır, ona mədəni-fəlsəfi münasibəti formalaşdırır, həm də beynəlxalq miqyasda millətin – Azərbaycan xalqının nə kimi bir mədəniyyətə, ədəbiyyata malik olduğunu nümayiş etdirir, dostları sevindirir, düşmənlərə isə zərbə endirir: "Bir daha qeyd edirəm, bu yubileylərin keçirilməsində məqsəd həmin şəxslərin özlərinin yada salınmasından çox, xalqın elminin, mədəniyyətinin, mənəviyyatının zənginliyini nümayiş etdirməkdir və indiki nəslə, gələcək nəsillərə onlardan daha faydalı istifadə etmək üçün imkan yaratmaqdır".

Bu imkan nədən ibarət idi?

Bu imkan ondan ibarət idi ki, bütün mədəniyyət sahələrinin, incəsənət istiqamətlərinin əsas resursları bu məqsədə yönəldilirdi. Yubileyi keçirilən klassikin əsərləri külliyyatının yeni, daha təkmilləşdirilmiş nəşrləri çap olunur. Elmi araşdırmaların nəticələri dərc edilib kütləviləşdirilirdi. Əsərləri əsasında yeni teatr, kino və televiziya tamaşaları nümayiş etdirilir, musiqilər, mahnılar yazılır, küçələrə adları verilir, heykəlləri qoyulur, bukletlər tərtib olunur, rəsm və digər incəsənət əsərləri yaradılırdı.

Bütün bu qlobal, əhatəli, böyük maddi xərc hesabına başa gələn tədbirlərin mənəvi-milli mahiyyəti Heydər Əliyevin müdrik baxımında belə əks olunurdu: "Biz Füzuli ilə fəxr edirik. Məsələn. biz millətimizdən danışarkən deyirik ki, 500 il bundan öncə yaşamış azərbaycanlı Füzuli dünya mədəniyyəti xəzinəsinə öz böyük

töhfələrini veribdir. Ona görə də biz yubileyi elə keçirməliyik ki, bu tədbir təkcə Azərbaycanda deyil, Türkiyədə də, İranda da, İraqda da, Moskvada da, Dərbənddə də, bir sözlə, hər yerdə böyük iftixar hissi doğursun. Məhz Füzulinin yaradıcılığı və əsərləri ilə göstəririk ki, xalqımız hansı zənginliyə, hansı mədəniyyətə, hansı mənəviyyata, hansı elmə malikdir.

Ona görə də təkcə Füzulinin deyil, həm də Azərbaycanın digər böyük və tarixi şəxsiyyətlərinin yubileylərinin keçirilməsi ümumxalq tədbirləridir. Mən həmin məsələlərə daim bu mövqedən yanaşmışam və əvvəllər də, indi də belə yubileyləri keçirərkən həmişə çalışmışam ki, onlar yüksək səviyyədə olsun. Çünki bu yubileylər, eyni zamanda xalqımızı yüksəldir".

Müstəqillik dövründə isə respublika prezidenti kimi, klassik irsə münasibətdə Heydər Əliyevin baxışları yeni keyfiyyət səviyyəsinə yüksəldi, baxış bucağı daha da dərinləşdi və genişləndi, ümumtürk kontekstində ortaya çıxdı, Füzuli təkcə Azərbaycan ədəbiyyatı hadisəsi yox, ümumtürk mədəniyyəti hadisəsi, sonda da ümumdünya mədəniyyəti hadisəsi kimi qiymətləndirildi. Heydər Əliyev Türkiyə Böyük Millət Məclisində çıxış edərkən bu mühüm tarixi problemə belə şərh vermişdi: "Füzuli keçmişdə də türkləri birləşdirən bir şəxsiyyət olmuşdur. Amma indi, türk dünyası XX əsrdə parçalanmış olduğu bir halda, türk dünyasına mənsub ölkələrin, demək olar ki, tam əksəriyyətinin (bir Türkiyədən savayı) onların həyatına, tarixinə, adət-ənənəsinə uyğun olmayan rejimlər içərisində yaşadığı vaxtda Füzuli bizi yaşadaraq bu günlərə gətirib çıxarmışdır. Bu gün biz həm Azərbaycanda, həm Füzulinin doğulduğu yerdə – Kərbəlada, Bağdadda, həm Ankarada, Türkiyədə Füzulinin 500 illiyini qeyd edərkən, artıq keçmişdəki kimi parçalanmış vəziyyətdə deyilik... Füzuli yubileyi təkcə Füzulinin şəxsiyyətinə, onun yaradıcılığına verilən qiymət deyildir. Füzuli yubileyi xalqımızın birləşdirilməsinə, yaxınlaşmasına, gələcəkdə bir yolla əzmlə getməsinə şərait yaradan böyük bir hadisədir".

Lakin Heydər Əliyev bu ümumtürk kontekstini qeyd etməklə yanaşı, böyük ideoloq-kulturoloq kimi məsələyə həssas yanaşır. Füzuli şəxsiyyətinin ümumdünya şöhrətini qeyd etməklə, yenə də onun Azərbaycanın milli hadisəsi olduğu məqama qayıdır: "Füzuli təkcə Şərqdə yox, müsəlman aləmində, təkcə Türk dünyasında deyil, bütün dünyada, o cümlədən inkişaf etmiş Qərb ölkələrində də çox



məşhur olmuşdur. Amma Azərbaycan xalqı üçün, bizim üçün Füzuli dahi olmuş, sevilmiş, xüsusilə son əsrdə daha yüksək zirvələrə qaldırılmışdır".

Bu fikir və mülahizə ondan irəli gəlirdi ki, Heydər Əliyev özünün təsdiq etdiyi kimi, qəti əmindir ki, Füzuli Azərbaycan türküdür, azərbaycanlıdır: "Füzuli dahi şair kimi Azərbaycanda həmişə hamının qəlbindədir. Bu da onu göstərir ki, Füzuli, doğrudan da, azərbaycanlıdır və Azərbaycana mənsubdur".

Bu, klassik irsə münasibətin yeni mərhələsi, başqa sözlə, Heydər Əliyev mərhələsi idi. Klassik irs, ədəbi-mədəni irs onun nəzərində ümumxalq, ümumdövlət, ümummilli dəyərlər qismində idi. Ağılın, dərrakənin, düşüncənin, milli səviyyənin dəyərləri onun üçün olduqca qiymətli və əziz idi, hər bir maddi dəyərdən üstün idi...



Azad Əliyev. "Məhəmməd Füzuli". 1990-cı illər



**Elnarə Akimova**
*Filologiya elmləri doktoru*

# Heydər Əliyevin Füzuli mücadiləsi – "Sorun kim, bu nə sevdadır..."

*"Füzuli mənim tarixim,*
*Füzuli mənim mənliyimdir"*
***Heydər Əliyev***

Böyük şairimiz Məhəmməd Füzuli ilə bağlı Heydər Əliyevin qatlaşdığı çətinliklər və bu istiqamətdə əzmkar fəaliyyəti onun xalqın dəyərlərinə, şəxsiyyətlərinə layiqincə sahib çıxmaq mədəniyyətinin əyani göstəricisidir. Bu barədə çoxsaylı nümunələr gətirmək mümkündür, amma məhz Füzuli məqamı, dahi şairin qəbrinin qorunması və məqbərəsinin tikilməsi ilə bağlı gördüyü çoxyönlü işlər Ümummilli Liderdən hər cür yüksək məzmunda danışmağa əsas verən amildir. Bu barədə geniş məlumatı Musa Qasımlının "Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər)" kitabında oxuyuruq: "Heydər Əliyev hakimiyyətə gəldikdən sonra MK-nın beynəlxalq əlaqələr şöbəsinin müdirinə Məhəmməd Füzuliyə İraqın Kərbəla şəhərində məqbərə tikilməsi imkanlarını öyrənmək barədə tapşırıq vermişdir. Sov. İKP MK-nın müvafiq şöbəsi ilə məsələni müzakirə edən şöbə müdiri, Heydər Əliyevə 1977-ci il 2 sentyabr tarixli geniş arayış təqdim etmişdir. Arayışda deyilirdi: "Sizin tapşırığınıza əsasən böyük Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin məqbərəsinin Kərbəlada tikilməsi mümkünlüyü haqqında məsələ öyrənilmişdir..."



Məlum olur ki, İraqın əlverişsiz daxili vəziyyəti ucbatından Füzulinin məzarının tikintisi məsələsini İraq hökuməti qarşısında qaldırmaq üçün şərait uyğunsuzdur. Bundan sonra Heydər Əliyevin təklifi ilə məsələnin həllinə Azərbaycanın Xarici İşlər Nazirliyi və Elmlər Akademiyası cəlb edilmişdir. Məsələ SSRİ XİN qarşısında qaldırılmışdır. Lakin SSRİ Xarici İşlər Nazirliyinin Yaxın Şərq şöbəsinin müdiri, nazirliyin kollegiya üzvü Sıtenko Sovet İttifaqının Bağdaddakı səfirinə istinadən Füzulinin məzarının bərpası fikrindən vaz keçməyi tövsiyə etmişdir. Motiv yenə də eyni idi: əlverişsiz siyasi şərait. Bundan sonra Heydər Əliyevin tövsiyəsinə uyğun olaraq Azərbaycan Elmlər Akademiyasının prezidenti Həsən Abdullayev İraqın Bakıdakı baş konsulu Ədnan Qaydan Məhəmmədlə görüşərək Azərbaycan ictimaiyyəti və alimləri adından məsələnin müsbət həll olunması üçün hökuməti qarşısında vəsatət qaldırmasını xahiş etmişdir. Məsələni araşdıran İraq konsulu 1976-cı il iyul ayının 21-də Azərbaycanın Xarici İşlər Nazirliyinə cavab notası göndərmişdir. Notada deyilirdi: "İraq prezidenti dəftərxanasının rəhbərliyi bildirir ki, İraq ərazisində dəfn olunduğundan, şair Füzulinin mavzoleyinin bərpası üçün hökumət məsuliyyət daşıyacaqdır".

Notadan aydın olurdu ki, diplomatik kanallarla məsələnin həllinə cəhd edilməsi artıq heç bir nəticə verməyəcək. Çünki İraqın baş konsulu hökumətində kifayət qədər nüfuz sahibi idi və BƏƏS partiyasının rəhbər dairələri ilə sıx əlaqələr saxlayırdı. Onun fikri məsələnin həlli barədə İraq hökumətinin yekun rəyi kimi də qəbul edilə bilərdi. Bütün bunlara baxmayaraq, Heydər Əliyev bu istiqamətdəki fəaliyyətini inadla davam etdirirdi. Onun təklifi ilə füzulişünasların beynəlxalq simpoziumlarının keçirilməsinə təşəbbüs edildi və buna uğurla nail olundu. Bu isə məsələnin unudulmadığını, Azərbaycan tərəfini daim narahat etdiyini göstərirdi. Heydər Əliyev İraqdan SSRİ-yə gələn müxtəlif səviyyəli nümayəndə heyətləri qarşısında həmin məsələni cəsarətlə qaldıraraq həllinə çalışırdı. Dövlətlərarası münasibətlərdə Heydər Əliyev Azərbaycan şair və yazıçılarının diqqətini həmin məsələyə cəlb edərək məqsədə çatmaq üçün əlindən gələni edirdi. O, məsələnin müzakirəsini hətta yazıçıların VII qurultayında da qaldıraraq nəinki ziyalıları, həmçinin ictimaiyyəti agah etdi.

Qeyd etmək lazımdır ki, Heydər Əliyev qurultay ərəfəsində Azərbaycan yazıçılarına böyük bir hədiyyə verdi. Onun Azərbaycan ədəbiyyatına və ədəbi irsə münasibətinin, qayğısının daha bir təzahürü yazıçılar üçün Xəzər dənizi sahilində – Şüvəlanda Yaradıcılıq evinin istifadəyə



Davud Kazımov. "Füzuli qələm-kağızı ilə baş-başa". 1950-ci illər



verilməsi oldu. Heydər Əliyev nitqində ədəbiyyatın qayğısına qalan, bütün buxovları, əngəlləri qıraraq nəinki yazıçıların himayəçisi olduğunu göstərir, eyni zamanda onları xalqı düşündürən Cənubi Azərbaycan məsələsindən, tarixdə mühüm rol oynamış ziyalılardan yazmağa, tarixi romanlar yaratmağa, Məhəmməd Füzulinin məqbərəsinin keşiyində durmağa, qorxmamağa, çəkinməməyə səsləyirdi. O deyirdi: "...milli mədəniyyətimiz dirçəlmişdir", "Azərbaycanın yaradıcı ziyalılarının xoşbəxt taleyi onların xalqla qırılmaz birliyindədir, xalq mənafeyinə fədakarlıqla xidmət etmələrindədir", "poeziyamız Azərbaycan klassik lirikasının ən yaxşı ənənələrini davam etdirərək, fəal vətəndaşlıq mövqeyində dayanmaqdadır". O, daha sonra qeyd edirdi: "Nizaminin və Füzulinin, Xaqaninin və Nəsiminin, Axundovun və Məmmədquluzadənin, Üzeyir Hacıbəyovun və Məmməd Səid Ordubadinin vətəni öz müasir yazıçılarından və şairlərindən parlaq tarixi əsərlər gözləyir, Azərbaycan tarixinin, mədəniyyət və elminin görkəmli xadimlərinin bədii obrazlarını gözləyir", "...tarixi simaların obrazları yaradılan və tariximizin mühüm dövrləri tərənnüm olunan ədəbi əsərlər ən yüksək səviyyədə yazılmalıdır".

Heydər Əliyev qurultaydakı nitqində Məhəmməd Füzulinin qəbrinin bərpası məsələsini bütün kəskinliyi ilə açıq şəkildə qaldırmağı yazıçılara tövsiyə etmişdir. Füzulinin məzarının vəziyyəti barədə danışan şair Bəxtiyar Vahabzadəyə müraciətlə Heydər Əliyev deyirdi: "Bir neçə il bundan qabaq bizə məlum oldu ki, Kərbəlada Füzulinin qəbrini doğrudan söküblər və onun sümüklərini bir qutuya yığıb hansısa bir məscidin zirzəmisində saxlayırlar. Biz öyrəndik ki, həqiqətən oranı söküblər, bu, plana düşübdür, başqa bir yerdə qəbri bərpa edəcəklər. Biz dövlət orqanları vasitəsilə müəyyən tədbirlər gördük. Bilirsinizmi, İraq hökuməti ilə bizim hökumət arasında müəyyən mürəkkəbliklər vardır. Mərkəzi Komitədə belə məsləhət gördük ki, əgər bu işə bizim elm xadimlərimiz, yazıçılarımız, dünyada tanınmış adamlarımız qarışsalar, bu məsələni həll edərik. Dövlət xətti ilə yox. Bilirsiniz ki, Füzuli sovet vətəndaşı deyil. Füzuli bizim Azərbaycan şairidir. Ancaq yazıb-yaradıb və İraqda vəfat edibdir. Bu məsələni ayrı-ayrı alimlər vasitəsilə daha tez həll etmək olar. Ancaq burada Süleyman Rüstəm, Mirzə İbrahimov və sizə öz narazılığımızı bildiririk. Heç bir yoldaş bu sahədə ürəklə, can-başla, patriotik hisslərlə çalışmır. Həmid Araslı məktub yazıb, İraq konsulu deyib ki, baxarıq. Həqiqətən bunu istəyirsənsə, gedib o konsulun boğazından tut və de ki, Füzuli mənimdir. Füzuli mənim tarixim, Füzuli mənim mənliyimdir. Siz niyə bu işə belə yanaşırsınız? Əgər siz belə

bir iş tutsanız, heç kim sizi tutmaz. Niyə indiyə kimi İraq prezidentinə məktub yazmamısınız? Əgər Süleyman Rüstəm belə bir məktub yazsa, İraq prezidenti onu həbs edəcək?"

Heydər Əliyev daha sonra üzünü Mirzə İbrahimova tutaraq: "Sizi Ümumittifaq Asiya və Afrika Xalqları həmrəyliyi Komitəsinin sədri kimi böyük bir vəzifəyə qoymuşuq, bundan böyük daha nə istəyirsiniz", – deyir və təşkilatın sədri kimi ona bu məsələ barədə YUNESKO-ya və BMT-yə məktublar yazmağı tövsiyə edirdi. O, açıq şəkildə bildirirdi: "Bu işlərdə siz patriotizm hisslərinizi axıra çatdırmağa nail ola bilmirsiniz. Bu ümumi işlərdə siz istədiyiniz qədər ürəkdən çalışmalısınız. Danışmağa böyük ustalığınız vardır. Hətta Bəxtiyar Vahabzadə məclislərdə oturub Azərbaycan xalqının həyatı haqqında danışır. Bu işlərdə çalışmağı yoxdur. Bu barədə başqa qardaş respublikalardan dərs almaq, öyrənmək lazımdır. Yenə deyirəm, əgər bizim mədəniyyətimiz, tariximiz üçün siz belə hərəkətlər edərək müəyyən qədər cızığınızdan çıxsanız, qorxmayın... bizim respublikamızda heç vaxt, heç kimdən sizə xəta toxunmaz. Çünki bu, xalq mədəniyyəti üçündür. Bizim respublikamız üçündür".

Ədəbiyyatşünas alim İmamverdi Əbilovun "Dünənin... sabahın... çağdaş dahisi" kitabında Heydər Əliyevin Füzuli ilə bağlı həssas yanaşmalarına aid belə bir epizod yer alır. Bu epizod Heydər Əliyevin klassik irsimizə, poeziyaya, sənətə, sənətkara verdiyi dəyərin ən uca vurğusudur: "...Azərbaycan Yazıçılarının 1981-ci ilin iyununda keçirilən VII qurultayında... Abbas Zamanov tribunaya qalxmadan qurultaya bəyan elədi ki, İraq hökuməti Kərbəlada yeni yol çəkilişi ilə əlaqədar Füzulinin bu şəhərdəki məzarını söküb yerini dəyişir. Abbas Zamanov birbaşa Heydər Əliyevə müraciət etdi:

– Füzulinin cəsədini gətirmək lazımsa, icazə verilsin, Kərbəlaya piyada getməyi özümə şərəf bilərəm. Axı dahi Füzuliyə belə münasibət milli mədəniyyətimizə təhqirdir.

Alimi diqqətlə dinləyən Heydər Əliyev ayağa qalxdı və Füzuli şəxsiyyəti, sənəti haqqında elə yanğı ilə danışdı ki, hamımız heyran qaldıq. Bu mükalimədə məhəbbət, giley, məzəmmət, tələb, qürur və təəssüf hissinin ilıq vəhdəti vardı... Həmin gün ölkə rəhbərinin Füzuliyə hüdudsuz məhəbbəti bədii dünyamızı təmsil edən söz-sənət adamları üçün də ibrət nümunəsinə döndü:

– Yəqin bilirsiniz ki, İraq – Sovet münasibətləri istəyimizcə deyil. Füzuliyə İraq hökumətinin belə münasibətini indicə Abbas müəllimdən eşitdim. Bilirsiniz ki, Siyasi Büro qarşısında cavabdeh bir şəxs kimi mənim bu məsələyə birbaşa





Mikayl Abdullayev. "Məhəmməd Füzuli hücrəsində". 1950-ci illər

müdaxiləm arzuolunmaz nəticələr verə bilər. Mənim sözüm, iradım, tələbim, ilk növbədə, sizlərə aiddir. Mirzə müəllim (Mirzə İbrahimov – E.A.), siz ədəbiyyatımızın ağsaqqalısınız, 70 yaşlı yazıçı, siyasi xadim, nəhayət, Asiya və Afrika Ölkələri ilə Həmrəylik Komitəsinin sədri kimi siz İraq hökumətinə bu barədə müraciət etmisinizmi? Yox, təəssüf ki, yox! Süleyman Rüstəm bu məsələyə biganə qalmağa haqlı deyil. Həmid müəllim (Həmid Araslı – E.A.) sizdən soruşuram: Füzulini tədqiq edən görkəmli akademik kimi, bu sahədə gördüyünüz işlərdən danışa bilərsinizmi? Bəxtiyar Vahabzadə bir sıra gözəl əsərləri ilə bahəm Füzuli haqqında dəyərli bir poema yazıb. Hamınızdan soruşuram: Füzulinin bugünkü taleyi ilə bağlı gördüyünüz praktiki işlərdən məlumat verə bilərsinizmi? Şübhəsiz, yox! Sizin ciddi marağınız, humanist tələb kimi diplomatik münasibətlərdə də təbii qarşılanardı. İraq Dövlətinin konsulu Bakının mərkəzindədir. Hansı biriniz Füzuliyə belə laqeyd münasibətin günah olduğunu konsula xatırladıb onu məzəmmət etmişsiniz? Belə hallarda sizi qorumasaydım, gileylənməyə haqqınız olardı..." Salondakı mənalı sükutu indi də xatırlayıram. Respublika rəhbərinin daim rus dilində çıxışlarına alışdığından, həm də mütləq Moskvaya gedəcək qurultay protokollarının ehtiyatlı tərtibinin labüdlüyünə inandıqlarından Heydər Əliyevin çıxış və replikaları nümayəndələri yaxşı mənada heyrətləndirmişdir.

...Heydər Əliyevin məntiqlə aşılanmış səlis danışığını, cazibədar nitqlərini bu vaxtadək eşitməyənlər üçün bu, həqiqətən, əsl yenilik idi. Qurultayın axşam iclasında Heydər Əliyev xoş xəbərlə hamımızı müjdələdi:

– Tənəffüs vaxtı mən Moskvaya – İraq Səfirliyinə zəng etdim, səfirdən bu məsələyə aydınlıq gətirməsini xahiş elədim. Az keçmədi ki, səfir mənə məlumat verdi ki, müqəddəs məscidin əhatəsində restavrasiya işi aparılır. Füzulinin nəşinin qalıqları çox böyük ehtiyatla yığılıb mötəbər yerdə saxlanılır. İş tamamlandıqdan sonra o, Kərbəlanın ən müqəddəs guşəsində dəfn olunacaq".

Heydər Əliyev başladığı, həyata keçirilməsinə qərar verdiyi işləri sona çatdırmağı bacarırdı. Bunun üçün bütün sözü, izi və adı keçən instansiyaları səfərbər edir, müsbət yöndə nəticə əldə edənə qədər vuruşurdu. Qənaətimizdə israrlıyıq: siyasətdə bacarıq və təcrübənin, eləcə də dünyada nüfuz sahibi olmağın önəmi nədir, bunu Heydər Əliyevin şəxsində, simasında, yaradıcı fəaliyyətində dərindən bilib dərk etmiş olduq.

*"Yeni Azərbaycan" qəzeti*
*14 aprel 2023*





**Salatın Əhmədova**
*Filologiya üzrə fəlsəfə doktoru*

## Heydər Əliyev zəkası və Füzuli dühası

Azərbaycan klassik bədii ədəbiyyatı hər zaman Ümummilli Lider Heydər Əliyevin diqqət mərkəzində olub. O ən çətin dövlət vəzifələrini icra edəndə də, ağır diplomatik missiyaları yerinə yetirəndə də həmişə klassiklərlə maraqlanıb, onların ədəbi-tarixi əhəmiyyətini ön plana çəkib. Elə buna görə də "Klassik irsimizə, klassik ədəbiyyatımıza və onun nümayəndələrinə böyük diqqət və qayğı göstərən, bu ədəbiyyatın ictimai inkişafda, yeni insan tərbiyəsində oynadığı rolu yüksək qiymətləndirən və buna görə də onların sənətinin ölməzliyinin qarantı kimi çıxış edən Heydər Əliyevin özü də klassiklərin cərgəsinə daxil olmuş, onlar kimi ölməzlik qazanmışdır" ("Heydər Əliyev və Azərbaycan ədəbiyyatı". B.,"Şərq-Qərb" 2009. s.203). Olduqca dəqiq mülahizədir. H.Əliyevin klassik irs təlimində dahi qəlb şairi Məhəmməd Füzuli xüsusi yer tutur. Şairin 1994-cü ildə tamamlanan 500 illiyini dünya miqyasında ədəbi hadisə kimi qeyd etmək uğrunda fəal çalışan qüdrətli lider 1996-cı ilə kimi dəfələrlə şairin yaradıcılığına müraciət etmiş, böyük bir monoqrafiya yazmağa imkan verən fikirlər söyləmişdir. H.Əliyev Füzulinin ədəbi-tarixi mövqeyinə və bənzərsiz poeziyasına ümumtürk və bir çox hallarda ümumbəşəri kontekstdə yanaşırdı.

Füzuli yubileyinin keçirilməsi günləri



Rəsul Rza. Füzulini portreti



Azərbaycanda mürəkkəb ictimai-tarixi dövrə təsadüf edir. Heydər Əliyev Füzuli yubileyinin keçirilməsinə böyük önəm verərək bu tədbiri "Azərbaycan xalqını dünyaya bir daha tanıtmaq hadisəsi" kimi qiymətləndirirdi: "Respublikamızın bu ağır dövründə böyük yubileylər keçirilməsi, şübhəsiz ki, müəyyən qədər çətinliklərlə üzləşəcək. Ancaq bunlara baxmayaraq, həyatımızın mənəvi sahəsi heç vaxt unudulmamalıdır. Çətinliklər nə qədər çox olsa da, mədəniyyətə, mədəni irsimizə, mənəviyyata daim xüsusi diqqət yetirməli və bu sahələrin geri qalmasına yol verməməliyik.

Dahi Füzulinin 500 illik yubileyinin keçirilməsi böyük mütəfəkkir şairin Azərbaycan xalqı qarşısında və bütün türk xalqları, dünya mədəniyyəti qarşısındakı xidmətlərinə verilən qiymətdir".

Heydər Əliyevə görə bu yubiley və ümumən yubileylər xalqların özlərini dünyaya təqdim etmək, bəşəriyyətə tanıtmaq üsuludur. Heç şübhəsiz ki, dahilərin yubileyləri həm də xalqın özünü özünə tanıtmaq forması idi. Hər gələn yeni nəslin mənəvi-tarixi ənənələr ruhunda tərbiyə olunması, formalaşdırılması imkanı idi. Bu həm də bütün dünyaya "Füzuli azərbaycanlıdır" həqiqətini bəyan etmək demək idi. Ulu Öndər deyirdi: "Füzulini dünyaya bir daha tanıtmaqla bağlı nəzərdə tutulan tədbirlər ilk növbədə keçirilməlidir".

Füzulinin şöhrəti Azərbaycanın şöhrəti idi və bu niyyətinə Heydər Əliyev böyük bir əzmlə nail oldu. Ümumi, tarixi-siyasi dəyərlənmələrlə bərabər, mütəfəkkir lider Füzuliyə münasibətin metodoloji meyarlarını, füzulişünaslığın prioritetlərini də təyin edirdi: "Füzulinin ədəbi irsinin öyrənilməsi və təbliği sahəsində işlər yubileydən sonra da davam etdirilməlidir". Bu bir zərərli ənənəyə qarşı söylənilmiş perspektivli fikir idi: adətən, böyük hay-küylə klassiklərin yubileyləri keçirilir. Həqiqətən cahanşümul işlər görülür – klassik irs çap olunur, əcnəbi dillərə az-çox tərcümə edilir, yaradıcılığı haqqında tədqiqat əsərləri – məqalə, kitab və monoqrafiyalar yazılır. Fəqət bütün bu təntənələrdən sonra sanki həmin klassik yenidən tarixin panteonuna yola salınır və onunla bağlı bir məzarlığın sükutu başlanır. Fəqət Azərbaycan ədəbiyyatşünaslıq elmi Füzuli yubileyindən sonra dahi şairə yeni istiqlal metodu ilə yanaşdı, məsələn, mətbuatın qeyd etdiyi kimi G.Əliyeva Kəngərlinin "Azərbaycan füzulişünaslığı" (2007) fundamental monoqrafiyası ilə Azərbaycan füzulişünaslığının ötən mərhələləri yekunlaşdı və yeni mərhələnin əsası qoyuldu. Bu həm də yeni gələn nəsillərə Füzulini tanıtmaq yolunda uğurlu təşəbbüs idi.

Günahı tarixdə görən, hay-küyçü elmə qarşı Heydər Əliyevin söylədiyi bir fikir

də maraq doğurur. Bəzi alimlər nəinki sovet dönəmindəki elmi-nəzəri yanaşmaları, hətta özləri özlərini günahlandıranda Heydər Əliyev müdrikcəsinə demişdi: "Biz hamımız dövrün, zamanənin övladları olduğumuzdan onun stereotiplərindən kənara çıxa bilmirdik. Çıxmağa imkan da yox idi, çünki o zaman yazıçı da, alim də, adi adam da belə hesab edirdi ki, başqa cür ola bilməz. Ona görə də indi kiminsə döşünə döyməsi mənasızdır. Belələrinin özləri də o zaman bu cür yazmışlar. Bu bizim tariximizin reallığıdır. Onu təhrif etmək olmaz... O dövrdə yaşayan və Azərbaycanın mədəniyyətini, ədəbiyyatını inkişaf etdirən adamlara indi irad tutmaq olmaz, bu, günahdır". Hesab edirik ki, bu olduqca düzgün yanaşmadır, belə yanaşma bizim sovet dövrü ədəbi-mədəni irsinin tədqiq metodologiyasının nəzəri əsasında dayanmalıdır. Çünki bu yanaşma tərzində tarixilik prinsipi ciddi surətdə nəzərə alınır. Heydər Əliyev Füzulinin yubileyindən istifadə edib, hələ hazırlıq dövründə bütövlükdə elmimizin, mədəniyyətimizin taleyinə liderə xas sərt və ciddi münasibət bildirirdi. 1994-cü ildə ilk iclaslardan birində teatrın, kinonun vəziyyətindən narazılıq edərək deyirdi: "Şübhəsiz ki, mən bu məsələlərin yoxlanılmasını tapşıracaq və ciddi ölçü götürəcəyəm. Elmimizlə, mədəniyyətimizlə, mənəviyyatımızla çox ehtiyatlı, çox diqqətli davranmaq lazımdır. Bu işləri bazar iqtisadiyyatının ixtiyarına vermək olmaz. Gərək Füzulinin yubileyini elə hazırlayıb keçirək ki, xalqımız mənəvi irsimizə, mədəni, milli irsimizə böyük hörmət bəslədiyimizin şahidi olsun. Biz Füzuli kimi dahilərin yaradıcılığından bəhrələnərək mədəniyyətimizin yeni böyük abidələrini yaratmalıyıq". Tarix Heydər Əliyev zəkasının əzəmətini təsdiq etdi, Füzuli yubileyi həm Azərbaycanda, həm bütün türk-islam aləmində həm də Rusiya və Avropada böyük təntənə ilə keçirildi.

Heydər Əliyev 1994-cü ildə Türkiyənin Bilkənd Universitetindəki çıxışında demişdir: "Bu gün xalqımız üçün böyük bayram günüdür. Türk dünyasının, Azərbaycan xalqının, Türkiyə xalqının, bütün türk xalqlarının böyük şairi, mütəfəkkiri, filosofu Məhəmməd Füzulinin anadan olmasının 500 illiyinin Türkiyədə, Ankarada, bu gözəl Bilkənd Universitetinin sarayında təntənə ilə qeyd edirik".

Heydər Əliyevin ədəbi-tarixi proses konsepsiyasına M.Füzuli "bütün türk xalqlarının böyük şairi" kimi daxil olur və bu tarixən olduqca düzgün qiymətdir. Ulu Öndər Füzuli irsini "Azərbaycan xalqının, türk dünyasının, türk xalqlarının



bu günü və gələcəyi üçün böyük örnək" kimi dəyərləndirirdi.

Ümumiyyətlə, mütəxəssislərin (AMEA -nın müxbir üzvü T.Kərimli və professor V.Quliyev – S.Ə.) belə bir fikri yerinə düşür ki, "klassik ədəbiyyat, Heydər Əliyev üçün, hər şeydən əvvəl, müasirliyi, konkret tarixi situasiyada xalqa mədəni-mənəvi xidmət göstərmək potensialı ilə maraqlı və aktual idi. O, bu tələbi klassik ədəbiyyatın bütün böyük nümayəndələri qarşısında qoyur və özü də onların həmin tələbə yüksək səviyyədə cavab verdiklərini məntiqi dəlillərlə əsaslandırırdı".

Füzulişünaslıq böyük bir elmdir, tarixi dahi Füzulinin özündən başlanır (G.Əliyeva Kəngərli). Bu istiqamətdə Azərbaycan, Türkiyə, Avropa, Orta Asiya, Rusiya... alimləri dəyərli monoqrafiya və kitablar yazıblar. Bu əsərlərin hərəsinin öz məziyyəti, elmi-tarixi rolu var. Lakin Heydər Əliyevin Füzuliyə münasibətin daha orijinal və miqyas etibarilə qlobaldır. Onun konsepsiyasında Füzuli dünyaya Füzuli və türk dünyası müstəvisində təqdim olunur. Orta çağlarda iki nəhəng sənətkar – M.Füzuli və Ə.Nəvai türk xalqlarını inam və iman yeri olmuşlar.

Heydər Əliyev Türkiyə Böyük Millət Məclisindəki çıxışında demişdir: "Füzuli keçmişdə də türkləri birləşdirən bir şəxsiyyət olmuşdur. Amma indi türk dünyası XX əsrdə parçalanmış olduğu bir halda, qədim türk dünyasına mənsub ölkələrin, demək olar ki, tam əksəriyyətini (bir Türkiyədən savayı) onların həyatına, tarixinə, adət-ənənəsinə uyğun olmayan rejimlər içərisində yaşadığı vaxtda Füzuli bizi yaşadaraq bu günlərə gətirib çıxarmışdır".

Deməli, H.Əliyevin Füzuliyə belə böyük önəm verməsinin səbəblərindən biri, bəlkə də, ən başlıcası XX əsrdə parçalanmış türk dünyasını, pərən-pərən düşmüş türk cümhuriyyətlərini birləşdirmək imiş. Bu, böyük siyasətçinin müdrik gedişi idi. O, türk xalqlarını birləşdirmək üçün birbaşa siyasi yol seçmədi, mənəvi yol seçdi, türk tarixini, türk mənəviyyatını özündə əks etdirən "Kitabi-Dədə Qorqud" yolunu, "Manas" yolunu, Füzuli yaradıcılığını intixab etdi. Uzaqgörən siyasətçi böyük strateq həm Füzuli vasitəsi ilə Azərbaycanı dünyaya tanıtdı, həm türkün dünya sivilizasiyasındakı uca yerini, həm də gələcək nəsillərə türkləri birləşdirməyin yolunu göstərdi. Heydər Əliyev zəkası ilə Füzuli dühasının vəhdətindən doğan bədii-tarixi nəticə məhz bundan ibarət idi.

Heydər Əliyev Nizamiyə, Nəsimiyə, Füzuliyə – ümumən klassiklərə yüksək dəyər verərkən ictimai-tarixi məqsədlərlə bərabər, həm də Azərbaycan ədəbiyyatı-

nın gələcəyini düşünürdü. Bu məsələni tədqiqatçılar xüsusi olaraq vurğulayırlar: "Heydər Əliyevin klassik ədəbiyyata və onun ölməz nümayəndələrinin irsinə verdiyi müstəsna əhəmiyyət bir də onunla bağlı idi ki, ədəbi inkişafın sonrakı dövrlərində ən istedadlı şair və yazıçılarımız klassik ədəbiyyatda qoyulmuş ümumbəşəri humanist mövzu və obrazlara dönə-dönə qayıdır və xalqın, millətin qarşısında duran problemləri həll etmək üçün onlardan uğurla bəhrələndilər" (T.Kərimli, V.Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. B., "Şərq-Qərb" 2009. s.113). Beləliklə, də H.Əliyev ədəbi varisliyin yeni, optimal bir formasını gündəmə gətirir: klassik irs yeni ədəbi nəsillər üçün həm mövzu və ideya mənbəyi, həm də poetik örnəkdir! Bu, həqiqətən belədir: Məsələn, XX əsrin ədib və şairləri dönə-dönə Nizami, Füzuli mövzularına müraciət etmiş, onlarda öz əsrlərinin suallarına cavab axtarmış, həmin mövzulara ədəbi-poetik təravət gətirmişlər. Klassiklərin yeni zamanədə dirçəlişi, həmişə intibah səviyyəsində olması da, dünya ədəbi-tarixi prosesində mümkün olan bir hadisədir. Fikrimizcə, klassik ədəbiyyatın gücü, yaşarılığı və bəşəriliyi də, ilk növbədə, belə bir ideya-poetik gücə malik olmasındadır.



Heydər Əliyevin fikrincə, Füzuli kimi böyük sənətkarlar öz xalqlarının tarixdə irəliləməsinə kömək edir, tarixin qaranlıq dolanbaclarında onun irəliləməsi üçün bir növ mayaka çevrilirlər: "Azərbaycan xalqının həyatı böyük, çətin mərhələlərdən keçmişdir. Ancaq bütün çətinlikləri keçməkdə Azərbaycan xalqına onun böyük insanlarının, şəxsiyyətlərinin yaratdıqları sənət əsərləri kömək etmişdir. Füzuli bunların arasında görkəmli yer tutur".

Füzuli orta çağlar Şərq-Azərbaycan ədəbiyyatının bədii-fəlsəfi zirvəsidir. Ona görə də Füzulini görmək və göstərmək üçün onu öyrənmək lazımdır. Və H.Əliyev bu cəhətə – Füzuli irsinin nəşri və tədqiqi məsələsinə xüsusi önəm verirdi. Bu baxımdan XX əsrin sonunda keçirilən Füzuli bayramı təkcə türk millətlərinin birlik mərasimləri deyil, həm də bir növ XX əsr ədəbi-filoloji fikrinin yekunu idi. Heydər Əliyev bu fikirdə idi ki: "Biz elmimizin, mədəniyyətimizin, incəsənətimizin, ədəbiyyatımızın XX əsrdəki nailiyyətləri ilə fəxr edə bilərik". Həqiqətən də, XX əsrdə Azərbaycanda elm və mədəniyyət, xüsusilə də humanitar və ictimai elmlər, filoloji fikir vüsətli inkişaf yolu keçmiş, Azərbaycanda rəssamlıq, musiqi, aktyor və ədəbiyyatşünaslıq məktəbləri təşəkkül tapıb



Mikayıl Abdullayev. "Şamla, pərvanə ilə həmdəm Füzuli". 1958

formalaşmışdır. Burada müxtəlif xalqların və onların mədəniyyətlərinin qarşılıqlı əlaqə və təmasda olduğu ümumittifaq mühitinin də rolu danılmazdır.

H.Əliyevin Füzuli ilə bağlı görüşləri onun, ümumiyyətlə, klassik irsə münasibətinin miqyasını əks etdirir. Heç şübhəsiz ki, tarixilik və müasirliyin vəhdəti onun klassik irsə münasibətinin metodoloji əsasını müəyyənləşdirir. Əslində, bu, klassik irsi müasirliyin dili ilə oxumaq nümunəsidir. Füzuliyə münasibətdə Heydər Əliyev zəkası ilə Füzuli dühası bir-birini üzvi şəkildə tamamlayır. Füzuli dühasının mahiyyətini açmaq və bütün cahana göstərmək XX əsrdə hamıdan çox H.Əliyevə nəsib olmuşdur.

**"525-ci qəzet".**
**7 mart 2013**

# Mündəricat

*Aktotı Raimkulova.* Ədəbiyyatı əbədi yaşadan unudulmaz lider ....7

**Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin dahi şair Məhəmməd Füzuli ilə bağlı fərman və sərəncamları**

Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ....10

Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....13

Azərbaycan Respublikası Elmlər Akademiyasının Əlyazmalar İnstitutuna Məhəmməd Füzulinin adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....14

"Füzuli ensiklopediyası"nın yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....15

Füzuli adına beynəlxalq mükafatın təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....16

Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....17

**Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyevin dahi şair Məhəmməd Füzulinin yubileylərindəki nitqləri, beynəlxalq tədbirlərə ünvanladığı məktublar və Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar yaradılmış Dövlət Komissiyasının iclaslarındakı çıxışları**

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Prezident sarayında dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar yubiley üzrə Dövlət Komissiyasının iclasında çıxışı ....20

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibətilə Türkiyədə keçirilən yubiley tədbirlərində iştirak etmək üçün yola düşərkən Binə hava limanında jurnalistlərə qısa müsahibəsi ....36

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Ankara yaxınlığındakı Bilkənd Universitet şəhərciyində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyinə həsr olunmuş yubiley şənliklərinin təntənəli açılışında çıxışı ....37

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Parlamentində dahi Azərbaycan şairi Məhəmməd Füzulini anma mərasimindəki çıxışı ....45



Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin Moskvada dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi ....54

Heydər Əliyevin Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibətilə Dərbənd şəhərində keçirilən beynəlxalq elmi konfransın iştirakçılarına məktubu ....57

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasının növbəti iclasında çıxışı ....58

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin Məhəmməd Füzulinin 500 illik yubileyinə həsr olunmuş beynəlxalq simpoziuma məktubu ....65

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyinə həsr edilmiş təntənəli gecədə nitqi ....66

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dahi şair və mütəfəkkir Məhəmməd Füzulinin 500 illik yubileyi şərəfinə təşkil olunmuş rəsmi qəbulda nitqi ....78

**MƏQALƏLƏR**

*Nizami Cəfərov.* Heydər Əliyev və Məhəmməd Füzuli ....82

*Teymur Kərimli.* Heydər Əliyev və klassik irs .96

*Musa Qasımlı.* "Heydər Əliyev. İstiqlala gedən yol (1969–1987-ci illər)" ....122

*İmamverdi Əbilov.* Dünənin... sabahın... çağdaş dahisi ....128

*Tərlan Novruzov.* Heydər Əliyev və klassik ədəbi irs ....135

*Elnarə Akimova.* Heydər Əliyevin Füzuli mücadiləsi – "Sorun kim, bu nə sevdadır..."140

*Salatın Əhmədova.* Heydər Əliyev zəkası və Füzuli dühası ....147

# HEYDƏR ƏLİYEV
*və*
# MƏHƏMMƏD FÜZULİ

Nəşrdə "Füzuli dünyası rəsmlərdə" ("Azərbaycan ensiklopediyası", 1995. 80 s.), Rafael Hüseynovun "Söz heykəli" ("Elm və təhsil", 2012. 816 s.) kitablarındakı rəsmlərdən istifadə olunmuşdur.


Dizayner: Mətanət Əliqızı

Korrektorlar: Həcər Telmaqızı
Nailə Qasımova
Türkan Qurbanlı

Çapa imzalanmışdır: 12.04.2024. Formatı 70x100 1/12.
Həcmi 13 ç.v. Sifariş № 10. Tiraj 300

"Zərdabi Nəşr" MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel.: (050; 055; 070) 344 76 01
e-mail: zerdabi_em@mail.ru